# 15 İyun Milli Qurtuluş Günüdür!


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 126 (30530) 15 iyun 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Şuşa Bəyannaməsi – tarixi bağlılıq və qardaşlıq möhürü



Səhifə ⇨ 3

# Qurtuluş missiyasından Zəfər salnaməsinə şanlı yol

## Ulu öndərin xilas düsturu və müstəqilliyimizin mötəbər təminatı



**Azərbaycan xalqının Milli Qurtuluş Günündən 31 il ötür. Ötən müddəti yada salanda gözlərimiz önündə bir çox hadisələr canlanır. Onların hər biri müasir tariximizin ayrılmaz tərkib hissəsidir. Həmin hadisələri xatırlamaq ibrətdir. Tarix ibrət üzərində qurulmuş yaşantıdır. Sadəcə olaraq ibrətdə sentimentallıq var, tarix isə faktoloji təbiətə malikdir. Ancaq hər ibrət səhnəsinə tarix demək olmur. Ulu öndər Heydər Əliyevin böyüklüyü ibrət dərslərimizi tarixə çevirmək bacarığındadır. Milli Qurtuluşumuzun təməlində də elə bu amil dayanır.**

Hər ölkə rəhbəri tarix yarada bilmir. Bir çox hallarda dövlət rəhbərləri, mahiyyətcə, statistika formalaşdırırlar. Bəlkə də, bu, onların idarə etdikləri məkanların yerləşdikləri siyasi-coğrafi mühitlə bağlıdır. Nəzərə alsaq ki, yaşadığımız Cənubi Qafqaz regionu mürəkkəb siyasi tematikaya malikdir və təbəddülatlarla doludur, deməli, xalqımız üçün tarixi şəxsiyyətə sahiblik Tanrının böyük lütfüdür. Axı bu coğrafiyada lidersiz, tarixi şəxsiyyətsiz ayaqda qalmaq, var olmaq mümkünsüzdür.

Əslində, Orta əsrlərin ikinci yarısından etibarən sözügedən mümkünsüzlüyün əsası qoyulmuşdu da. 1993-cü ilin 15 iyununadək yaşanmış proseslər fonundakı tənəzzül fikrimizin sübutudur. Qətiyyətlə demək olar ki, Milli Qurtuluş Günü tarixin mürəkkəbliklərinə və məhrumiyyətlərinə qarşı müqavimət əzmimizdir. Ulu öndər Heydər Əliyevdir o əzmin müəllifi. Elə Tanrının insanımıza lütfü də odur.

Dünyada beş mindən çox xalq var. Onların yalnız, təxminən, iki yüzü müstəqil dövlətinə sahibdir. Yəqin, fərqinə vardınız ki, beş minlik sayın müqabilində iki yüz çox kiçik rəqəmdir. Deməli, dövləti olan xalq statusuna sahiblik də adi məsələ sayıla bilməz. Heydər Əliyev şəxsiyyəti müasir dövrdəki statusumuzun təsdiq simvoludur. Elə bir simvol ki, bənzərsiz və təkrarsızdır. Milli qurtuluşumuz da eynilə belə bir təbiətə malikdir. O, özündə azı çoxdan daha üstün edən əzmi və mətanəti yaşadır. Bu yaşantı isə dövlətə sahiblik xoşbəxtliyidir. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi xoşbəxtlik. Özündə fəxarəti təcəssüm etdirən xoşbəxtlik. Görünür, buna görə də Ulu öndər deyirdi: "... fəxr edirəm ki, mən azərbaycanlıyam".

*(ardı 4-cü səhifədə)*

## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən xoş arzu və diləklərimi yetirirəm.

Dünya müsəlmanlarının mənəvi həmrəyliyinin təcəssümü olan Qurban bayramında mömin insanlar Allah və din yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirmək fürsəti qazanır, Uca Yaradana yaxınlığın sevincini yaşayırlar.

Bəşər mədəniyyətinə və elmi-fəlsəfi fikir xəzinəsinə misilsiz töhfələr vermiş Azərbaycan xalqının dünyagörüşünün təşəkkülündə və milli-mədəni inkişafında İslam dini mühüm mərhələ təşkil edir. Ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları ölkəmizdə qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında mütərəqqi islami dəyərlərin rolu danılmazdır.

Dini bayramlar, o cümlədən Qurban mərasimləri cəmiyyətimizdə milli-mənəvi birliyin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsinə çevrilir. Bu mübarək bayram günlərində ölkəmizin hər yerində geniş xeyriyyəçilik və sosial yardımlaşma tədbirləri həyata keçirilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Xalqımızın firavanlığı və əmin-amanlığı naminə etdiyiniz duaların və kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hər birinizə səmimi təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2024-cü il**

## Sabiq ABŞ səfirinin ermənilərə tutarlı ismarıcı



Səhifə ⇨ 4

## Ter-Petrosyan partiyasının Paşinyan iqtidarına qəzəb püskürtüsü



Səhifə ⇨ 8

# İrəvanın başına bəla olacaq "düşmən ovu"

## Belarus və Azərbaycan əməkdaşlığının Ermənistana nə təhlükəsi?

**"Belarus Azərbaycana silah verib, bununla da Ermənistana xəyanət edib". Belə bir iddia ilə adı və fəaliyyəti bizə yaxşı tanış olan "Politico" qəzeti çıxış edib.**



Nəşrin məqaləsində naməlum sənədə istinad edilərək yazılır ki, Ermənistan hökuməti bu həftə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təkilatı (KTMT) adlı hərbi alyansdan çıxmaq niyyətini açıqlayıb.

Bunun ardınca ermənipərəst nəşr rəsmi Minskin 44 günlük müharibədə Bakıya "hərbi yardım" etməsi ilə bağlı hansısa sənəddən sitat gətirir: "Belarus Ermənistanın düşməni Azərbaycana müasir silahlar verib. Baxmayaraq ki, Minsk və İrəvan müttəfiqdirlər və onlar birlikdə Rusiyanın himayəsi altındakı KTMT təhlükəsizlik alyansına daxildirlər".

Birincisi, Belarusun hansısa alyansa üzvlüyü onun dünyanın digər ölkələri ilə müxtəlif sahələrdə əməkdaşlığını yasaqlamaq kimi hüquqi presedent yaratmır. Ən azı, ona görə ki, Belarus BMT-nin üzvü olan suveren və müstəqil dövlətdir. İkincisi, Minsk ilə Bakı arasında səmimi dostluq və əməkdaşlıq əlaqələri uzunmüddətli tarixə malikdir. Hələ keçmiş SSRİ dönəmində Belarus Respublikası Azərbaycanın daim sıx münasibət saxladığı ölkələrdən biri olub. Ticarət-İqtisadi Əməkdaşlıq üzrə Belarus–Azərbaycan hökumətlərarası komissiyası 20 ildir ki, fəaliyyət göstərir. Üçüncüsü, Belarus, ermənipərəst güclərdən fərqli olaraq, Qarabağ münaqişəsinin davam etdiyi 30 il ərzində işğalçı ilə işğala məruz qalan arasında bərabərlik işarəsi qoymayıb. Rəsmi Minsk beynəlxalq hüquqa uyğun olaraq hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və həmin KTMT çərçivəsində ölkəmizin haqq işinə tərəfdar olmaqla ədalətli mövqe tutub.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan xarici investisiyaya açıq ölkədir



Səhifə ⇨ 9

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 40-1 – 40-3-cü hissələr əlavə edilsin:

"40-1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu"

40-2. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Regional Su Meliorasiya Xidməti"

40-3. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi";

1.2. 47-ci hissənin sonundan nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda 48-ci hissə əlavə edilsin:

"48. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti.".

**2.** Bu Fərman 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2024-cü il**

## "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Qırğız Respublikasının Ədliyyə Nazirliyi arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında Saziş"in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Qırğız Respublikasının Ədliyyə Nazirliyi arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2024-cü il**

## "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Qırğız Respublikasının Rəqəmsal İnkişaf Nazirliyi arasında Qırğız Respublikasında dövlət xidmətləri mərkəzlərinin təkmilləşdirilməsinə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Qırğız Respublikasının Rəqəmsal İnkişaf Nazirliyi arasında Qırğız Respublikasında dövlət xidmətləri mərkəzlərinin təkmilləşdirilməsinə dair Anlaşma Memorandumu" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2024-cü il**

## "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətin statistikasına dair məlumatların mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətin statistikasına dair məlumatların mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokol" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2024-cü il**

## "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında gömrük idarəetməsinin təkmilləşdirilməsi məqsədilə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında gömrük idarəetməsinin təkmilləşdirilməsi məqsədilə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2024-cü il**

## "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2024-cü il**

## "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2024-cü il**

## "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il mayın 7-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Slovakiya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

***Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!***

Ölkənizin milli bayramı münasibətilə Zati-alinizi İraq xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik etməkdən fərəh duyur, Sizə müvəffəqiyyətlər, dost Azərbaycan xalqına tərəqqi və rifah arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, dost ölkələrimiz və xalqlarımız arasında bütün sahələrdə əlaqələri möhkəmləndirməkdə maraqlı olduğumuzu təsdiq edirəm.

**Dərin hörmətlə,**

***Əbdüllətif Camal RƏŞİD,***
***İraq Respublikasının Prezidenti***

***

**Cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə Ekvador hökuməti, xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf duyuram.

Fürsətdən istifadə edərək, hökumətimin qarşılıqlı faydalı mövzular üzrə əməkdaşlıq layihələrinin həyata keçirilməsi yolu ilə ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində fəaliyyətini davam etdirilməsi istəyini Sizə çatdırıram.

Zati-aliləri, Sizə bir daha ən yüksək ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Daniel Noboa AZİN,***
***Ekvador Respublikasının Konstitusional Prezidenti***

***

**Zati-aliləri!**

Müstəqilliyinizin 106-cı ildönümü münasibətilə Sizi, Azərbaycan hökumətini və xalqını təbrik edirəm.

Qayana Azərbaycanın kənd təsərrüfatını həyati vacib sektor kimi prioritetləşdirmək və iqtisadiyyatını daha da gücləndirmək üçün kənd təsərrüfatının modernləşdirilməsi istiqamətindəki təşəbbüslərini və sahəvi siyasətini izləyir və alqışlayır. Qayana da məşğulluğu və ərzaq təhlükəsizliyi perspektivlərini artırmaq üçün iqtisadi tərəqqinin əsas mühərriki kimi bu mühüm sektoru inkişaf etdirməyə sadiqdir.

Ölkələrimiz səmimi münasibətlərə malikdir. Hərtərəfli qarşılıqlı faydamız üçün ümumi maraq dairələri vasitəsilə bu əlaqələrin dərinləşdirilməsinə ümid edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı və davamlı rifahınız üçün ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Məhəmməd İrfan ƏLİ,***
***Qayana Kooperativ Respublikasının Prezidenti***

# Şeyxülislamın Qurban bayramı təbriki

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, şeyxülislam Allahşükür Paşazadə Azərbaycan xalqını Qurban bayramı münasibətilə təbrik edib.**



Builki Qurban bayramının müstəqil dövlətçilik tariximizdə mühüm əhəmiyyət daşıyan Milli Qurtuluş Günü ilə eyni günə təsadüf etdiyini vurğulayan şeyxülislam bu iki müqəddəs günün üst-üstə düşməsinin həm dini, həm də milli dəyərlərimizi daha da möhkəmləndirdiyini, həmrəyliyimizi gücləndirdiyini söyləyib: "Bu əziz bayramı dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması, qəhrəman Azərbaycan əsgərinin Xankəndidə, Əsgəranda, Xocalıda dövlətimizin üçrəngli Bayrağını ucaltması, Şuşa, Ağdam, Zəngilan məscidlərinin minarələrindən azanların səslənməsi ilə qarşılayırıq. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlətçiliyimizin xilası günü münasibətilə xalqımızı ürəkdən təbrik edir, dövlət müstəqilliyimizin daimi, zəfərlərimizin davamlı olmasını diləyirik".

Şeyxülislam bildirib ki, Dünya ictimaiyyəti Azərbaycanın siyasi liderinin qüdrətinin və ölkəmizdəki sarsılmaz xalq-dövlət birliyinin şahididir: "Ulu öndər Heydər Əliyevin siyasi məktəbini şərəflə davam etdirən Prezident İlham Əliyevin misilsiz uğurlarına görə, biz Azərbaycanın gələcəyinə böyük inam, ümidlə baxırıq və inanırıq ki, Allahın köməyi ilə xalqımız müzəffər lideri ilə birlikdə daha böyük zəfərlərə imza atacaq".

Bayram münasibətilə Azərbaycan xalqını və dünya müsəlmanlarını təbrik edən QMİ sədriq eyd edib ki, Qurban bayramının daşıdığı mənəvi dəyərlərə həmişə sadiq qalmağı Uca yaradandan təmənna edirik: "Allah bütün müsəlman ümmətinin ibadətlərini qəbul etsin, Azərbaycanı və dövlətimizin başçısını qorusun, Allahın mərhəmət nəzəri daim Vətənimizin və xalqımızın üzərində olsun! Qurban bayramımız mübarək olsun!".

**XQ**

# Azərbaycan–Serbiya hərbi əməkdaşlığı

**İyunun 14-də Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dəvəti ilə Serbiyanın Müdafiə naziri Bratislav Qaşiçin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən redaksiyamıza verilən məlumata görə, general-polkovnik Z.Həsənov Azərbaycan ilə Serbiya arasında strateji tərəfdaşlıq zəminində qurulan əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayıb. Nazir birgə hərbi əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsinin vacibliyini qeyd edib. Zakir Həsənov B.Qaşiçi 2024-cü ilin sentyabrında Bakıda keçiriləcək "ADEX" 5-ci Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinə dəvət edib.

Serbiyanın müdafiə naziri Azərbaycan ilə Serbiya arasında bütün sahələrdə əməkdaşlığa hazır olduqlarını xüsusi vurğulayıb.

Görüşdə hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb, digər məsələlər müzakirə edilib.

**XQ**

# Şuşa Bəyannaməsi – tarixi bağlılıq və qardaşlıq möhürü

**Şuşa Bəyannaməsinin siyasi və tarixi əhəmiyyətini özündə ehtiva edən əsas amil sənədin 15 iyun Milli Qurtuluş Günündə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada imzalanmasıdır. Əgər 31 il öncə Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ümummilli lider Heydər Əliyev aldısa, illər sonra eyni gündə Azərbaycan torpaqlarını işğaldan azad edən müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa Bəyannaməsini imzaladı.**



Şuşa Bəyannaməsi müstəsna siyasi və tarixi əhəmiyyətə malikdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə xarakterizə olunan Azərbaycan–Türkiyə münasibətləri məhz 2021-ci il iyunun 15-də özünün zirvəsinə yüksəlib, yeni mərhələnin təməlini qoyub.

Bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də regional və beynəlxalq məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkəmizin dünyada rolunu və çəkisini daha da artırdı.

Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal altındakı torpaqların azad olunmasında, ərazi bütövlüyünün bərpasında Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımız tərəfindən yüksək qiymətləndirilir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində iki qardaş ölkənin birgə təşəbbüsləri bu sahədə əldə edilən uğurların ən parlaq nümunəsidir.

Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafeləri müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından da əhəmiyyət kəsb edir. Türkiyə və Azərbaycan qarşılıqlı maraq doğuran beynəlxalq məsələlərdə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək eyni mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi ilə yanaşı, BMT, ATƏT, Avropa Şurası, TDƏŞ, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla bir çox təşkilatlar çərçivəsində sinxron fəaliyyəti davam etdirirlər.

Sənəddə ortaq milli maraqlar baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi xüsusi yer tutur. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid, yaxud təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüslərin həyata keçirilməsi, bir-birinə lazımi yardımın göstərilməsi, silahlı qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur.

Bəyannamədə, həmçinin hər iki ölkənin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması öz əksini tapıb.

***

İki qardaş ölkə arasında ticarət-iqtisadi münasibətlərə gəlincə, tarixi sənəd özündə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi, Cənubi Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəldilmiş fəaliyyətin əlaqələndirilmiş şəkildə davam etdirilməsini ehtiva edir.

Ticari-iqtisadi münasibətlərdə Zəngəzur dəhlizinin açılması Azərbaycanın tarixi ərazisi olan qədim Zəngəzur torpağına yenidən qayıdışını da təmin etməklə bərabər, Türkiyə ilə Azərbaycan arasında yeni körpü rolunu oynayacaq. Bununla bağlı Prezident İlham Əliyev 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində deyib: "Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan təqribən 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıb, talan edib. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran 40 kilometrlik Zəngəzur dəhlizidir. Bu dəhliz açılmalıdır və açılacaq".

Tarixi sənəddə, həmçinin Azərbaycanla dünyadakı türk diasporları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, ümumi problemlərlə bağlı birgə addımların atılması, davamlı həmrəylik göstərilməsi, milli mənafelərin qorunmasına dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diaspor fəaliyyətinin əlaqələndirilməsi və qarşılıqlı dəstəyin verilməsi nəzərdə tutulur.

Şuşa Bəyannaməsində Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin saxtalaşdırılması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhü və sabitliyi təhdid etməsi nəzərə alınmaqla, 1915-ci il hadisələri ilə bağlı arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərin qətiyyətlə dəstəklənməsinin vacibliyi xüsusilə vurğulanır.

Azərbaycan–Türkiyə Media Platformasının imkanları çərçivəsində iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahəsində əməkdaşlıq gücləndirilməli, Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə TDƏŞ və əlaqədar qurumlar çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verilməsi də sənəddə qeyd olunur.

Qeyd edək ki, Azərbaycan–Türkiyə münasibətləri hazırda özünün zirvəsinə yüksəlib. Xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və digər ortaq bağlara malik olması ölkələri də həmişə bir-birinə yaxınlaşdırıb, həm sevincli, həm də kədərli günlərdə bir-birinin yanında olub.

Onu da qeyd edək ki, Azərbaycan– Türkiyə arasında əlaqələrin yüksək səviyyəsi, ümumilikdə, regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. 44 günlük Vətən müharibəsi zamanı dünya bunun şahidi oldu. Müharibənin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlarında bu müharibədə Azərbaycanın yanında olduğunu bildirdi. Bu dəstək gücümüzə güc qatdı, Qarabağ Zəfərində mühüm rol oynadı. Xüsusən Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın Bakının Azadlıq meydanında keçirilən Zəfər paradında Prezident İlham Əliyevlə yan-yana dayanması ölkələrimizin birliyinin, xalqlarımızın qardaşlığının bütün dünyaya nümayişi idi.

Bu gün Qarabağda böyük sürətlə aparılan geniş abadlıq və bərpa işləri torpağımıza yeni nəfəs verir. Artıq Şuşa şəhəri uzun illərdən sonra yenidən milli və beynəlxalq tədbirlərə, festivallara evsahibliyi edir. Bunun davamlı olması üçün, ilk növbədə, regionda sülhün, sabitliyin bərqərar olması ən vacib amildir. Təsadüfi deyil ki, cənab Prezidentin 2022-ci il 5 yanvar tarixli Sərəncamına əsasən ölkəmizdə 2022-ci il "Şuşa İli" elan edildi. İlham Əliyevin 2022-ci il 6 dekabr tarixli Sərəncamı ilə Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı"na çevrildi.

"Şuşa İli" ilə bağlı verilən sərəncamda deyilir: "Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır. Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır".

Hər şeydən göründüyü kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu gün postmüharibə dövrünün reallıqlarını ortaya qoyur və yeni hədəfləri, inkişaf istiqamətlərini müəyyənləşdirir. Qardaş Türkiyə Respublikası ilə imzalanan Şuşa Bəyannaməsi isə Azərbaycanın bölgənin və dünyanın daha qüdrətli dövlətinə çevrilməsi üçün əlverişli imkanlar yaradır.

Şübhəsiz ki, üç il bundan əvvəl Şuşa Bəyannaməsinin imzalanması ilə Azərbaycan və Türkiyə arasında siyasi, sosial-iqtisadi əməkdaşlıq özünün yeni mərhələsinə daxil olub. Bu bəyannamə, eyni zamanda, 44 günlük müharibədən sonra bölgədə yaranan yeni əməkdaşlıq imkanlarını reallaşdırmaq istiqamətində önəmli addımlar atan iki qardaş ölkənin sülhə, əmin-amanlığa sadiqliyinin rəmzidir. Başqa sözlə, Azərbaycan və Türkiyə bütün potensial gücünü bəyannamədən irəli gələn vəzifələrin icrasına yönəltməklə, Cənubi Qafqazı sülh regionuna çevirməyi qarşıya əsas vəzifə kimi qoydu və buna nail olur.

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru***

# İrəvanın başına bəla olacaq "düşmən ovu"

**(əvvəli 1-ci səhifədə)**

Bəli, Azərbaycan–Belarus münasibətləri hazırda strateji əməkdaşlıq səviyyəsinə çatıb. Bu qarşılıqlı faydalı tərəfdaşlığın, etibarlı partnyorluğun yaranmasında iki ölkə liderləri arasında qarşılıqlı hörmət və rəğbətə söykənən şəxsi münasibətlərin önəmli rolunu qeyd etməmək mümkün deyil. Aleksandr Lukaşenkonun kağız üzərində Ermənistanın müttəfiqi olmasına baxmayaraq, bir qədər əvvəl Azərbaycan Prezidenti İlham Əliyevi "bizim adamımız" adlandırması və Vətən müharibəsinin gedişində KTMT-nin ölkəmizə qarşı çıxmasını "yanlış addım" kimi dəyərləndirməsi rəsmi Minskin heç də hansısa korporativ maraqları deyil, obyektivliyi və ədaləti rəhbər tutmasının təzahürü idi. Dövlətimizin başçısı isə öz növbəsində, 2022-ci ildə "KTMT-də Ermənistandan daha çox bizim dostumuz var" bəyanatını verəndə, çox güman ki, həmin dostların sırasında, ilk növbədə, Belarusu nəzərdə tuturdu. İki ölkə arasındakı əməkdaşlığın üfiqləri Belarus traktorları, yük, kommunal və kənd təsərrüfatı maşınlarından tutmuş optik alətlərə, liftlərə, o cümlədən, hərbi avadanlığa qədər genişdir.

***

Bu günlərdə baş nazir Nikol Paşinyanın Belarus Prezidenti Aleksandr Lukaşenkonun ünvanına səsləndirdiyi kəskin ifadələr, ölkənin Minskdəki səfirini "məsləhətləşmələr aparmaqdan ötrü" geri çağırması müəyyən fərziyə və ehtimalların yaranmasına səbəb olub. Baş nazir parlamentdəki çıxışında "Mən bəyan edirəm ki, Aleksandr Lukaşenko prezident olduğu müddətdə bir daha Belarusa getməyəcəyəm", – deyə bəyan etməsi İrəvanın Moskvadan sonra Minsk ilə də münasibətlərini gərginləşdirməsindən xəbər verir. Əgər bu gərginləşmənin səbəbi, doğrudan da, Belarus liderinin Azərbaycana isti münasibəti, Bakıya bir ay əvvəlki rəsmi səfərində dövlətimizin başçısı ilə birgə Şuşaya getməsinin İrəvanda yaratdığı qıcıqdırsa, bunun sonda Hayastanın özünün başına bəla açacağını indidən söyləmək mümkündür. Paşinyan hesab edir ki, Lukaşenko Ermənistandan üzr istəsə və ya Belarus Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını tərk edərsə, İrəvanın KTMT-yə münasibəti dəyişə bilər.

Aydın məsələdir ki, Belarusun MDB, KTMT kimi possovet qurumlarında təmsil olunması, hətta Rusiya ilə Müttəfiq Dövlətlər Müqaviləsinə imza atması ona digər ölkələrlə, o cümlədən, Azərbaycanla yaxından əməkdaşlıq etməsinə çəpər çəkə bilməz. Bunu beynəlxalq hüququn prinsipləri kimi, sivil dünyanın qəbul etdiyi norma və qaydalar da məqbul saymır. O ki qaldı, Belarusun Azərbaycana hərbi yardımı məsələsinə, bu sahədə də hər şey şəffaf və açıqdır. İki ölkə arasında hərbi sahədə sıx əməkdaşlığın mövcud olması isə heç kəsə, yəqin, İrəvana da sirr deyil.

***

Bütün bunları "Politico" qəzetinin nəzərinə çatdırmaqda məqsədimiz ondan ibarətdir ki, maliyyəsini ABŞ-dəki erməni lobbisindən alan psevdojurnalistləri bunun müqabilində peşə əxlaqını unutmuş olsalar da, ən azı, beynəlxalq hüquqa, diplomatik etiketə sayğı göstərsinlər. Yazanda Qafqazı, ermənini yaxından tanıyan oxucu kateqoriyasını da nəzərdən qaçırmasınlar. Elə bunu unutduqlarına görədir ki, məqalədə bu formada ermənipərəstliklərini ortaya qoyurlar: "Onlarla məktub, diplomatik nota, yük qaimələri və ixrac pasportlarından ibarət sənədlər toplusu Ermənistanda daxili gərginliyin pik həddə çatdığı 2018–2022-ci illər arasında Belarusun Azərbaycanın Silahlı Qüvvələrinə fəal yardım etdiyini göstərir".



Azərbaycan dünyanın hərbi sənaye-si inkişaf etmiş bir sıra ölkələrindən hərbi texnika, silah-sursat aldığını heç vaxt gizlətməyib. Belarusun da həmin ölkələrin siyahısında olması üçüncü tərəfi maraqlandırmamalıdır. Bu kontekstdən yanaşanda İrəvanın "Azərbaycanla dostluq edən bizim düşmənimizdir" kimi primitiv yanaşması, sadəcə olaraq, ironiya doğurur. Paşinyanın bu yanlış siyasi məntiqindən belə çıxır ki, Azərbaycan hazırda Hayastana silah göndərən və ya ötürən ölkələri özünə düşmən elan etməlidir. Gülünc səslənir, deyilmi?!

Bakıya təklif edilən xidmətlərə köhnə artilleriya texnikasının modernləşdirilməsi, elektron müharibə və pilotsuz sistemlər üçün istifadə edilən yeni hərbi texnikanın verilməsinin də daxil olduğunu qeyd edən "Politico"nun məqaləsində göstərilir ki, ikitərəfli sövdələşməyə Belarusun silah ixracı üzrə dövlət agentliyinin özünün hərbi-sənaye firmalarına Azərbaycan Silahlı Qüvvələri üçün artilleriya atışlarını həyata keçirən müasir avadanlıq sifarişləri ilə bağlı məktublar, həmçinin iki dövlət arasında "Qroza-S" mobil anti-dron stansiyalarının alınması ilə bağlı yazışmalar daxildir. Nəşrin nəzərdən keçirdiyi diplomatik mesajlardan birində Belarus müəssisələrinin "Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında, həmçinin Belarus mal və xidmətlərinin ölkəyə ixracında" fəal rol oynadığı bildirilir.

Sadaladığı məlumatları, az qala, "tam məxfi" qrifi altında ictimai rəyə sırımağa çalışan qəzetin məqsədi məqalənin sonunda üzə çıxır. Sitat: "2022-ci ilin sentyabrında Azərbaycan qoşunları əsas strateji yüksəklikləri "işğal edərək" Ermənistan ərazisinə "təcavüzə" başlayıb. Bundan sonra Ermənistan hərbi dəstək üçün KTMT-yə müraciət edib. Amma hərbi alyans yalnız faktları müəyyən etmək üçün nümayəndə heyəti göndərməyi təklif edəndən sonra İrəvan KTMT-ni üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməkdə ittiham edib".

"Cidanı çuvalda gizlətməkdən" ötrü boş cəhdlər edən "Politico" hamıya məlum faktların konstatasiyasından sonra belə bir qənaətə gəlir ki, Moskvanın ən yaxın müttəfiqlərindən biri olan Belarus Kremlin gizli xeyir-duası olmasaydı, bu hərəkətləri edə bilməzdi. Altməqsəd aydındır. Nəhayət, qəzetin "məxfi plan"ının əsas hədəfi görünməyə başlayır. Hədəf Minsk ilə Moskvanı qarşı-qarşıya qoymaq, suyu bulandırmaq və Bakının bu ölkələrlə münasibətlərinə kölgə salmaqdır. Amma hayparəst nəşr bundan ötrü vaxtı və məkanı yanlış seçib.

Azərbaycan Prezidenti İlham Əliyev bir ay əvvəl belaruslu həmkarı və dostu Aleksandr Lukaşenko ilə birgə mətbuata verdiyi açıqlamasında xüsusi olaraq vurğulayıb ki, çox uzaq olmayan gələcəkdə Belarus–Azərbaycan münasibətlərinin yeni perspektivləri görünəcək, yeni müəssisələr və iş yerləri açılacaq, əməkdaşlığın yeni istiqamətləri müəyyənləşəcək. Dövlət başçımız çıxışında Belarus şirkətlərini Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında fəal iştiraka dəvət etdiyini bildirdi və dedi ki, bu istiqamətdə həyata keçirilənək işlərin miqyası çox genişdir.

Bu, xaricdəki erməni separatçı düşərgəsinə və onun "Poltico" kimi "züytutan"larına verilən ən layiqli cavabdır.

***İ.HƏSƏNQALA***
***XQ***



# Qurtuluş missiyasından Zəfər salnaməsinə şanlı yol



(əvvəli 1-ci səhifədə)

Bəli, Heydər Əliyev azərbaycanlı olması ilə nə qədər fəxr etsə də, azdır. Çünki, o, azərbaycanlı adına, türk kökəninə diriliş vermiş, nəfəs gətirmiş şəxsiyyətdir. 1993-cü ilin 15 İyun tarixinədək sanki nəfəsimiz kəsilmişdi, boğulurduq. Durum təxminən belə idi: 1988-ci ildən vüsət almış xalq azadlıq hərəkatı dövlətçiliyimizi bərpa etmişdi. Həmin ilin gətirdiyi ruhla 1990-cı ilin 20 Yanvar dəhşətinə sinə gərmiş, özümüzü təsdiqləmişdik. Fəqət, belə təəssürat yaranmışdı ki, sanki nə istədiyimizi bilmirik. Axı toplum olaraq uğrunda can atdığımız amalların və xəyalların qarşılığında acı reallıqları görürdük. Görür və nəticə etibarilə, bir növ, yorulur, taqətdən düşürdük. 15 İyun tarixi bizim üçün Zirvəyə çevrildi. Həmin gün ulu öndər Heydər Əliyevin simasında boş xəyalları deyil, Vətən uğrunda gerçək mübarizəni seçməyi öyrənməyə başladıq. Öyrəndik ki, mübarizə üçün sentimentallıq yox, qətiyyət və prinsipiallıq şərtdir. Daim diri və dik qalmağın da şərti budur.

Onu da düşünək ki, XIX əsrin sonu–XX əsrin əvvəllərində Vətənimizin ictimai-siyasi həyatındakı intibah məsələsində milli kimlik hissimiz təcəlli etmişdi. Həmin hissin doğurduğu milli dövlətçilik ruhu və bu ruhun təcəllisi sayılan Azərbaycan Xalq Cümhuriyyətimiz olub. Amma AXC-nin yaranması yalnız çarizmin süqutundan sonrakı proseslərin məntiqi yekunu deyildi. Əgər xristian ermənilər və gürcülərə imperiyanın dağılması dividendi kimi müstəqillik görünürdüsə, müsəlman bizlər üçün perspektiv bunu vəd etmirdi. Amma mübarizə apardıq, qazandıq. Əslində, oxşar proseslərin daha amansızcasına XX əsrin sonlarına doğru da yaşandığını deyə bilərik. Bizi müstəqilliyimizlə vidalaşmağa sövq edənlər var idi. 15 İyun tarixi ümummilli lider Heydər Əliyevin belələrinə qarşı kompromissiz savaşının başlanğıc tarixidir. Bu tarix xilas düsturumuzdur.

15 İyun həm də ümumən varlığımızın qurtuluşudur. Nəzərə alaq ki, bir xalqın mahiyyətindəki əzəmət həmin mahiyyətin dövlətçilik yaşantısına sahiblənməsindən asılıdır. Azərbaycan xalqında dövlətçilik ruhu olub. Ancaq məlumdur ki, müxtəlif mərhələlərdə bu ruhumuzu sarsıdan qüvvələr ənənələrimizə zərbə vurublar, varlığımızı şübhə altına alıblar. Saxta tarixləri beynimizə yeritməyə cəhd göstəriblər. Belə ideya aşılayıblar ki, sanki varlığımız onların bizim üzərimizdəki nəzarəti ilə mövcudiyyətini tapmış hadisədir. Heydər Əliyev XX əsrin sonlarına doğru əldə etdiyimiz müstəqilliyi belə bir qorxunc ssenaridən qurtarmağı bacarmış liderdir. Deməli, Milli Qurtuluş Günü həm də müasir dövrdəki varlığımızın başlanğıc tarixidir.

Nəzərə alaq ki, həyata keçirilən hər bir işin ideya bazasının istisnalılığı məramından asılı olmayaraq onu məhvə sürükləyir. Onu da düşünək ki, ümumən dövlətlərin siyasətləri uzunmüddətli hədəf halına gəlməzdən əvvəl düşüncələrdə təşəkkül tapıb, cəmiyyətlərə yayılıb. Azərbaycana gəldikdə isə məhz vahid konsepsiyasızlıqdan müxtəlif dövlət quruluşlarımızın mövcudiyyəti ideoloji məzmun qazana bilməmiş, məhv aqibətini yaşamışdı. Ulu öndər Heydər Əliyev 15 iyun 1993-cü ildən etibarən bu boşluğu doldurmağa başladı, dövlətçiliyə məhz həmin ideoloji məzmunu qazandırmaq yoluna çıxdı. Çıxdı və ideyaları ilə dövlətçiliyimizə, eyni zamanda, məfkurəvi düzən verdi.

Bəli, 1993-cü ilin 15 iyunundan ötən müddətdə tarixdə heç zaman olmadığımız qədər böyüklük statusuna yiyələndik. Bu statusu əynimizə biçən bir çox hadisələri yaşamış, çətinliklərdən, sınaqlardan çıxmışıq. Ən əsası isə Prezident İlham Əliyevin yüksək sərkərdəlik qabiliyyəti ilə Heydər Əliyev böyüklüyünün, qlobal siyasət meydanındakı məğlubedilməzliyinin şahidi olmuş, qürurlu, fəxarət dolu, özü bir ayrıca tarix olacaq mərhələni yaşamışıq. Qətiyyətlə deyə bilərik ki, milli qurtuluş tariximizdən başlanmış yol bizi müqəddəs Zəfərimizə daşıdı. Onu da əminliklə söyləmək mümkündür ki, bu Zəfər Heydər Əliyev şəxsiyyətinin xalqımıza qazandırdığı milli hiss və düşüncələrin doğma yurd təəssübkeşliyindəki müstəsna təntənədir.

Uca Tanrı dövlətçiliyimizi əbədi edən təntənəli yaşantılarımızı bol eləsin! Heydər Əliyev təfəkkürünün formalaşdırdığı böyük xalqımız, Ulu öndərin şah əsəri olan müstəqil Azərbaycan Respublikası daim var olsun!

**Əflatun AMAŞOV,**
**baş redaktor**

# Sabiq ABŞ səfirinin ermənilərə tutarlı ismarıcı

## Diplomat bildirir ki, İrəvanın Bakı ilə sülhə getməsinin tam vaxtıdır

**Ermənistan hərbi-siyasi rəhbərliyinin Sovet İttifaqının dağılması ərəfəsində Azərbaycana qarşı Qarabağda başlatdığı separatçılıq hərəkətlərinin – sonradan işğalçılıq müharibəsinə çevrilərək torpaqlarımızı zəbt etməsinin nə qədər yanlış olduğunu Ermənistanda dərk edənlərin sayı getdikcə artır. İndi daha çox şəxs etiraf edir ki, ölkəninbu gün üzləşdiyi problemlərin, yaşadığı çətinliklərin əsası, əslində, həmin illərdə qoyulub.**

Əlbəttə, Hayastanda bu düşüncədə olanlar əvvəllər də var idi. Sadəcə, ümumi xorda belələrinin səsi eşidilmirdi. Haylar o illərdə Azərbaycanda hökm sürən başıpozuqluqdan, daxili çəkişmələrdən, hərc-mərcilikdən istifadə edərək, habelə, xarici havadarlarının köməyinə arxalanaraq, torpaqlarımızı işğal etmiş və Birinci Qarabağ müharibəsindən qalib ayrılmışdılar. Ancaq bunun yekun qələbə olmadığı hamıya gün kimi aydın idi. İki müharibə arasında Hayastanda bəzi şəxslər güzəştlərdən danışırdılar, onlar başa düşürdülər ki, işğal edilmiş əraziləri əllərində uzun müddət saxlaya bilməyəcəklər. Eyni zamanda, dərk edirdilər ki, Azərbaycan xalqı torpaqlarının işğal altında qalması ilə barışmayacaq. Ancaq qələbə eyforiyası ilə beyinləri dumanlanmış əksər ermənilər xam xəyallarda idilər.

Əlbəttə, biz iddia etmirik ki, vaxtilə kompromisdən danışan ermənilər işğal olunmuş əraziləri tamamilə, qeyd-şərtsiz ölkəmizə qaytarmaq istəyirdilər. Xeyr, sadəcə olaraq, onlar çalışırdılar ki, növbəti müharibə olmasın. Hər iki tərəf üçün optimal həll yolu tapılsın. Əslində, Azərbaycan tərəfi də buna razı idi. Amma indi İrəvan küçələrində iğtişaşlar salan, qarşıdurma yaradan “Qarabağ klanı”nın başçısı Robert Koçaryan və tərəfdarları hər cür güzəşti istisna edirdilər.

O dövrdə ermənilər arasında az-çox rasional fikir söyləyənlərdən biri də erməniəsilli ABŞ səfiri, Edvard Cerecyan idi. Hazırda 85 yaşı olan sabiq səfir ABŞ-nin təcrübəli diplomatlarından hesab olunur. O, Birləşmiş Ştatların 8 prezidentinin administrasiyası ilə işləyib. 1985-ci ildə E.Cerecyan Prezident Ronald Reyqanın xüsusi köməkçisi və mətbuat katibinin xarici işlər üzrə müavini təyin edilib. 1981–1984-cü illərdə İordaniya Haşimilər Krallığında Amerika diplomatik missiya rəhbərinin müavini vəzifəsində çalışıb. 1988–1991-ci illərdə ABŞ-nin Suriyadakı səfiri vəzifəsində işləyib və Prezident Hafiz Əsədlə yaxşı şəxsi münasibət qurub. 1991–1993-cü illərdə ABŞ Dövlət katibinin Yaxın Şərq məsələləri üzrə müavini vəzifəsində çalışıb. 1993–1994-cü illərdə ABŞ-nin İsraildəki səfiri olub. 1994–2022-ci illərdə Cerecyan Texas ştatındakı Rays Universitetində Ceyms Beyker adına İctimai Siyasət İnstitutunun direktoru işləyib. Ötən ayın 8-də sabiq səfir Ermənistan Amerika Universitetinin məzunları qarşısında çıxış edib. Sonra isə ABŞ-yə yollanıb.

Cerecyan hələ 2017-ci ildə “Mediamaks” saytına verdiyi müsahibədə demişdi: “Beynəlxalq vəziyyətdən asılı olmayaraq, Ermənistan elə bir mövqe tutmalıdır ki, həmin mövqe ona Şimal–Cənub və Şərq–Qərb oxları üzrə öz milli maraqlarını irəli aparmağa imkan versin. Bu, ölkənin coğrafi mövqeyini nəzərə alaraq, Ermənistan siyasətində daimi xətt olmalıdır. Siyasətdə coğrafiya çox vaxt dağıdıcı olur”.

İrəvana sonuncu səfəri zamanı verdiyi müsahibədə isə sabiq səfir bildirib ki, əvvəllər bəyan etdiyi strategiya Ermənistan üçün hələ də aktualdır. Qeyd edib ki, Hayastan dənizə çıxışı olmayan kiçik ölkədir. Buna görə də inkişaf etmək üçün ilk növbədə sülh və təhlükəsizliyin bərqərar olması üçün səy göstərməlidir: “Son müsahibəmizdən sonra sevindirici xəbər budur ki, Ermənistan demokratik inkişaf yolunda olduğunu sübut etdi. Demokratiya çox vacibdir və daxildən inkişaf etdirilməli və gücləndirilməlidir. Bunu elə etmək lazımdır ki, erməni xalqı dövlətin öz xalqına təklif edə biləcəyi iqtisadi rifah, təhlükəsizlik və əsas xidmətlərdən istifadə edə bilsin”.

Eyni zamanda, Cerecyan qeyd edib ki, Ermənistan özünün xarici siyasətini 360 dərəcə inkişaf etdirməlidir: “Yeni, region ölkələri və qonşuları ilə əlaqələr qurmalı və onun inkişafı üçün çalışmalıdır. Söhbət “3+3” formatından gedir: Azərbaycan, İran və Gürcüstanla, həmçinin Türkiyə, İran və Rusiya ilə ikitərəfli münasibətlər. “3+3” perspektivli xarici siyasət yürütmək baxımından Ermənistan üçün həyati əhəmiyyətlidir.

Göründüyü kimi, sabiq səfir İrəvanın qonşu ölkələrlə əlaqələri inkişaf etdirməsinin vacibliyindən danışır. Burada xüsusi vurğunu isə “3+3” formatına yönəldir. Vətən müharibəsindən sonra ölkəmizin təşəbbüsü ilə irəli sürülmüş həmin format Cənubi Qafqazın 3 ölkəsinin regionun bir hissəsi olan Türkiyə, Rusiya və İranla sıx əməkdaşlığını nəzərdə tutur. Birgə əməkdaşlıq, regionda nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması bütün region ölkələri üçün fayda deməkdir. Təəssüf ki, Ermənistan rəhbərliyi hələ də regional kommunikasiyaların açılmasına imkan vermir. Bu isə Azərbaycanı İran ərazisi vasitəsilə Naxçıvana alternativ yolun inşasına sövq etdi. Hazırda layihə uğurla icra olunur. Ermənistan isə yenə də özünü təcrid vəziyyətində qoymağa davam edir. Cerecyan da bunu başa düşərək, əslində, Errmənistan rəhbərliyinə çağırış edir ki, ələ düşən fürsəti dəyərləndirsin. Çünki onlar indiyədək bir çox şansları qaçırıblar. Məhz Ermənistanın işğalçılıq siyasətinin nəticəsidir ki, Azərbaycandan Avropaya gedən bütün iqtisadi layihələr və nəqliyyat-kommunikasiya xətləri Ermənistandan yan keçir. Halbuki, həmin layihələrin Hayastandan keçməsi ölkənin büdcəsinə külli miqdarda valyuta axınının olması demək idi.

Doğrudur, Zəngəzur dəhlizinin hələ də işə düşməməsi, Naxçıvan MR-lə birbaşa quru əlaqəmizin olmaması ölkəmizə müəyyən çətinlik törədir. Amma bundan Ermənistan da ziyan çəkir. Əgər dəhliz açılsaydı, Ermənistan da Azərbaycan ərazisi vasitəsilə İrana, oradan Yaxın Şərq ölkələrinə, həmçinin Ələt dəniz limanı vasitəsilə Mərkəzi Asiya ölkələrinə çıxış əldə edərdi. Nəticədə yükdaşımanın xərcləri və vaxt itkisi xeyli azalmış olardı.

Diplomat onu da bildirib ki, Ermənistan özünü daha çoxqütblü dünyada tapıb. İkiqütblü dünya (SSRİ və ABŞ) 1991-ci ildə sona çatıb. Lakin bu gün Amerikanın üstünlüyü 90-cı illərin əvvəllərində olduğu kimi deyil. Dünya getdikcə çoxqütblü olur. Beləliklə, Ermənistan özünü yeni geosiyasi reallıqda yerləşdirməlidir ki, bu da Çin, Hindistan, Fars körfəzi ölkələri kimi mühüm dövlətlərlə münasibətlərə üstünlük vermək deməkdir.

Sabiq səfirin dolayısı ilə Ermənistan rəhbərliyini avantürüst siyasət yürütməkdən çəkindirməklə bağlı fikirləri də diqqətçəkəndir: Ermənistan digərinə qarşı yönəlmiş xarici siyasət yürütməməli, hansısa ölkədən və ya ittifaqdan asılı olmaq tələsinə də düşməməlidir. İrəvan bunu özünə rəva görməməlidir. Adını çəkdiyim bütün ölkələrlə əlaqələri inkişaf etdirməli və sonra hər biri üçün ayrıca prioritetlər qoymalıdır. Şəxsən mən Ermənistanın xarici siyasətində Rusiya ilə bütün əlaqələrini kəsib Qərbə üz tutacağında qazandığı “strateji dönüşə” inanmıram. Ermənistanın təbii qazının, eləcə də “Metsamor” AES-in nüvə yanacağının 80 faizdən çoxu Rusiyadan idxal olunur. Ermənistan Rusiyadan buğda alır. Ona görə də İrəvan Moskva ilə funksional işgüzar münasibətləri qoruyub saxlamağa laqeyd qala bilməz. Avropa İttifaqı, ABŞ, Rusiya, İran və Türkiyə ilə münasibətlər çox önəmlidir, lakin Ermənistan üçün hər birinin öz əhəmiyyəti var. Bir daha deyirəm ki, Ermənistan bütün yaxın qonşuları və mühüm xarici dövlətlərlə münasibət qurmamağa axıradək tab gətirə bilməz.



O, Ermənistanın öz müdafiə potensialını inkişaf etdirməli olsa da, xarici düşmən axtaran, işğalçı ölkəyə çevrilməməli olduğunu vurğulayıb: “Bilirəm ki, məsələn, Hindistanla müdafiə sahəsində əlaqələr inkişaf etdirilir. Amma bütün bu silah sistemləri də bir-biri ilə uyğun olmalıdır və bunu ağıllı şəkildə etmək lazımdır. 2020-ci ilin təcrübəsini və ötən il Qarabağda baş verənləri nəzərə alsaq, Ermənistanın hərbi cilovlanması mexanizminin yaradılması əsas amildir”.

Sabiq diplomat deyib ki, Ermənistan ən pis ssenariyə hazır olmalıdır. Amma bunu iqtisadiyyatını məhv etmədən etməlidir: “İqtisadiyyat hesabına lazımsız müdafiə qüvvələri toplanmamalıdır. Belə bir deyim var: “Özünə kömək edənə Allah da kömək edir”. Ermənistan da özünə kömək etməyi bacarmalıdır”.

Onu da qeyd edək ki, E.Cerecyan 2017-ci ildə verdiyi müsahibə zamanı demişdi ki, Ermənistanın illüziyaları olmamalıdır. Bildirmişdi ki, Azərbaycan zəngin ölkədir və İrəvanda qərar qəbul edənlər Bakının silah alışından çox narahat olmalıdırlar. Bu gün isə Cerecyan deyir ki, 2020-ci ildəki müharibənin qarşısını almaq olardı: “Mən bir neçə il əvvəl ABŞ-dəki çıxışımda demişdim ki, Azərbaycan öz hərbi gücünü artırmaq üçün maliyyə imkanlarına malikdir və növbəti müharibədə qalib gəlmək üçün daha yaxşı vəziyyətdədir. Müharibədən qaçmaq olardı. Əvvəlki Ermənistan administrasiyası kəmfürsətlik edib, sərt mövqedən danışıqlar aparmamalı idi. İndi bu mövqelər güclü deyil. 2023-cü ilin payızında baş verən hadisələrdən sonra Cənubi Qafqazda siyasi landşaft açıq şəkildə dəyişib”.

Cerecyanın sonda toxunduğu bir məqam daha aktualdır. Deyib ki, sülh və sabitlik üçün iki ölkənin qarşılıqlı olaraq tanınan sərhədləri olmalıdır. Əgər mübahisəli sərhədlər varsa, demək, hər an partlaya biləcək problem var. Biz bunu Kiprdə, Tayvanda, Kəşmirdə, Qərbi Səhrada görmüşük: “İndi Ermənistanla Azərbaycan arasında sərhədlərin müəyyənləşdirilməsi və sülh danışıqlarının aparılmasının vaxtı çatıb ki, bunun nəticəsində iki ölkə arasında ədalətli sülh yaranacaq. Hazırda bunu etməyin tam vaxtıdır”.

Əlbəttə, çıxarış verdiyimiz müsahibədə xeyli rasional fikirlər var idi. Ancaq onun sonda dediyi fikirlər dünya görmüş sabiq səfirin erməni xalqının təmsilçilərinə ünvanladğı ən tutarlı ismarıc sayılmalıdır. Zənnimizcə, haylar bu ismarıcdan nəticə çıxarmalıdırlar.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycanın gerçək müstəqilliyinin başlanğıc günü



**Milli Qurtuluş Günü xalqımızın xilas məqamı, taleyimizə qızıl hərflərlə yazılan tarixi bir gündür. Hər il ölkəmizdə ümummilli qədirbilənlik və coşğu ilə qeyd edilən 15 İyun Günü Azərbaycan xalqı üçün, sadəcə, təqvim bayramı deyil, eyni zamanda, böyük ictimai-siyasi və tarixi əhəmiyyətli yeni bir başlanğıcdır. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir.**

Həmin gündən – 1993-cü ilin böhranlı 15 iyunundan bizi 31 illik bir dövr ayırır. Tarix üçün qısa zaman kəsiyi olsa da, ötən bu müddətdə ölkəmizin və xalqımızın həyatında köklü dəyişikliklər baş vermiş, Azərbaycan müstəqil bir dövlət kimi möhkəmlənmiş, inkişaf etmiş, dünyaya açılmış, dövlət quruculuğu yolunda tutarlı addımlar atmışdır. Bu yığcam ifadələrin arxasında Heydər Əliyev nəhəngliyi, dövlətçiliyi, həmişə xalqla Ulu Öndərin yekdilliyi, Azərbaycanın vaxtı ilə mübtəla edildiyi bəlalardan xilası durur.

Ötən illər bir daha təsdiq etmişdir ki, ümummilli lider Heydər Əliyev Azərbaycanın tarixində və dünyanın siyasi arenasında əbədi yaşamaq haqqı qazanmışdır. Ulu öndər, qüdrətli dövlət xadimi Heydər Əliyev tükənməz istedadını, zəngin təcrübəsini, azad, müstəqil, dünyanın sivilizasiyalı dövlətləri səviyyəsinə çatan bir dövlət qurmağa sərf etmişdir.

XX əsrin 90-cı illərində baş verən hadisələr, ölkənin inkişaf xətti, ən çətin problemlərin həlli açarının tapılması bir daha təsdiqlədi ki, xalqın təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışı, məhz, Azərbaycanı xilas etdi. Çünki həmin illərin iqtidarının səriştəsizliyi, vəzifə kürsüləri uğrunda didişmələri, daxili və xarici siyasətdə buraxılan kobud səhvlər hələ 1993-cü ilin əvvəllərində ölkəni siyasi böhran, hakimiyyət böhranı, sonra isə vətəndaş qarşıdurması həddinə gətirib çıxarmışdı.

Əslində, 1992-ci ilin may ayında silah gücünə hakimiyyətə gələn AXC–Müsavat cütlüyünün diletantlığı və siyasi naşılığı heç bir neçə ay keçməmiş özünü büruzə verməyə başladı.

Respublikamızdakı ictimai-siyasi vəziyyətə lazımınca nəzarət edə bilməmələri və bilavasitə onların günahı ucbatından cəbhədə baş verən uğursuzluqlar xalqın onlara qarşı olan inamını günü-gündən azaldırdı. Belə bir vəziyyətdən “məharətlə” istifadə edən ölkə daxilindəki başıpozuq qüvvələr və xarici düşmənlər Azərbaycanın bir müstəqil dövlət kimi məhv olması üçün öz fəaliyyətlərini gücləndirməyə başladılar. Bəla orasında idi ki, bu niyyətlərini həyata keçirmək üçün xarici ölkələrin bəzi orqanları o vaxtkı hakimiyyətin yeritdiyi “kadrlardan” çox məharətlə istifadə edirdilər.

Onların əsas məqsədi Azərbaycanı müəyyən inzibati ərazilərə bölüb, federativ dövlət yaratmaq və onun müstəqilliyini əlindən almaq idi. Həmin qüvvələrin xarici ölkə havadarları ilə birgə hazırladıqları məkrli plana əsasən Azərbaycanın qərbində Gəncə, şimalında Quba, mərkəzində Şirvan quberniyaları yaradılmalı, cənub-qərbində Kürdüstan Respublikası, şimal-qərbində Şəki-Zaqatala zonasında – Avar Respublikası, şimalında Ləzgistan Respublikası və cənubunda Talış-Muğan Respublikası elan olunmalıydı. 1993-cü ilin aprel-may aylarında bu planın həyata keçirilməsinə başlanmışdı və artıq bəzi regionlarda hakimiyyətsizlik hökm sürürdü. İyunun əvvəllərində başlayan Gəncə hadisələri bu prosesi daha da sürətləndirdi.

Faciələrin miqyasına, münaqişələrin mürəkkəbliyinə görə 1993-cü il Azərbaycan dövləti üçün ən ağır dövr idi. Bütün bunlar xalqımızın tarixində böyük faciə idi. Ən böyük faciə isə belə adamların hakimiyyətdə olması, lakin hakimiyyətdən baş çıxarmaması idi. Ölkədə özbaşınalıq, dərəbəylik, lidersizlik və dəhşətli bir hərcmərclik hökm sürməkdə idi. Həmin dəhşətli hadisələr bir daha göstərdi ki, müdriklər duran yerdə hakimiyyəti nadanlara vermək özü də cinayətdir. Bu, hakimiyyət kürsüsü xatirinə bir ölkəni, bir milləti fəlakətə sürükləməyə bərabərdir. Ölkəni isə müdrik dövlət xadimi xilas edə bilərdi.

Azərbaycan Respublikasını dağılmaqdan, dövlətçiliyi məhv olmaqdan, etnik qarşıdurmalardan vətəndaş müharibəsi təhlükəsindən qurtarmaq üçün xalq öz xilaskarı Heydər Əliyevə müraciət etdi. Səbr kasası dolmuş xalq qətiyyətlə onun siyasi hakimiyyətə qayıtmasını tələb və xahiş edirdi. Xalq yaranmış vəziyyətdən çıxış yolunu zəngin təcrübəyə malik görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin şəxsində görürdü. Naxçıvanda bütün Azərbaycanın müqəddəratı üçün taleyüklü fəaliyyət göstərən Heydər Əliyevin yanına dəstə-dəstə adamlar gəlir, teleqramlar göndərilir, müraciətlər edilirdi.

Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya gəldi. Ulu öndər həmin dövrü belə xarakterizə etmişdi: “Mən buraya heç bir partiyanın lideri kimi gəlməmişəm. Mən buraya tamam könülsüz, tez-tələsik yox, adamların təzyiqindən çox, yaranmış vəziyyətə görə gəldim, çünki xalqın taleyi həll olunurdu”.

AXC–Müsavat cütlüyünün ulu öndər Heydər Əliyevi Naxçıvandan acizanə şəkildə Bakıya dəvət etməsi həm də xalqın təkidli tələbi ilə bağlı idi. Belə böhranlı və ağır vəziyyətdə ölkə vətəndaşları yeganə çıxış yolunu yenə də müdrik rəhbərinin hakimiyyət sükanı arxasına keçməsində görürdü. Bu taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük strateq Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başladı.

Ümummilli liderin bir qrup ziyalı və mətbuat nümayəndələri ilə Gəncəyə səfər etməsi və heç bir riskdən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım oldu. Bundan bir neçə gün sonra – iyunun 15-də isə ulu öndər parlamentdə səslənən təkidli xahişləri, ən əsası xalqın istəyini nəzərə alaraq o zamankı Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsinə seçilməsinə razılıq verdi.

Heydər Əliyevin Ali Sovetin Sədri seçilməsi ilə müasir tariximizdə yeni mərhələnin başlanğıcı qoyuldu. İyunun 15-i müstəqillik tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcına çevrildi.

Həmin gün Azərbaycan parlamentində dərin məzmunlu nitq söyləyən ulu öndər Heydər Əliyev Respublikanı xaos və anarxiya burulğanından çıxarmaq, xalqın etimadını doğrultmaq üçün səylə çalışacağını bəyan etdi: “Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanun pozuntularına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan hüquqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır. Yəni bizim respublikamız bir il bundan öncə başladığı yolla getməkdə davam etməlidir. Bu, düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir. Əmin olmalısınız ki, mən bu yola həmişə sadiq olacağam”.

Qüdrətli dövlət xadimi Heydər Əliyevin Ali Sovetin Sədri seçilməsi böyük strateqin sadəcə, hakimiyyətə qayıdışı deyil, eyni zamanda xalqın qurtuluş və özünütəsdiq tarixidir. Bu tarixi qayıdış ilk növbədə Azərbaycanın varlığını, müstəqilliyini, dövlətçiliyini qoruyub saxlamış, ölkəni parçalanmaqdan, vətəndaş müharibəsindən xilas etdi.

Tarix boyu bir çox siyasət adamları hakimiyyətə can atmış və çox hallarda da buna nail olmuşlar. Lakin bunların bəziləri öz təfəkkür məhdudluqları üzündən son nəticədə diktatorlara, digərləri isə öz iradə zəifllikləri ucbatından ətrafındakıların oyuncağına çevrilmişlər. Məhz bunları nəzərdə tutaraq, böyük fransız mütəfəkkiri Pol Anri Holbax yazırdı: “Hakimiyyət yalnız o vaxt böyük nemət olur ki, onu əldə edən adama təbiət və tərbiyə alicənablıq, qüvvətli ruh, geniş ürək, dərin ağıl, böyük təcrübə vermişdir”.

Nəsrəddin Tusi isə yazırdı: “Hökmranlıq o adama yaraşır ki, cəmiyyət xəstələndikdə onu müalicə edə bilsin. Çünki hökmdar ölkənin həkimi yerində olmalıdır”. Təbiət və tarixsə öz varlığında bu kimi ülvi keyfiyyətlərin üzvi bir vəhdət halında birləşdiyi fenomenal şəxsiyyətləri çox az-az yetirir. Dünya siyasətinin patriarxlarından olan Heydər Əliyev kimi. Məhz bu keyfiyyətlərin sayəsindədir ki, ulu öndər öz hakimiyyətini səlahiyyətlərinin gücü ilə yox, şəxsiyyətinin qüdrəti ilə həyata keçirirdi, qarşısındakını zəkası və uzaqgörənliyi ilə əfsunlayırdı.

Təsadüfi deyildir ki, dünyanın böyük siyasətçiləri, dövlət xadimləri, elm və mədəniyyət korifeyləri onu “canlı əfsanə”, “dahi prezident”, “siyasət patriarxı” adlandırırdı. Elə buna görədir ki, Heydər Əliyev şəxsiyyətinin, müdrikliyinin böyüklüyünü xalqımız həmişə ürəkdən hiss etmiş, bundan qürur duymuş və həmişə fərəh hissi keçirmişdir.

Heydər Əliyev bütün ömrünü siyasi işdə, vəzifə pillələrində keçirmiş, SSRİ kimi dünyanın nəhəng dövlətinin aparıcı və qüdrətli rəhbərlərindən biri olmuşdu. Odur ki, onun Bakıya dəvət olunması təsadüfi ola bilməzdi. Əslində məqsəd Azərbaycanı düşdüyü bəlalardan xilas etmək, Azərbaycan dövlətçiliyini xilas etmək yükünü onun çiyinlərinə qoymaqdan ibarət idi. Naşı və təsadüfi hakimiyyət nümayəndələri ölkəni elə vəziyyətə gətirib çıxarmışdılar ki, onu xilas etməyə onların nə bacarığı, nə də qabiliyyətləri çatırdı. Azərbaycan xalqı və hakimiyyət nümayəndələri Azərbaycanın xilas yolunu təcrübəli dövlət xadimi Heydər Əliyevdə görürdülər. Təbii ki, bütün bunlar Heydər Əliyevə bəlli idi və qüdrətli dövlət xadimi qiyamçılarla, ölkənin yaxın, uzaq düşmənləri ilə özünəməxsus bir üsulla mübarizəyə atıldı.

Tarixi reallıq onu təsdiq edir ki, Heydər Əliyevin hakimiyyətə gəlişini o dövrün hakimiyyət strukturları, icra və qanunvericilik orqanları və onların komandaları həll etmirdilər. Bu taleyüklü məsələni Azərbaycan xalqı həll edirdi. Xalq isə deyirdi: “Heydər baba! Xalqı bu bəladan qurtar! Xəstə Azərbaycan Sizin əllərinizdə şəfa tapacaq!”

Dahi Heydər Əliyev şəxsiyyətinə olub-keçənləri və gələcəyi təhlil etmək bacarığı, hər hansı bir problemin həlli zamanı onlarca variantı saf-çürük edərək düzgün nəticə çıxarması xarakterikdir. O səbəbdəndir ki, bu dahi şəxsiyyət vətəndaş qarşıdurmasını böyük məharətlə və uzaqgörənliklə aradan qaldırdı. Sonra isə müdrikcəsinə və siyasi ustalıqla o vaxt Azərbaycanda mövcud olan başıpozuq silahlı dəstələrin tərksilah olunmasına nail oldu. Müstəqilliyimiz üçün çox təhlükəli olan separatçılıq meyllərini aradan qaldırdı və qondarma Talış-Muğan Respublikasının başında duranları zərərsizləşdirdi.

Ulu öndər Heydər Əliyevin qədirbilən xalqımız və tariximiz qarşısında ən böyük xidməti budur ki, bu böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geopolitik ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalayıb yox olmaq təhlükəsindən qurtardı. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir. Sözün əsl mənasında, Qurtuluş deməkdir. Xalqın istəyi və tələbi ilə dövrümüzün lideri, təcrübəli və iradəli dövlət xadimi Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik.

Bu qayıdış Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi. Müstəqil Azərbaycan öz nicatını görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışında tapdı. Keçdiyimiz zaman məsafəsi xalqın düzgün qərar qəbul etdiyini, saysız-hesabsız problemlər mənənəsində sıxılan ölkəmizin ən ağır və məsul dövründə onu qurtuluş yolu ilə aparmağa qadir olan yeganə şəxsiyyətin məhz Heydər Əliyev olduğunu bir daha sübut etdi. Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə qayıdışı şərəfli xilaskar missiyasına – Azərbaycanı Azərbaycana qaytarmaq məramına xidmət etdi.

Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci il 27 iyun tarixli qərarı ilə dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışı günü rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etdi. Milli Məclisin həmin tarixi qərarında deyilir: “Azərbaycan xalqının azadlığının müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, “ömrümün qalan hissəsini də xalqa qurban verirəm” deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi”.

Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə dövlət quruculuğuna start verildi, müstəqilliyin möhkəmləndirilməsi və vətəndaş cəmiyyətinin formalaşması istiqamətində uğurlu addımlar atıldı. Bunlardan ən mühümü Azərbaycan dövlətçiliyini xilas etmək, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmaq idi. Ulu öndər bu vəzifələrin yerinə yetirilməsində dərin zəkasına, siyasi iradəsinə güvənirdi və yanılmadı. Onun qətiyyəti, apardığı uğurlu daxili və xarici siyasəti sayəsində ölkəmiz xaosdan xilas oldu, sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazandı.

Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə o zaman gəldi ki, cəbhə xəttində məkrli düşmənlərimiz hərbi əməliyyatlarını genişləndirir, yaşayış məskənlərini işğal edir, dinc azərbaycanlılar məcburi köçkün vəziyyətinə düşürdü. Heydər Əliyevin prezident seçilməsi cəbhədə vəziyyəti kökündən dəyişdi, respublikamızda ordu quruculuğu sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verdi, cəbhədə vəziyyətin müsbət istiqamətdə inkişafına şərait yaratdı.

Ulu öndər o zaman üçün ən doğru olan addımı ataraq mərkəzi komandanlığa tabe olmayan bütün silahlı dəstələrin buraxılması barədə qərar verdi. Belə silahlı dəstələrin fəaliyyəti qanunsuz elan edildi. Dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da əsaslı islahatların aparılmasına imkan yaratdı. Milli orduda həyata keçirilən quruculuq işləri, struktur dəyişiklikləri döyüş əməliyyatlarının vahid rəhbərlik altında planlaşdırılması, hissələrin hərb elminin tələblərinə uyğun idarə edilməsi, kadrların saflaşdırılması ordunu keyfiyyətcə yeniləşdirdi. Nizami hərbi hissələr formalaşdırıldı, peşəkar hərbiçilər komanda heyətinə gətirildi.

Azərbaycan Ordusunun ilk hərbi hissələri 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində uğurlu əməliyyatlar həyata keçirdilər, işğal olunmuş bir çox yaşayış məskənlərimiz, strateji yüksəkliklər azad edildi. Prezident Heydər Əliyevin hakimiyyəti dövründə ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi birləşmə və hissələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı.

Ulu öndərin qəti mövqeyi, prinsipial siyasəti nəticəsində cəbhə xəttində atəşkəs elan edilmiş, 1994-cü ilin may ayında Ermənistanla müvəqqəti razılıq əldə olunmuş, Dağlıq Qarabağ münaqişəsinin dincliklə nizama salınmasına dair danışıqlara təkan verilmişdir. Heydər Əliyevin uğurlu siyasəti dünya dövlətlərinin böyük əksəriyyətinin Dağlıq Qarabağ münaqişəsinə baxışını dəyişdirdi. Beynəlxalq tədbirlərdə Heydər Əliyev məsələnin sülh yolu ilə həll olunmasına tərəfdar olduğunu bildirdi və onun gərgin fəaliyyəti nəticəsində ATƏT-in Minsk qrupu çərçivəsində intensiv sülh danışıqları aparıldı. Budapeşt, Buxarest, Lissabon, İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində bir sıra mühüm təkliflər irəli sürüldü.

Tarix özü təsdiqlədi ki, məhz ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində Azərbaycan dövləti və Azərbaycan xalqı başının üstünü almış bütün təhlükələrdən qurtuldu. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə xalqımızın taleyində dönüş anı, itirilmiş inamın qaytarılması, anarxiyadan sabitliyə və inkişafa doğru yeni mərhələnin başlanğıcı oldu. Aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və bununla da Azərbaycanın iqtisadi inkişafında mahiyyətcə yeni mərhələnin təməli qoyuldu.

Makroiqtisadi sabitliyin əldə olunması, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü təsdiq edirdi. 1994-cü ildə imzalanmış “Əsrin müqaviləsi” Azərbaycan Respublikasının siyasi, iqtisadi və informasiya blokadası şəraitində olan bir vaxtda imzalandı. Azərbaycan üçün həyati əhəmiyyəti olan bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunması, həm də xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynadı.

Ulu öndər Heydər Əliyevin neft-qaz strategiyasının bir hissəsi olan “Əsrin Müqaviləsi”nin Azərbaycan tarixində, iqtisadi inkişafında danılmaz yeri var. Bu haqda ölkə Prezidenti İlham Əliyev çox dəqiq deyib: “Əsrin kontraktı”nın Azərbaycan tarixində xüsusi yeri vardır və Azərbaycanın müstəqil ölkə kimi yaşamasında bu rol əvəzolunmazdır. O vaxt Azərbaycanın xarici şirkətlərlə əməkdaşlığı eyni zamanda bölgədə birmənalı qarşılanmırdı. “Əsrin Müqaviləsi”nin imzalanması eyni zamanda böyük siyasi cəsarət tələb edirdi. Ancaq Heydər Əliyevin qətiyyətli və Azərbaycan xalqının dəstəyi ilə biz ona nail ola bilmişik”.

Heydər Əliyevin hakimiyyətinin ilk illərində həyata keçirilən ən mühüm addımlardan biri müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulu oldu. Müstəqil dövlətin yeni Konstitusiyanın layihəsinin hazırlanmasının təşəbbüskarı da məhz Prezident Heydər Əliyev olmuşdu. Ümummilli liderimizin müəllifi olduğu bu Konstitusiya Azərbaycan dövlətinin inkişafının əsas prinsiplərini nəzərdə tutan hüquqi çərçivələri özündə ehtiva edən tarixi bir sənəd kimi qiymətləndirilir. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan dövlətinin tərəqqisinə və Azərbaycan vətəndaşlarının rifahına xidmət edən dövlət idarəetmə mexanizminin istinad etməli olduğu hüquqi bazanı müəyyənləşdirir.

Ümummilli liderimizin Azərbaycanın tərəqqisinə xidmət edən fəaliyyəti yalnız iqtisadi islahatlarla və demokratikləşmənin sürətləndirilməsi istiqamətində görülmüş tədbirlərlə yekunlaşmır. Heydər Əliyev Azərbaycan elminin və təhsilinin inkişafının stimullaşdırılması sahəsində də böyük işlər görmüşdür. Ulu öndər, ilk növbədə, Azərbaycan elmi potensialının dağılmasının qarşısını aldı. Elmlər Akademiyasının nüfuzunun bərpası üçün konkret tədbirlər həyata keçirildi. 1993 və 1997-ci illərdə ölkənin intellektual elitası və AEA-da alimlərlə görüşü unudulmaz hadisəyə çevrildi.

Ulu öndərin rəhbərliyi sayəsində təhsil sahəsində aparılan islahatlar Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı istiqamətində atılan ən mühüm addımlardan biri kimi qiymətləndirilir. Ümummilli liderimiz Azərbaycanda savadlı və respublikanın inkişafına həqiqətən dəyərli töhfələr verə biləcək kadrların hazırlanması üçün təhsilin maliyyələşdirilməsinə ayrılan vəsaitlərin həcminin hər il artırılmasını təmin etmişdir. Təhsilin və elmin inkişafının təmin edilməsində, habelə respublikada gənclərin mənəvi-əxlaqi cəhətdən sağlam və vətənpərvərlik ruhunda tərbiyə olunması mühitinin yaradılmasında ümummilli liderimiz Heydər Əliyevin rolu əvəzsiz olmuşdur.

Müstəqil dövlətin memarı Heydər Əliyevin ən böyük tarixi xidmətlərindən biri də Azərbaycanın düzgün, tarazlı və milli maraqlara əsaslanan xarici siyasət kursunun müəyyən etməsi və ölkəmizi beynəlxalq təcriddən xilas etməsi olmuşdur. Heç kəsə sirr deyil ki, 1993-cü ilin iyununa qədər Azərbaycan əslində dünyadan təcrid olunmuş vəziyyətə düşmüşdü. Zorla cəlb olunduğumuz müharibədə torpaqlarımızı itirsək də, yüz minlərlə soydaşımız öz yurdunda qaçqına çevrilsə də, Azərbaycanın haqq səsini eşidən yox idi. Xaricdəki güclü erməni lobbisinin səyi ilə Azərbaycan dünya ictimaiyyətinin nəzərində təcavüzkar, qonşularını “blokada”da saxlayan ölkə kimi qələmə verilirdi.

Məhz Heydər Əliyevin çevik siyasəti nəticəsində Azərbaycanın mənfi obrazı dağıdıldı. Xalqımızın yalnız öz ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizə apardığı dünya ictimaiyyətinə çatdırıldı. Üstəlik, prezidentimizin yorulmaz fəaliyyəti nəticəsində dünya dövlətləri ilə hərtərəfli əməkdaşlıq əlaqələri quruldu. Məhz Heydər Əliyevin yeritdiyi ardıcıl, düşünülmüş xarici siyasəti sayəsində Azərbaycan beynəlxalq aləmdə özünə layiq yer tutdu.

Ümummilli liderimiz Heydər Əliyev tam əminliklə və uzaqgörənliklə deyirdi: “Müstəqil Azərbaycan Respublikası yaşayacaq və demokratiya prinsipləri, insan azadlığı, demokratik iqtisadiyyat sahəsində başqa dövlətlər üçün nümunə olacaqdır”.

Sevindirici haldır ki, ölkəmizə böyük uğurlar gətirmiş Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs bu gün ümummilli liderimizin layiqli varisi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan daha da gözəlləşir, inkişaf edir, dünya arenasında sayılıb-seçilən ölkələr sırasına daxil olur. Regional Dövlət proqramları uğurla həyata keçirilir. “Böyük Qayıdış” Proqramı ölkəmizin hansı imknalara malik olduğunu dünyaya əyani olaraq göstərir. İşğaldan azad olunmuş şəhərlər, kəndlər tamamilə yenidən qurulur, köçkünlər sevinclə, ruh yüksəkliyi ilə doğma evlərinə qayıdırlar. Respublikamız cənab İlham Əliyevin rəhbərliyi ilə Dövlət proqramlarını, infrastruktur layihələri uğurla yerinə yetirir.

Bu gün böyük öndərimizin arzuları həyata keçir, xalqımız möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyev ideyalarını reallaşdırır, daha xoşbəxt, firavan Azərbaycanın hərtərəfli, dinamik və dayanıqlı inkişafını təmin edir. Ölkə başçısının qloballaşan dünyanın tələblərinə uyğun yeni keyfiyyətdə davam etdirdiyi siyasi xətt Azərbaycan dövlətçiliyinin inkişafına, ölkənin milli maraqlarının müdafiəsinə və iqtisadiyyatın inkişaf etdirilməsinə misilsiz töhfələr verir.

Bügünkü müstəqil dövlətimizin möhkəm dayaqlarının təməli 31 il əvvəl 15 iyunda qoyulmuşdur. Ona görə də hər bir azərbaycanlının 15 İyun gününün daşıdığı şərəfli və misilsiz məna ilə fəxr etməyə haqqı var. Xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələri fəth edəcək.

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***



# Xilaskarlıq missiyası

**Hər bir xalq yaratdıqlarına görə tarixə düşür. Hər bir tarixi şəxsiyyət də xidmətlərinə görə tanınır, dillər əzbəri olur. Azərbaycan xalqı da tarix boyu ədalətinə və tolerantlığına görə dünya xalqları içərisində böyük nüfuz qazanıb.**

Dünyanın qədim dövlətləri sırasında yer alan Manna, Albaniya, Atropatena öz müstəqilliklərini qorumaq üçün düşmənə hər cür müqavimət göstərmiş və bu gün xalqımızın öyünməsi üçün şərəfli bir tarix miras qoymuşlar. Orta əsrlərdə Eldənizlər, Qaraqoyunlu, Ağqoyunlu və nəhayət, Səfəvilər Şərqin qüdrətli dövlətləri sırasında yer ala bildilər. Səfəvilər bir az da irəli gedərək imperiya yaratmağa nail oldular. Azərbaycan xalqı bu dövlətin yaradıcısı Şah İsmayıl Xətaini min illərdir ki, tariximizin qəhrəmanı kimi anır və müstəqilliyimiz dövründə onun şərəfinə abidələr ucaldır.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları olan milli-demokratik ziyalılarımız Müsəlman Şərqində ilk parlamentli respublikanın bünövrəsini qoyaraq tarixə düşdülər. 23 ay yaşayan bu dövlət 350 ilkə imza atmağa müvəffəq oldu.

1920-ci ilin aprelindən sonra Azərbaycan müstəqil dövlət kimi yox, müttəfiq respublika kimi fəaliyyət göstərdi. Hər bir müttəfiq respublika nəhəng Sovet İttifaqından yararlanmaq istəyirdi. Bu daha çox müttəfiq respublikaya rəhbərlik edən şəxsin bacarığından asılı idi.

Heydər Əlirza oğlu Əliyev 1969-cu il iyulun 14-dən Azərbaycana rəhbərlik etməyə başladı. Həmin ilin martında Moskvanın tapşırığı ilə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti dörd min kvadrat kilometr Azərbaycan torpağının Ermənistana verilməsi haqqında qərar çıxarmışdı. Heydər Əliyev hakimiyyəti dövründə bu qərarın icra olunmasına imkan vermədi. 1919-cu ildə əsası qoyulan Bakı Dövlət Universitetinin 50 illik yubileyi 1969-cu ildə keçirildi. Yubiley toplantısına rəhbərlik edən Heydər Əliyev öz nitqinə Azərbaycan dilində başladı. Bu o dövr üçün çox böyük siyasi hadisə idi. Heç kimin ağlına gəlmirdi ki, rus dilinin hökm sürdüyü bir dövrdə müttəfiq respublikanın rəhbəri öz doğma dilində məruzə edə bilər. Amma Heydər Əliyev bu çıxışı etdi və xalqının ürəyində özünə yuva qurdu.

Heydər Əliyev Azərbaycanı aqrar respublikadan sənaye-aqrar ölkəsinə çevirməyi bacardı, 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılmasına nail oldu. Azərbaycanda mükəmməl ziyalı ordusu yaratmaq üçün hər il minlərlə gənci ölkənin ən nufuzlu ali məktəblərinə göndərməyə nail oldu.

1977-ci ildə SSRİ-nin növbəti Konstitusiyası qəbul edildi. Məqsəd ondan ibarət idi ki, müttəfiq dövlətlər milli dil məsələsində israr etməsinlər. Heydər Əliyev Mərkəzin bütün təzyiqlərinə baxmayaraq, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlər dili kimi təsbit edilməsinə nail oldu.

Heydər Əliyevə qədər Azərbaycan xalqının milli sərvəri olan neft və qaz qonşu respublikalara onların sərvəti kimi verilirdi. Heydər Əliyev mərkəzin bu siyasətini müəyyən qədər respublikanın xeyrinə dəyişməyə nail oldu.

Heydər Əliyevə qədər hərbi xidmətə çağırılan azərbaycanlı gənclərin, demək olar ki, böyük əksəriyyəti tikinti "batalyonlarına" göndərilirdi. Heydər Əliyev bu sahədə də dönüş yarada bildi. Azərbaycanlı gənclər də müasir silahlarla təzhiz edilən hərbi hissələrdə xidmət etməyə başladılar.

Azərbaycan neftinin gələcək taleyini uzaqgörən siyasəti ilə müəyyən edən Heydər Əliyev Dərin Dəniz Özülləri Zavodunun tikilməsinə nail oldu. Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra Heydər Əliyevin bu sahədə uzaqgörən siyasətinə heyran qalmamaq olmur.

Azərbaycanı uğurlu və bacarıqlı siyasəti ilə müttəfiq respublikalar arasında birincilərdən edən Heydər Əliyev sovet dövlətinin idarəçiliyində də böyük xidmətləri olmuşdur. Heydər Əliyev yeganə türk-müsəlmandır ki, 70 ildən çox fəaliyyət göstərən bu dövləti idarə edənlərdən biri oldu. Əgər imkan versəydilər, bu dövləti idarə edən birinci şəxs də ola bilərdi.

Sovet dövlətinin süqutundan sonra Heydər Əliyev Moskvada yox, Azərbaycanda – öz xalqının yanında olmaq istəyirdi. 1990-cı il 20 Yanvar qırğını göstərdi ki, Azərbaycan xalqı köməksiz vəziyyətdədir. Xalqın tələbi ilə hakimiyyətin istəyi üst-üstə düşmürdü. Düşmən tərəf öz havadarlarının gücündən istifadə edərək Azərbaycanın tarixi torpaqlarına sahib olmaq istəyirdi. Hakimiyyət bunları fikirləşə bilmir, Heydər Əliyevin Azərbaycana dönüşünü əngəlləmək üçün planlar hazırlayırdı.

O illərdə Naxçıvan ağır blokada həyatı yaşamaqda idi. Heydər Əliyev Naxçıvanın harayına çatdı, bütün çətinliklərə sinə gərərək, bölgəni işğal təhlükəsindən qurtara bildi. Muxtar respublikanın əhalisini inandıra bildi ki, Naxçıvanın bir qarış torpağını düşmənə güzəştə getməyəcək. Bakıda hakimiyyət uğrunda mübarizə qızışan vaxtda Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzlərinin bərpası haqqında Naxçıvan Ali Məclisinin qərarını qəbul etdi, "sovet sosialist" ifadəsindən imtina etdi.

1991-ci ilin oktyabında dövlət müstəqilliyinin bərpası haqqında qəbul edilən Konstitusiya Aktı 1993-cü ilin yayında çətin günlərini yaşayırdı. Düşmən Şuşanı, Laçını, Kəlbəcəri işğal etmiş, Qarabağ və ətraf rayonlar üçün böyük təhlükə yaranmışdı. 20 Yanvar qırğınının mahiyyətini dünyaya çatdırmamış, Xocalı soyqırımını yaşamağa məcbur edildik. Vətəndaş müharibəsinin ilk işartıları Azərbaycanı təhdid etməyə başladı. Hakimiyyət hərisləri ölkəni parçalamaq və işğal təhlükəsi ilə üz-üzə qoydular. Hamı, hətta siyasi hakimiyyət də ümidini Naxçıvana bağlayır və nicatını Heydər Əliyevin Bakıya dönüşündə görürdü.

Heydər Əliyev xalqın təkidi ilə Azərbaycanı parçalanmaq və yox olmaq təhlükəsindən qurtarmaq üçün Bakıya gəldi. Düşmən yeni torpaqlar işğal edə bilməsin deyə, Azərbaycan Xalq Cümhuriyyətinin acı taleyini yaşamamaq üçün güclü dövlət başçısına, cəsarətli Ali Baş Komandana ehtiyac var idi. 1990-cı ildə Naxçıvanda yenidən qaldırılan və bütün Azərbaycana şərəf gətirən üçrəngli bayrağı əbədi etmək üçün Heydər Əliyevə hava və su qədər ehtiyac var idi. Heydər Əliyev xalqın köməyinə gəlməli idi və gəldi. İllərlə rəhbərlik etdiyi xalqının ən çətin günlərində onun yanında oldu. Heç bir təhlükə və təhdid onu yolundan döndərə bilmədi. Heydər Əliyev parçalanmaq təhlükəsi ilə üz-üzə dayanan dövlətimizin başına keçdi və bu yolda əngəl olan bütün qüvvələri öz zəngin təcrübəsi və bacarığı ilə aradan qaldırdı. Heydər Əliyev həyatını təhlükə altına ataraq Gəncədə dövlətə asilik edən qüvvələrlə görüşdü. Dövlət müstəqilliyinə xələl gəlməmək üçün bütün qüvvələri əmin-amanlığa dəvət etdi və çətinliklə də olsa buna nail oldu.

Heydər Əliyev 15 İyuna gələn yolu xilas etdiyi kimi, ondan sonra da şərəfli bir tarixin əsasını qoydu.

Ölkədə daxili sabitliyə nail oldu, dövlət çevrilişlərə cəhdləri zərərsizləşdirdi, təcavüzkar Ermənistanla atəşkəsə nail oldu. Türk-müsəlman dünyasının heç bir uğuruna sevinməyən Qərb Ermənistanın Azərbaycana təcavüzünə haqq qazandırır və Qarabağın işğalına hər cür yardım göstərirdi. Heydər Əliyev Ermənistanın təcəvüzkar dövlət olmasını və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi üçün bütün qapıları döydü və dünyanın diqqətini Qarabağ probleminə cəlb etdi. Ermənistanın təcavüzünə haqq qazandıran xeyli dövləti neytrallaşdıra bildi, Qarabağın tarixi Azərbaycan torpağı olması haqqında mövcud mənbələrin dövriyyəyə cəlb olunmasına və dünya dillərinə çevrilməsinə nail oldu.

Heydər Əliyev Bakı neftini dünya bazarına çıxarmaq üçün yollar axtarırdı. Bu məsələdə Azərbaycana yardım Qərb şirkətləri tərəfindən göstərilə bilərdi. Çünki Rusiya iqtisadi cəhətdən zəif, neftin dənizdən müasir üsullarla çıxarılmasına hazır deyildi. Qərb dövlətləri də müharibə girdabına salınan Azərbaycana investisiya qoymaq fikrində deyildi.Amma Heydər Əliyev Qərb şirkətləri ilə aparılan danışıqlarda böyük qələbəyə imza atdı.Birincisi, Xəzər dənizindən neftin çıxarılmasına, ikincisi çıxarılan neftin Gürcüstan vasitəsilə Türkiyəyə çatdırılmasına dair razılığa nail oldu. Beləliklə, "Əsrin Müqaviləsi"ni imzalamaqla Heydər Əliyev Qərbin himayəsini qazandı, Xəzər dənizində neftin çıxarılmasına küllü miqdarda sərmayə qoyan Qərb şirkətləri Heydər Əliyevin timsalında Azərbaycandan möhkəm yapışdılar. Bu, Heydər Əliyev siyasətinin uzaqgörənliyi idi.

Heydər Əliyev Azərbaycanı təhdidlərdən qorumaq üçün Müstəqil Dövlətlər Birliyinə üzv qəbul olunmasına razılıq verdi. Çünki Azərbaycanın müstəqilliyinə qarşı təhlükə hələ sovuşmamışdı. Azərbaycanın daxilində bəzi siyasi qüvvələr xaricdən müdaxilə üçün yollar axtarır və dövlət çevrilişlərinə cəhd edirlər. Lakin Heydər Əliyevin dövlətçilik təcrübəsi, qətiyyəti və Azərbaycan xalqının onun ətrafında birləşməsi düşmən qüvvələrini məğlub etdi.

1990-cı il 20 Yanvar və Xocalı soyqırımına siyasi qiymət verməyə, 31 Martın azərbaycanlıların Soyqırımı Günü kimi təsbit olunmasına, azərbaycanlıların Ermənistan SSR-dən deportasiya olunması haqqında fərmanların verilməsi Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev düşmənə qarşı mübarizə üçün tarixi sənədlərə müraciət etməyə üstünlük verdi. İxtisasca tarixçi olan Heydər Əliyev ermənilərin tarix boyu azərbaycanlı əhaliyə qarşı törətdiyi soyqırımları arxiv sənədləri əsasında dövriyyəyə cəlb etdi. Bu istiqamətdə çoxsaylı əsərlərin yazılmasına və xarici dillərə tərcümə olunmasına nail oldu. Erməni məkrini və qəddarlığını dünyaya bəyan etmək üçün 1948-1953-cü illərdə Qərbi Azərbaycanda azərbaycanlı əhalinin başına dövlət səviyyəsində gətirilən müsibətlər işıq üzü görməyə başladı. Heydər Əliyev Azərbaycanda ölüm hökmünün və senzuranın ləğv edilməsinə, ATƏT-in Lissabon Sammitində bu beynəlxalq təşkilatın 54 üzvündən 53-nün (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın milli maraqlarına uyğun prinsiplərin açıq şəkildə müdafiə olunmasına, Azərbaycanın Avropa Parlament Şurasına üzv qəbul olunmasına, müstəqil dövlətin ilk Konstitusiyasının yaradılmasına və ilk parlament seçkilərinin keçirilməsinə, aqrar islahatları aparmaqla torpağların təmənnasız olaraq kəndlilərə verilməsinə, qonşu dövlətlər, o cümlədən dünyanın nüfuzlu dövlətləri ilə balanslaşdırılmış siyasətin həyata keçirilməsinə, dünyanın, o cümlədən BMT-nin ali tribunasından Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin ifşa olunmasına, Ordu quruculuğu sahəsində uğurlar qazanmaq və düşməni torpaqlarımızdan çıxarmaq üçün ali hərbi məktəblərin yaradılmasına nail oldu.

Heydər Əliyev azərbaycançılıq ideologiyasının və "Bir millət, iki dövlət" konsepsiyasının həyata vəsiqə almasına, Azərbaycanın müstəqilliyini əbədi etmək üçün bütün gücünü və bacarığını bu işə yönəltməyə nail oldu. O, dönə-dönə qeyd edirdi ki, tarix boyu Azərbaycan çoxmillətli olub. Bu xalqların xoşbəxtliyi ordadır ki, onlar hər zaman Azərbaycan uğrunda mübarizədə bir olublar. Dil və din fərqi onları bir-birindən ayırmayıb, ən çətin günlərdə bir-birinə hayan olublar. Azərbaycançılıq düşüncəsi əsrlər boyu bu torpaqda yaşayan xalqları bir ideya ətrafında birləşməyə müvəffəq olub. Heydər Əliyev bu ideyanı hakim ideologiya səviyyəsinə qaldırmağa müvəffəq oldu. 44 günlük Vətən müharibəsində Azərbaycan xalqı Ali Baş Komandan ətrafında dəmir yumruq kimi birləşərək düşməni darmadağın etdi, torpaqlarımızı işğaldan azad etdi.

Heydər Əliyev Türk dünyasının birləşməsi üçün əlindən gələni etdi. Əslində "bir millət, iki dövlət" konsepsiyası bütün türk dünyasının birləşməsinə xidmət edən bir çağırış idi. Qərbin ədalətsiz siyasətinə qarşı türk dünyasının birləşməsinə və dünyanın mizan-tərəzisinə rəhbərlik etməyinə ehtiyac var. Bünövrəsi Heydər Əliyev tərəfindən qoyulan bu siyasət Azərbaycanın dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ümummilli lider Heydər Əliyev özündən sonra Azərbaycan xalqına dörd əmanət qoydu: Müstəqil Azərbaycan dövləti; Yeni Azərbaycan Partiyası; Müstəqil Azərbaycan dövlətinin Konstitusiyası; Azərbaycan dövlətinin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev.

Ermənistanın Azərbaycana qarşı təcavüzünə qarşı mübarizə Heydər Əliyev siyasətinin ardıcıl davamçısı, dövlət başçımız İlham Əliyevin hakimiyyəti illərində öz uğurlu nəticəsini verdi. Ermənistanın təcavüzkar siyasətinin ifşa efilməsi, Azərbaycanın haqq işinin nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən müdafiə olunması, güclü orduya və müasir silahlara malik olmağımız, xalq tərəfindən dövlətin siyasətinə hərtərəfli dəstək 2020-ci il sentyabrın sonlarında Azərbaycanın öz ərazi bütövlüyünü təminatı üçün əks– hücuma keçməklə Vətən müharibəsini başlamağa məcbur etdi. Müzəffər Ali Baş Komandan və qəhrəman Azərbaycan əsgəri 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünü təmin etdi.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu bütün işlər, o cümlədən Qarabağla bağlı mübarizəsi bu gün Azərbaycanın dövlət başçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Məlum olduğu kimi, 1923-ci ildə sovet Rusiyasının təzyiqi nəticəsində Qarabağda erməni separatizmini dirçəltmək üçün muxtar qurum yaradılmışdı. Bu qurum mövcud olduğu 100 il ərzində erməni maraqlarına xidmət etmiş və Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək üçün çoxsaylı cəhdlər göstərmişdi. 44 günlük Vətən müharibəsindən sonra da bu qurum separatçı mövqeyindən əl çəkmədi. Azərbaycanın süverenliyinə nail olmaq, Qarabağda əmin-amanlığı bərpa etmək, Ermənistandan Qarabağa qanunsuz yolla gələn hərbi birləşmələrin fəaliyyətinə son qoymaq üçün 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror əməliyyatı nəticəsində muxtar qurum ləğv edildi, üçrəngli bayrağımız Azərbaycanın bütün bölgələrində dalğalanmağa başladı.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev xalqımızın xoşbəxt gələcəyi üçün mümkün olanları etdi. 15 İyundan başlanan çağdaş tariximiz xalqımızı qalib xalqların cərgəsinə daxil etdi.

***Anar İSGƏNDƏROV,***
***Milli Məclisin deputatı, professor***

# Vətənə və xalqa xidmətin misilsiz örnəyi

**"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır". Bu sözlər ümummilli liderimiz Heydər Əliyevə məxsusdur. Həqiqətən, Ulu öndər öz həyatını Azərbaycana həsr edərək, öz doğma xalqına ləyaqətlə və sədaqətlə xidmət etmişdir. O, güclü zəkası və sarsılmaz iradəsi ilə hüquqi və demokratik dövlət qurmağı bacarmışdır.**



Müstəqillik bir xalqın sahib ola biləcəyi ən böyük mənəvi dəyərdir. Xalqımız 1991-ci ildə öz müstəqilliyinə qovuşsa da, hakimiyyətdaxili çəkişmələr, o cümlədən erməni təcavüzü onun varlığını sınağa çəkdi. Belə bir vaxtda xalqımız Umummilli liderə etimad göstərərək, öz müqəddəratını həll edən taleyüklü, tarixi qərarını verdi. Buna görə də, Heydər Əliyevin 15 iyun 1993-cü ildə Ali Sovetin sədri seçilməsi tariximizə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur.

Ulu öndərin hakimiyyətə qayıdışı ilə ölkəmizin siyasi həyatında yeni mərhələ başlanmışdır. 90-cı illərin əvvələrində həm ölkə daxilindəki vəziyyət, həm də beynəlxalq arenada mövqeyimiz ürəkaçan deyildi. Dünya şöhrətli siyasətçi qısa müddətdə həm ölkədəki sabitliyi, həm də regionda qarşılıqlı faydalı əməkdaşlığı bərpa etmiş, digər dövlətlərlə əlaqələr yaratmışdır. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində xalqımız böyük sıxıntılarını dəf etməyi bacarmışdır.

Sözsüz ki, bu gün də dövlətimizin davamlı inkişafını təmin edən əsas faktor Heydər Əliyev siyasətidir. O, güclü siyasətçi olmaqla yanaşı, həm də xalqını ürəkdən sevən bir lider idi. Hakimiyyətə gəldiyi ilk illərdən başlayaraq, xalqın problemləri ilə dərindən maraqlanmış və onların həlli ilə bağlı mühüm addımlar atmışdır. Ulu öndər xalqın yaralarını sarmaqla bərabər, haqq işimizi dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün yorulmaz səylər göstərmişdir. Heydər Əliyev hər bir vətəndaşına öz övladı kimi yanaşmışdır. Buna görə də yaşından asılı olmayaraq, Azərbaycan xalqının hər bir fərdi ulu öndərimiz Heydər Əliyevi "Heydər Baba" kimi xatırlayır.

Onun əsas məqsədlərindən biri də, ölkədəki iqtisadi vəziyyəti düzəltmək idi. İqtisadiyyatın inkişafı üçün isə güclü maliyyə imkanları lazım idi. 1994-cü ilin 20 sentyabrında Prezident Heydər Əliyevinin rəhbərliyi ilə tarixə "Əsrin Müqaviləsi" kimi düşən müqavilə imzalandı. Bunla da, həm iqtisadiyyatımızın inkişafına zəmin yarandı, həm də müasir neft strategiyasının əsası qoyuldu. Xalqın sosial vəziyyəti də tədricən yaxşılaşdı. Dahi rəhbərin dövründə ölkədə köklü sosial dönüş yaradıldı. Sosial müdafiə sahəsində pensiya islahatları, güzəşt və imtiyazların müavinətlərlə əvəz olunması və yoxsulluğun azadılması ilə bağlı mühüm işlər görüldü.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın siyasi və hərbi uğurları Heydər Əliyevin xalqa müraciətlə dediyi sözləri yada salır: "İnanıram ki mənim axıra çatdıra bilmədiyim taleyüklü məslələri, planları, işləri sizin köməyiniz və dəstəyiniz ilə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və böyük ümidlər bəsləyirəm "

Ulu öndər Birinci Qarabağ müharibəsində atəşkəsə nail olmuş və bununla da ordumuzun ciddi şəkildə formalaşaraq, güclənməsinə etibarlı zəmin yaratmışdır. Torpaqlarımızın işğaldan azad olunması üçün böyük səylər göstərsə də, onun ömrü buna yetirməmişdir. Prezident İlham Əliyev xalqımızın ən böyük problemi olan Qarabağ məsələsini həll edərək dövlətimizin suverenliyini tam bərpa etmişdir.

Ümummilli liderin sosial siyasətinin davamı olaraq, cənab İlham Əliyevin rəhbərliyi ilə 1 yanvar 2006-cı ildə sosial müdafiə sahəsində iki mühüm qanun – "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" qanunlar qüvvəyə minmişdir. Bu gün də, ölkə rəhbərliyinin sosial sahəyə göstərdiyi diqqət və uğurlu kadr siyasəti nəticəsində sosial müdafiə sahəsində əhəmiyyətli addımlar atılır. Ardıcıl sosial islahatlarla vətəndaş məmnunluğu təmin edilir. Xalqımızın qürur mənbəyi olan şəhid ailələrinin və qazilərimizin sosial durumuna çox həssas yanaşılır.

Qədirbilən xalqımız 7 fevral 2024-cü ildə keçirilən sonuncu prezident seçkilərində cənab İlham Əliyevə sevgi və inamını, etimadını növbəti dəfə öz imzası ilə təsdiqləmişdir. Bu gün Azərbaycanın hər bir vətəndaşı başa düşür ki, dövlətimizin müstəqilliyini qorumaq və davamlı inkişafa nail olmaq üçün bizə heç bir beynəlxalq təşkilat və ya dövlət kömək etməyəcək, buna görə də, xalqımız öz liderinin ətrafında sıx birləşərək, onun daxili və xarici siyasətini dəstəkləyir.

***Babək MUXTAROV,***
***Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı***

# Azərbaycanda müstəqilliyin xilas günü



**Ümummilli lider Heydər Əliyev hər bir Azərbaycan vətəndaşının qəlbində, yaddaşında, təfəkküründə, xatirəsində özünəməxsus silinməz iz buraxmışdır. Heydər Əliyev fenomeni Azərbaycan tarixi, onu öyrənənlər və bütövlükdə Azərbaycan xalqı üçün bütün zamanlarda möhtəşəm bir mövzu kimi öz aktuallığını qoruyub saxlayacaqdır.**

Dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyev fəaliyyətə başladığı dövrdən lider ömrü yaşamışdır. Onun adı çağdaş tariximizə böyük siyasətçi, qüdrətli dövlət başçısı, ölkə sənayesinin müasir inkişaf istiqamətlərini dərindən bilən və onu gerçəkləşdirməyi bacaran universal zəka sahibi, mütəfəkkir, böyük şəxsiyyət kimi düşmüşdür. Heydər Əliyev şəxsiyyətinə maraq hər zaman yüksək olmuş, onun möhtəşəm fəaliyyəti ayrı-ayrı tədqiqatçı sosioloqların, siyasətşünasların diqqət mərkəzində dayanmışdır.

Böyük şəxsiyyət haqqında hörmətli Prezidentimiz İlham Əliyevin xüsusi ehtiramla söylədiyi qiymətli sözlər öz yüksək dəyərini həmişə saxlayacaqdır: “Heydər Əliyevin düşündüyü ideyalar indi də yaşayır. Onun siyasəti davam etdirilir. Fəlsəfi fikirləri müasir Azərbaycanın qüdrətləndirilməsi proqramının əsas istiqamətlərini göstərməkdədir”.

Dövlət Təhlükəsizlik orqanlarında siyasi fəaliyyətə başlayan Ulu öndər ilk günlərdən etibarən milli kadrların bu təşkilatda çalışmasına xüsusi səy göstərmiş və həmin illərdə çox Azərbaycan ziyalısını gerçəkləşə biləcək real siyasi repressiyalardan qorumuşdur. Unutmayaq ki, həmin dövrlərdə Heydər Əliyev dövlət təhlükəsizlik orqanlarında çalışmaqla general rütbəsinə yüksələn ilk azərbaycanlıdır və sovet dönəminin represiyalarından qorunan bir çox yaradıcı adamın müstəqil mətbuat vasitəsilə onun ünvanına söylədiyi xoş sözlər də təsadüfi deyildir.

Heydər Əliyev 1969–1982-ci illərdə Azərbaycan KP MK-nin Birinci katibi, 1982–1987-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləmişdir. Xalqımızın böyük oğlu 1971-ci ildən Sov.İKP MK üzvü, 1976-cı ildən Sov.İKP MK siyasi Büro üzvlüyünə namizəd, 1982-ci ildən Sov.İKP Siyasi Bürosunun üzvü olmuşdur. O, iki dəfə – 1979 və 1983-cü illərdə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Bütün təlatümlü dövrlərdə zaman özü Heydər Əliyevi Azərbaycanda rəhbər vəzifəyə gətirmək ehtiyacı hiss etmiş və yekun nəticələr Azərbaycan xalqının, Azərbaycan dövlətçiliyinin xeyrinə olmuşdur. O, ilk dəfə hakimiyyətə gələrkən Azərbaycan keçmiş ittifaq respublikaları arasında sənaye, kənd təsərrüfatı və s. sahələr üzrə ən az inkişaf etmiş ölkələrdən biri sayılırdı. Qısa zaman ərzində Heydər Əliyevin yüksək işgüzarlıq və peşəkarlığı, intellektual səviyyəsi vəziyyəti elə həddə gətirdi ki, Azərbaycan bir-birinin ardınca Keçici Qırmızı Bayraqlarla təltif olundu. Sovet İttifaqının rəhbəri iki dəfə Azərbaycanı ziyarət etdi və nəticə olaraq Azərbaycanın adı SSRİ-nin yüksək tribunalarından səsləndi.

Respublika başçısı olaraq Heydər Əliyev Azərbaycanın həyati əhəmiyyəti olan bütün sahələrinin (sənaye, kənd təsərrüfatı, təhsil, elm, mədəniyyət, səhiyyə, idman və s.) inkişafına xüsusi diqqət göstərir, Azərbaycanı İttifaqda sözü keçən respublikaya çevirirdi. Millətin gələcəyinin təhsillə və milli kadrlarla bağlı olduğunu bildiyi üçün məhz onun dövründə 17 min Azərbaycan gənci keçmiş ittifaqın 50 şəhərində 170-də artıq ali məktəbdə təhsil almağa göndərildi. 1982-ci ildə 550 nəfər azərbaycanlı sovetlər birliyinin müxtəlif hərbi məktəblərinə göndərilməklə milli hərbi kadr hazırlığı üçün əsaslı bünövrə qoyuldu.

Ulu öndər Azərbaycan gəncinin, sadəcə, respublikadan kənarda təhsil alması ilə kifayətlənmir, tətil dövrlərində toplantılar keçirir, həmin gənclərlə görüşür, onlara məsləhət və tövsiyələr verir, gənclərdə motivasiya, ruh yüksəkliyi yaradırdı. Onu da qeyd etməyi lazım bilirik ki, onun bu uzaqgörən siyasəti müasir dövrümüzdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurlu davam etdirilir. Bunun nəticəsidir ki, “2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”na uyğun olaraq beş min azərbaycanlı gənc dünyanın qabaqcıl təhsil ocaqlarında ölkəmiz üçün zəruri olan ixtisaslara sahiblənmişlər.

Heydər Əliyev SSRİ Nazirlər Sovetinin birinci müavini olaraq fəaliyyət göstərdiyi 1982–1987-ci illərdə ittifaq səviyyəsində təhsilin, iqtisadiyyatın, sənayenin inkişafına töhfələr vermiş, nəhəng Baykal-Amur magistralının çəkilişinə bilavasitə rəhbərlik etmişdir. 1987-ci ildə dövlət rəhbəri Mixail Qorbaçovun apardığı siyasətə etiraz əlaməti olaraq tutduğu vəzifədən istefa vermiş və bir müddət ictimai-siyasi arenadan uzaqlaşmışdır. Bunu fürsət bilən erməni lobbisi və Ermənistan Azərbaycana qarşı ərazi iddiasında bulunmuş və Qarabağ hadisələrinə təkan verilmişdir.

Hadisələrin inkişafı 1990-cı il 20 Yanvar faciəsinə və işğalçı ordunun Bakıda qətliamlar törətməsinə səbəb olmuşdur. Məhz bu məqamda siyasi təzyiqlərə və Moskvada yaşamasına rəğmən Heydər Əliyev Azərbaycan xalqının haqlı mübarizəsinə səs verdi, xalqının yanında dayanaraq ittifaq rəhbərliyinin yeritdiyi siyasətə ciddi etirazını bəyan etdi. Onun tutduğu mövqe xalqımızın haqq davasını, milli azadlıq mücadiləsini daha da gücləndirdi və Heydər Əliyev fenomeni müstəqilliyə gedən yolumuzu bir qədər də işıqlandırdı.

Xatırladaq ki, 1988–1990-cı illər Azərbaycan xalqı üçün çətin, mürəkkəb hadisələrin baş verdiyi, “yenidənqurma” adlı siyasətin ittifaq səviyyəsində iflasa uğradığı, respublikaya rəhbərlik edənlərin səriştəsizliyi nəticəsində hərc-mərclik və ümidsizliyin hökm sürdüyü illər idi. Baş verən proseslər 20 Yanvar faciəsinə, Şuşa, Laçın itkisinə, Xocalı faciəsinə gətirib çıxardı.

Müstəqillik aktı qəbul olunsa da, milli mücadilənin nəticəsi olaraq AXC hakimiyyətə gəlsə də, imperialist qüvvələr, Azərbaycanın müstəqilliyini həzm edə bilməyən qonşu dövlətlər etnik qrupları, siyasi revanş almaq istəyən qüvvələri qızışdırır, Azərbaycanı bir xaosa sürükləməyə çalışırdılar. Bunun nəticəsi olaraq Kəlbəcər işğal olundu, siyasi hakimiyyət Gəncə qarşıdurması ilə bacara bilmədiyi üçün istefa verməli oldu. Siyasi hakimiyyətin rəhbərliyi çıxış yolu olaraq Heydər Əliyevi Bakıya dəvət etsə də, bais olduğu xaosda bir neçə rayon da işğala məruz qaldı.

Məhz belə bir məqamda zaman yenə Heydər Əliyev peşəkarlığına ehtiyac duydu. Müstəqilliyin, dövlətçiliyin təhlükədə olduğu bir dövrdə xalqı, onun ziyalı təbəqəsini düşündürən suala cavab tapıldı, hər kəs Heydər Əliyev peşəkarlığına, siyasi intellekt və bacarığına ümidləndi və o, ziyalıların, o dövrün siyasi-elitar birliyi olan 91-lərin çağırışına səs verdi və ölkəni böhrandan qurtaracaq yeni bir siyasi qolun – Yeni Azərbaycan Partiyasının yaradılmasına yaşıl işıq yandırdı.

Ulu öndər 24 oktyabr 1992-ci il tarixində “91”lərin müraciətinə müsbət cavab verdi və 21 noyabr 1992-ci il tarixində 551 nəfərin iştirakı ilə Naxçıvandakı kinoteatrın binasında əlverişsiz bir şəraitdə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Qısa zaman kəsiyində formalaşan partiya altı ay sonra – öz siyasi liderini hakimiyyətə gətirdi. Təbii ki, Gəncə qiyamını yatıra bilməyən qüvvələr də öz məğlubiyyətləri ilə barışır və onun hakimiyyətə gəlməsini zərurət kimi qəbul edirdilər.

9 iyun 1993-cü ildə Bakıya gələn Heydər Əliyev Milli Məclisdə çıxış edərək, 13 iyun 1993-cü ildə Gəncəyə getdi və danışıqlar yolu ilə Sürət Hüseynov tərəfdarlarını silahlı qarşıdurmadan çəkindirdi. Peşəkarlıqla onu və digər silahlı qruplaşmaları siyasi dialoqa cəlb edə bildi. 1993-cü il iyunun 15-də o, Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçildi və ölkə prezidentinin səlahiyyətləri də ona həvalə olundu. Məhz bu gün, yəni 15 iyun 1993-cü il Azərbaycanın tarixinə “Qurtuluş Günü” kimi daxil oldu.

Ulu öndərin Milli Məclisin Sədri vəzifəsinə seçiləndən sonrakı çıxışını xatırlayaq: “Sizi əmin edirəm ki, bütün imkanlarından istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy göstərəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bu günkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərinə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm”.

Bu sırada nələr dururdu? Ölkə daxilində vətəndaş müharibəsi həddinə çatmış daxili gərginlik, xarici müdaxilənin Azərbaycanı təhdid etməsi, Azərbaycanın bölgələrə parçalanma ehtimalı, AXC – Müsavat cütlüyünün iqtidarda olduğu il ərzində Respublikamızın uçuruma yuvarlanma həddində olması və sonunda Heydər Əliyevin bütün labüd fəlakətlərdən ölkəni xilas etməsi faktı. Ona görə də Azərbaycan övladları XX əsrin sonuncu onilliyini fövqəlzəka sahibi Heydər Əliyevin sayəsində özünün müstəqillik və suverenlik arzularının əbədi gerçəkləşməsinin tarixi kimi əsrlər boyu yaddaşlarda yaşadacaq.

Bütün zamanlar da Azərbaycan xalqı Heydər Əliyevin sözünün ağası olmasına şahidi olmuşdur. İstər Moskvadakı Azərbaycan nümayəndəliyində totalitar rejimin Azərbaycan xalqına qarşı işğalçı mövqeyinə qarşı üsyan səsini ucaldanda, istər Sov.İKP-nin üzvü olduğunu təsdiq edən partiya biletini atanda, istər Naxçıvanda Yeni Azərbaycan partiyasının yaradıcısı kimi fəaliyyət proqramını irəli sürəndə, istərsə də Azərbaycanda siyasi hakimiyyətdə olduğu bütün illər ərzində.

Prezident İlham Əliyevin sözləri desək: “Heydər Əliyev 1993-cü ildə parlamentin sədri seçiləndən sonra müstəqil Azərbaycanın həyatında yeni dövr başlamışdır. Əgər 1993-cü ildə xalqın tələbi və təkidi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi. Azərbaycan çox bəlalarla üzləşə bilərdi. Bu gün həmin dövrü təhlil edəndə görürük ki, Heydər Əliyevin qətiyyəti, cəsarəti, iradəsi Azərbaycanı bu bəlalardan qurtardı” dövlətinin Prezidenti seçiləndən sonra Heydər Əliyev ölkədə yaranmış böhran vəziyyətini aradan qaldırmaq istiqamətində genişmiqyaslı uğurlu işlər apardı.

Qarabağ uğrunda gedən döyüşlərdə Azərbaycan Ordusu əsaslı dönüşü Azərbaycan Ordusunun döyüş qabiliyyətini artırmaq müasir silahlardan məharətlə istifadə etmək, xüsusi ixtisaslaşmış döyüşçülərin differensiasiya bacarığını təkmilləşdirmək baxımından olduqca lazım idi. Görülən bu tədbirlər Azərbaycan Ordusunun həmin vaxtlardan təməli qoyulan 2020-ci ildəki Zəfər yürüşünün əsasına çevrildi.

1994-cü ilin sentyabrında “Əsrin Müqaviləsi” adlanan sənədin imzalanması dünyanın böyük ölkələrinin Azərbaycana inamının artmasına şərait yaratdı. Azərbaycana investisiya axınını, qarşılıqlı tərəfdaş kimi danışıq aparmaq imkanlarını təmin etdi. Bütün bunların nəticəsində Azərbaycanın iqtisadi müstəqilliyi təmin olundu.

Ulu öndər Heydər Əliyevin 1993-cü ilin prezident seçkilərindən sonra bir neçə böyük dövlətlərə səfərləri oldu. Ulu öndər xarici ölkələrə səfərlərində Azərbaycanın müasir dövrün sivil dövlətlərindən olduğunu bütün dünyaya sübut edirdi. Xarici ölkələrə səfərlər etməklə Ulu öndər o vaxtlar Azərbaycanı əziyyət çəkdiyi informasiya blokadasından xilas etdi və bütün bunlar Azərbaycanın bugünkü uğurlarının başlanğıcına çevrildi.

1994-cü ilin oktyabr, 1995-ci ilin mart aylarında ölkədə dövlət çevrilişinə göstərilən cəhdlərin qarşısı Heydər Əliyevin yüksək idarəçilik qabiliyyəti sayəsində vaxtında alındı. Azərbaycanda həyati əhəmiyyətli bütün sahələrdə vüsətli inkişaf, canlanma başlandı, mütərəqqi islahatlar aparıldı, istedadlı insanlar dövlət vəzifələrinə gətirildi. Həmin münasibət indi də davam etdirilir. Ulu öndər 1999-cu ilin dekabr ayında Azərbaycanda ilk dəfə olaraq bələdiyyələrə seçkilərin keçirilməsini təmin etmişdir. Böyük rəhbər bildirirdi ki, bələdiyyələrə seçkilərin keçirilməsində məqsədimiz ölkədə demokratiyanı inkişaf etdirmək və dövlətin idarə olunmasının yükünün bir hissəsini bələdiyyələrə etibar etməkdir.

Ümummilli liderin Azərbaycan xalqı qarşısındakı mühüm xidmətlərindən biri də özünün siyasi varisi olan İlham Əliyevin ölkə rəhbərliyinə gəlməsinə zəmanət verməsi olmuşdur. Heydər Əliyev bu münasibətlə deyirdi ki, İlham Əliyevə özüm qədər inanıram və onun gələcəyinə böyük ümidlər bəsləyirəm. 2003-cü ilin oktyabr ayında İlham Əliyev Prezident vəzifəsinə seçildi. Prezident seçkilərinə qatılarkən Azərbaycan xalqı İlham Əliyevi böyük hörmətlə qəbul etdi, gənclər onu özlərinin qardaşı, yaşlı nəsil özlərinin övladı kimi qarşıladılar.

Dünyada təsadüfi heç nə yoxdur. Gələcəkdə Azərbaycanın canlı yaradıcı tarixinə çevriləcək Heydər Əliyev BDU-nun tarix fakültəsini bitirdi, tarixi yaradan tarixçi oldu. Şarl Lui Monteskye 1711-ci ildə qələmə aldığı “İran məktubları”nda yazırdı: “Dünyanın heç bir xalqı şöhrət və əzəməti ilə “tatarlarla” yarışa bilməz. Onlar türk adlanıb Avropada, Asiyada və Afrikada nəhəng fatehliklər edib, dünyanın üç qitəsində ağalıq ediblər. Bu müzəffər xalqın tarixçiləri çalışmayıb ki, onların ağlasığmaz qələbələrinin şöhrətini yazsınlar. Bu cəngavər xalq öz gündəlik, şöhrəti ilə məşğul olub Əbədi məğlubedilməzliyinə inanıb keçmiş qələbələrinin əbədiləşdirilməsi qayğısına qətiyyən qalmamışdır”.

Bu fikirlər türkün böyüklüyünün etirafı hesab olunmalıdır. Lakin gec da olsa, bu tarix yazıldı, özüdə XX əsrin 30 ili ərzində yenidən yazıldı. Bu Azərbaycanın müasir tarixi, bu tarixin yaradıcısı Heydər Əliyev idi. Türk dünyasının böyük oğlu Mustafa Kamal Atatürkün “Tarix yazmaq tarixi yaratmaq qədər çətindir. Əgər yazan yaradana sadiq qalmazsa, yazılan tarix insanları çaşdıracaq mahiyyət alır”.

Sovetlər imperiyasının mərkəzində yüksək vəzifə tutan Heydər Əliyev tarixi yaratdı və yazdı, onun yaratdıqları insanları çaşırmadı, əksinə çox-çox sonralar xalqın karına gəldi. Bu qüdrətli düha sahibi ona xəyanət edənləri bağışlasa da, xalqına, vətəninə xəyanət edənləri qanunun mühakiməsinə vermişdir. Bu fikrin tarixi orta əsr tarixinin əks- sədasıdır. Bu, Heydər Əliyevin türk dünyasında olan övladlıq borcu və Böyük Vətən qarşısında şəxsiyyət-vətəndaş borcunu ödəmək istəyi ilə səciyyələnir.

Siyasət qrossmeysteri Heydər Əliyevin siyasi məsuliyyəti, onun əqidə bütövlüyü, dərin zəkası, xüsusi düşüncə qüdrətilə şərtlənir və işlədiyi çağlarda heç bir siyasi səhvə yol vermədiyi də xalqının nəzərindədir. Bu isə Heydər Əliyevin ömür yolunda məğlubedilməzliyinin və yenilməzliyinin təsdiqidir.

Yeni bir tarix yaradan Heydər Əliyev erkən və orta əsr türk dünyasında ömür yaşamış sərkərdələrimizin siyasi baxışlarından xüsusi məharətl. bəhrələnmişdir. VI əsrdə Göytürk xaqanının oğlu Setunun Çin xaqanına məktubuna cavabına diqqət yetirək: “Sizə hər il vergi göndərcəyəm, sözünüzü dinləyəcəyəm. Ancaq paltarlarımızın ətəklərini kəsməyə, çiyinlərimizdə dalğalanan saçlarmızı kəsməyə, dilimizi dəyişdirməyə və sizin qanunlarınızı mənimsəməyə gəlincə isə bizim ənənələrimiz, qədimdən qalma adətlərimiz çox uzaq keçmişdən gəlir, mən özüm də indiyə qədər bunlardan tək bircəsini belə dəyişməyə cürət etməmişəm. Ona görə ki, bütövlükdə türk xalqı eyni qəlbin yiyəsidir!”.

Göytürk xaqanı Şetunun Çin hökmdarına cavabının siyasi mahiyyətini aşkar etmək o qədər da çətin deyildir. Ona görə ki, Göytürklər iki yerə bölünürlər. Çin hökmdarı bu fürsətdən istifadə edərək onların zəiflədiklərini düşünür və xüsusi şücaət və ağıl sahibi olan Şetun xaqanı hiylə ilə aldatmaq istəyir. Şetun xaqan isə Çin hökmdarına çatdırır ki, iki yerə bölünən türkün bir ürəyi, bir əqidəsi, bir inamı, bir məsləki, bir gücü vardır. Bunun davamı olaraq Heydər Əliyevin türk dövlətlərinin birliyini yaratmaq siyasi ideyası öz başlanğıcını VI əsr tariximizdən götürmüşdür.

Dünyanın ən müdrik insanları Heydər Əliyevi tarixi şəxsiyyət kimi qəbul etmişlər. ABŞ-ın keçmiş prezidenti Bili Klinton deyirdi ki, Heydər Əliyev nəinki Azərbaycanı, Amerikanı, hətta bütün dünyanı idarə edə bilər. Almaniya parlamentinin üzvü K.Vimmer H.Əliyevin şəxsiyyətindən bəhs edərkən söyləmişdir ki, “Cənab Heydər Əliyev prezident seçilərkən Qərbdə ona şübhə ilə yanaşırdıq, zənn edirdik ki, o, Azərbaycanda kommunizm ideyalarını bərpa edəcək, lakin tez bir zamanda bizə aydın oldu ki, yanılmışıq. İndi Azərbaycan ikinci dünya müharibəsindən çıxmış Almaniyanı, Prezident Heydər Əliyev isə kansler Adenaueri xatırladır. Əgər daxili və xarici qüvvələr ona mane olmasalar, işləməyə imkan versələr Azərbaycanın indiki inkişaf mərhələsi onun tarixinə intibah dövrünün başlanğıcı kimi daxil olacaq.

Böyük Britaniyanın sabiq Baş naziri, dəmir ledi Marqaret Tetcer onu “müasir zəmanəmizin görkəmli siyasi xadimi”, ABŞ-m sabiq dövlət katibi Madlen Olbrayt “Corc Vaşinqtona bərabər səxsiyyət” kimi xarakterizə etmişdir. Türkiyənin baş naziri R.T.Ərdoğan H. Əliyevin şəxsiyyətini yüksək qiymətləndirərək demişdir: “H.Əliyev Azərbaycanın böyük lideridir. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi xidmətlərinə görə türk və dünya tarixində şərəfli yer tutmuşdur".

Xüsusi ilə vurğulamaq lazımdır ki. öz həyatının bəzi təhlükəli məqamlarında Heydər Əliyev general Şarl de Qollun təsvir etdiklərinə qəribə bir tərzdə uyğun gələn vəziyyətlərə də düşmüşdür. Məsələn, Sarl de Qoll yazırdı: “Bəziləri deyirlər ki, mən kommunistlərin, frank massonların müttəfiqiyəm, digərləri iddia eləyir ki, guya, mən Fransada krallıq, imperiya, yaxud da şəxsi diktatura qurmaq istəyirəm. Güclü təsəvvür və fantaziyaya malik olan bütün bu adamlar bircə şeyi yaddan çıxarırlar. Onu yaddan çıxarırlar ki, Fransa işğalçılarla dolu olanda mən Azad fransızların başında durdum və Fransa imperiyasına ona görə rəhbərlik etdim ki, Fransa işğal altında idi. Yaddan çıxarırlar ki, Fransa işğal altında olmasaydı, mən bizim ordumuzun öz rütbəmdə bir zabiti olaraq qalacaqdım. Onu da yaddan çıxarırlar ki, mən siyasətçi deyiləm, sadəcə, öz ölkəsini azad etmək istəyən bir vətənpərvərəm?”.

Lakin de Qoldan fərqli olaraq, Heydər Əliyev hərbçi olmaqdan əlavə, dərin siyasətçi idi. O, miqyaslı istedada malik idi. Ona görə də Azərbaycanın dövlətçiliyini bir çox fəlakətdən xilas etdi. Heydər Əliyev Azərbaycan xalqının planetə bəxş etdiyi bir möcüzəsi idi.

Ümummilli lider Heydər Əliyevin siyasətinin layiqli davamçısı, böyük siyasi məktəb keçmiş, çoxsaxəli fəaliyyətilə xalqın rəğbətini və məhəbbətini qazanmış və prezident seçilmiş İlham Əliyev müasir şəraitdə Azərbaycanın hərtərəfli tərəqqisinə, demokratik imicinin yüksəlməsinə çalışan görkəmli və böyük siyasi xadimidir. Heydər Əliyevin ordu quruculuğu sahəsindəki siyasətini uğurla həyata keçirən Müzəffər Ali Bas Komandan İlham Əliyev 44 günlük ikinci Qarabağ müharibəsində 30 il erməni işğalında qalan Azərbaycan torpaqlarını özünün hərbi sərkərdə bacarığı və Azərbaycan Ordusunun rəşadəti sayəsində birdəfəlik azad etdi.

Hazırda isə işğaldan azad olunmuş Azərbaycan torpaqlarında ölkə Prezidenti İlham Əliyevin bilavasitə rəhbərliyi ilə vüsətli abadlıq, quruculuq işləri həyata keçirilir, əhalinin öz doğma yurdlarına qayıtması təmin olunur. Qarabağ Zəfərinin açdığı yolda Böyük Qayıdış missiyası gerçəkləşdirilir. Bütün bunların başlanğıcı ilə bu gün Milli Qurtuluş Günü kimi qeyd etdiyimiz 1993-cü ilin 15 İyunudur.

***Ədalət FƏRƏCOV,***
***YAP Veteranlar Şurasının üzvü, professor,***

***Sultanəli QURBANOV,***
***ADPU-nun dosenti***

# Yeni tarixi mərhələdə multiregionalizm və milli ideya

V MƏQALƏ

## Ərazi bütövlüyü və xalqın vəhdəti

Liderlik təlimlərində XXI əsrdə region və regionlararası miqyasda müstəqil dövlətin fəaliyyətinin uğurlu olmasının bir neçə şərti irəli sürülür. Onu deyək ki, həmin şərtlər əsas olaraq, müasir dövr üçün xarakterik olan liderlik təlimlərində – dəyərlər nəzəriyyəsində, superliderliklə bağlı təlimdə, liderliyin sinergetik təlimində və digərlərində müxtəlif kontekstlərdə ifadəsini tapan tezislərdə mövcuddur. Biz onların əsasında həmin şərtləri aşağıdakı kimi çeşidləməyi məsləhət görürük.

Birinci, dövlətin ərazi bütövlüyü. İkinci, dövlətin suverenliyi. Üçüncü, dövlətin siyasi identikliyi. Dördüncü, cəmiyyətin bütövlüyü. Beşinci, bütün bunları təmin edə biləcək kreativ (hər situasiyaya yaradıcı yanaşmaq əsasında onu adekvat qiymətləndirə bilən milli lider) liderin varlığı. Bunlarla yanaşı, XXI əsrdə müstəqil dövlətçilikdə xüsusi uğurlar əldə edən və mürəkkəb situasiyalarla üzləşən dövlətlər üçün başqa şərtlər də ola bilər.

Biz Azərbaycan üçün yuxarıdakı şərtlərlə yanaşı, dövlətin ərazi bütövlüyü ilə cəmiyyətin bütövlüyünün fəlsəfəsinin bir-birinə uyğun olmasını da vacib hesab edirik. Hətta, bu tezisin Azərbaycan təcrübəsindən birbaşa qaynaqlandığını ifadə etmək istərdik. Məsələnin fəlsəfi və politoloji tərəfi çox dərindir. Çünki coğrafi bütövlüyün toplumun bütövlüyü ilə fəlsəfi və ya siyasi-nəzəri əlaqəsinin məzmunu heç də tam olaraq aydın deyildir. Lakin problemə konkret tarixi mərhələdə və ayrıca bir dövlətin dövlətçiliyi aspektində baxanda müəyyən məqamları görmək olar.

Bu baxımdan ərazi bütövlüyünün bərpası ilə cəmiyyətin bütövlüyünün təmini arasında birbaşa əlaqəni Azərbaycan nümunəsində görə bilərik. Məhz bu vəhdətin formalaşdırıcısı, istiqamətvericisi və təminedicisi milli liderdir! Milli lider ərazi bütövlüyünün bərpası məsələsini birbaşa milli ideya statusunda formalaşdırmışdır. Heydər Əliyev bunu dəqiq məzmunda müəyyən etmişdir və dövlət quruculuğu kursunda konkret vəzifə kimi qarşıya qoymuşdur.

Ərazi bütövlüyünün coğrafi faktor kimi təmin edilməsi milli ideyanın təcəssümü, rəmzi və məzmunla məqsədinin daşıyıcı fenomeni olaraq maddi faktordan ideya faktoruna çevrilir. Həmin bağlılıqda konkret məzmun alır. Ərazi bütövlüyünün bu cür ideyalaşması mütləq surətdə onu həm də sosial münasibətlərin amilinə və ya məzmunlaşdırıcı mexanizmlərinə çevirir. Milli ideyanın əsas komponenti və strateji hədəfi kimi bununla ərazi bütövlüyü dövlətçilikdə öz funksiyasını yerinə yetirir.

Deməli, ərazi bütövlüyünün təmini ilə toplumun bötüvlüyü milli ideya vasitəsilə konkret cəmiyyətdə və mərhələdə real məzmun ala bilir. O halda cəmiyyətin bütövlüyünə ərazi bütövlüyünün təsir etmə mexanizmləri maraqlıdır. Məsələ onunla bağlıdır ki, bunun üçün xüsusi siyasi, ideoloji və praktiki fəaliyyət lazımdır. Cəmiyyət dövlətçilikdə ərazi bütövlüyü və su-



verenliyin təmin edilməsinin cəmiyyətdə həmrəyliyə təsirini və insanlar arasında münasibətlərin sistemləşməsində real iştirakını praktiki fəaliyyətdə duymalı və görməlidirlər. Bu məqamda liderin rolu ön plana çıxır. Hansı anlamda?

## Liderlik – eksklüziv yaradıcı fəaliyyət

Ərazi bütövlüyünü bərpa edən lider toplumun daxili münasibətlər sistemini yenidən məzmunlaşdırmağın siyasi, mənəvi və legitim haqqını qazanır. Cəmiyyət inanır ki, dövlətin ərazi bütövlüyünü təmin etməyi bacaran lider, bütövlükdə, toplumu da konsolidasiya edə bilər. İstənilən xarakterli vəzifəni qarşısına qoyaraq ona nail olar. Hətta, cəmiyyətin ümumi anlamda sosial-mədəni funksiyasının əsas məzmununu müəyyən edə bilər. Buradan alınır ki, cəmiyyətdə sosial münasibətlərin birləşdirici olması birbaşa liderin nüfuzu ilə bağlıdır. Liderə inanan toplum inteqrasiyaya hazırdır. Cəmiyyət bu halda özünü toparlamağa can atır.

Bundan başqa, bütövlükdə, cəmiyyət miqyasında inklüziv legitimlik üçün real zəmin yaranır. İnklüziv legitimlik cəmiyyətin bütün kəsimlərinin lideri qəbul etməsi ilə bağlıdır. Belə çıxır ki, liderin legitimliyini (qanuniliyini) inklüziv olaraq toplum qəbul edirsə, onda lider-cəmiyyət dialoqunda inandırma real məzmun alır. Həmin inanma liderin cəmiyyətə cəmiyyətin də liderə güvənindən qaynaqlanır. Bir-birinə güvənən cəmiyyət və lider vahid mövqeyə gəlirlər.

Lider-cəmiyyət birliyi fonunda vahid mövqenin yaranması son dərəcə ciddi siyasi əhəmiyyət kəsb edir. XXI əsr üçün bunun strateji vacibliyi də şübhə doğurmur. Səbəbi müasir dövrün geosiyasi özəlliyi ilə bağlıdır. Məsələ onunla əlaqəlidir ki, regional və regionlararası miqyaslarda proseslər elə sürətlə dəyişir ki, onu qısa zamanda tam olaraq məntiqi dərk etmək mümkün olmur. Sadəcə, insanın vəziyyəti nəzəri və ideoloji anlamaq sürəti buna yetərli olmur. Bu şərt daxilində lider-cəmiyyət münasibətlərində dialoq və onun əsasında konkret məzmun alan qarşılıqlı inam və güvənc ilk sıraya çıxır.

II Qarabağ savaşından sonra milli ideyanın bir mərhələsinin başa çatması fonunda Azərbacyan cəmiyyəti Prezident İlham Əliyevə inam və güvəncini çox lakonuk surətdə ifadə etdi. Bu proses dövlət başçısının bir məşhur tezisindən başladı. İlham Əliyev Zəfər savaşından qısa müddət sonra ifadə etdi ki, “Mən nəyi nə zaman həyata keçirməyi yaxşı bilirəm. Elə şeylər var ki, onu açıq demək olmaz”! Xalq bu fikri tam olaraq qəbul etdi – öz liderinə inandı. Eyni zamanda, Prezidentin tapşırıqlarını yerinə yetirməkdə davam etdi. Təcrübə nəyi göstərir?

## Antiterror əməliyyatı və tam suverenlik

Xalq gördü ki, İlham Əliyev çox qısa bir zamanda güclü hərbi həmlə ilə uzun illərdir insanların həsrətlə gözlədiyi bir nəticəyə nail oldu – Xankəndi Azərbaycan Ordusunun nəzarətinə keçdi! Bütövlükdə, Qarabağ artıq, sözün həqiqi mənasında, müstəqil Azərbaycan Respublikası dövlətinin siyasi, coğrafi, maddi, mənəvi, mədəni, idarəetmə, iqtisadi, energetik yurisdiksiyası daxilindədir! Buna tam suverenlik deyirlər ki, hər müstəqil dövlətə nəsib olmur!

Suverenliyi tam olaraq təmin edən bir Prezidentə–Liderə xalq necə inanmaya və güvənməyə bilər? Müdrik Azərbaycan xalqı həmişə olduğu kimi, Ulu öndərin siyasi varisi olan uğurlu liderinə inamını, güvəncini nümayiş etdirdi. Bununla liderliyin cəmiyyətin bütövlüyünə ərazi bütövlüyünün bərpası ilə yanaşı, suverenliyin təmin olunması kontekstində də müsbət ciddi təsir etdiyi təsdiqini tapdı.

## Azərbaycan güclü Lider statusunda

Ərazi bütövlüyünün bərpasına milli ideya kimi nail olan Prezident hər addımı ilə cəmiyyətin bütövlüyünün təmininə də nail oldu. Bu keçidin konkret mexanizmi suverenlyin tam təmini ilə bağlıdır. Yəni Azərbaycan lideri cəmiyyətin bütövlüyü ilə coğrafi bütövlüyün vəhdətini sözdə, vədlərdə deyil, konkret əməldə – qısa müddətdə bütöv ərazinin üzərində tam suverenyili təmin etməsi ilə konkret real fakta çevirdi. Siyasi-nəzəri aspektdə bu prosesin iki pilləli olduğu aydınlaşır – birinci pillədə coğrafi olaraq ərazi bütövləşdirilir, ikinci pillədə dövlət həmin bütövlüyə siyasi, ideoloji, idarəetmə, təhlükəsizlik və inkişaf hüququnu təmin edir. Bununla lider cəmiyyətin bütövlüyü məsuliyyətini daşıdığını və onun öhdəsindən böyük uğurla gəldiyini praktiki fəaliyyətində sübut etmiş olur!

Nəticədə, lider regional və multiregional miqyasda siyasi-diplomatik istiqamətdə ərazi bütövlüyü, suverenliyi və toplumun bütövlüyü tam təmin edilmiş dövlətin başçısı kimi fəaliyyət göstərməyin siyasi, mənəvi və hüquqi-legitim əsasını yaratmış olur. İndi regional və multiregional miqyaslarda İlham Əliyev daxili birliyin və legitimliyin tam sahibi olan lider kimi addımlar atır. Bu prosesin də ilk nəticələri artıq mövcuddur.

Birincisi, Azərbaycan güclü regional lider statusunda özünü siyasi, sosial, geosiyasi, iqtisadi, təhlükəsizlik, nəqliyyat, loqistika, energetika sferalarında tam təsdiq etmişdir. Dünya bunu qəbul edir.

İkincisi, Azərbaycan regional və qlobal təşkilatlarda ən fəal üzv kimi fəaliyyətdədir. Ayrıca, Qoşulmama Hərəkatı, MDB, TDT, Qara Dəniz Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı kimi təşkilatlarda yeni səviyyədə aktivliyə yüksəlməkdədir. Bu proses həm konkret layihələrin həyata keçməsində, həm də multiregional miqyasda siyasi-diplomatik fəaliyyətdə özünü göstərir.

Üçüncüsü, Azərbaycan regional və qlobal təşkilatlar çərçivəsində multiregional miqyasda müxtəlif xarakterli problemlərin həllində aparıcı rol oynamağa başlamışdır. Bunun nümunəsi kimi TDT-nin təhlükəsizliyi, insan haqlarının təmini və Qoşulmama Hərəkatında insan haqları, yeni müstəmləkəçiliyə qarşı mübarizə və təhlükəsizliklə bağlı prosesləri göstərə bilərik.

Bununla, Azərbaycan faktiki olaraq multiregional miqyasda fəaliyyətini reallaşdırmağa başlamışdır. Burada dövlət başçısı və lider kimi İlham Əliyevin fəaliyyəti həlledici faktora çevrilmişdir. Azərbaycan Prezidenti multiregional məkanda milli ideya kontekstində sistemli fəaliyyətini həm genişləndirir, həm də onu daha təsirli edir. İndi Azərbacyan lideri Uzaq Şərqdən tutmuş Yaxın Şərqə (Fələstin və yeni enerji və nəqliyyat layihələri) qədər böyük bir məkanda fəal siyasi liderlərdən biri statusundadır.

Liderliyn multiregional miqyasda milli ideya kontekstində özəllikləri sırasında yuxarıda vurğulananlarla yanaşı, kommunikasiyaların açılması və işlək hala gətirilməsi istiqamətindəki fəaliyyət xüsusi yer tutur. Burada hazırda mərkəzi punkt kimi Orta dəhlizin reallaşması ayrıca əhəmiyyət kəsb edir. Çünki həmin layihə çərçivəsində Zəngəzur dəhlizinin yuradılması indi, ilk növbədə, multiregional miqyasda aktual məsələlərdən biridir. Yəni Zəngəzur dəhlizinin açılması Azərbaycan multiregionalizminin ən böyük uğurlarından biri olacaqdır.

Proseslər göstərir ki, buna mane olmağa çalşan dairələr fəallaşıblar. Məsələn, Ermənistan tərəfdən yenidən hərbi təxribatlara əl atırlar. Bizim əsgərlərimizlə bağlı baş verən müəmmalı hadisələr, Naxçıvanın atəşə tutulması və s. təxribatlar təsadüfi deyildir.

Bu o deməkdir ki, qarşı tərəf Azərbaycanın bir-bir maneələri aradan qaldıraraq Zəngəzur dəhlizinin reallaşmasına yaxınlaşdığını görür. Lakin buna qarşı hər hansı tutarlı siyasi, geosiyasi və başqa arqumenti yoxdur. Faktiki olaraq, Azərbaycan liderinin multiregional miqyasda milli ideyanı reallaşdırmağı nəzərdə tutan mücadiləsinin yeni mərhələsi başlamışdır! İlham Əliyev bu mərhələni də tam qalibiyyətlə başa vuracaq! Azərbacyan yeni tarixi mərhələdə lideri sayəsində milli ideyanı tam həyata keçirəcək!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ter-Petrosyan partiyasının Paşinyan iqtidarına qəzəb püskürtüsü

**Ermənistanın baş naziri Nikol Paşinyanın ölkə parlamentindəki son çıxışında Qarabağ məsələsinə toxunması və mövcud xüsusda bölgənin itirilməsinə görə yağdırdığı ittihamlar, eləcə də ümumən Qarabağ danışıqları ilə bağlı səsləndirdiyi fikirlər ölkədə sərt reaksiya doğurub. Bu baxımdan Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın rəhbəri olduğu Erməni Milli Konqresinin yaydığı bəyanat üzərində dayanaq. Nəzərə alaq ki, Paşinyan həmişə birbaşa eks-prezidentlər Robert Koçaryanı və Serj Sarkisyanı ittiham etdiyi halda, bu dəfə Ter-Petrosyanı başlıca hədəfə çevirib.**

Əvvəlcə, onu bildirək ki, 2020-ci ilin 44 günlük müharibəsindəki acınacaqlı məğlubiyyətdən sonra erməni siyasi sisteminə anarxiya hakim kəsilib. Bu tendensiya dövlət rəsmilərinin də çıxışlarında özünü göstərir. Müxalifət təmsilçiləri iqtidarı, belə demək mümkünsə, qurşaqdan aşağı ifadələrə “qonaq etdikləri” kimi, qarşı tərəf də eyni ritorikaya üstünlük verir. Əslində, Paşinyanın parlamentdəki son çıxışına da mövcud prizmadan yanaşmaq lazımdır.

Beləliklə, Paşinyanın dediyinə görə, 1996-cı ildə ATƏT-in Lissabon sammitinin nəticələrindən biri “Dağlıq Qarabağ probleminin həlli üçün beynəlxalq səviyyədə qəbul edilmiş konstitusiya” olub ki, ona görə də bölgə Azərbaycanın tərkibində qalmalı idi. Bu tezis ilk dəfədir ki, gündəmə gəlir. Nikol onu da deyib ki, Qarabağın özünüidarəetmə və öz müqəddəratını təyinetmə konsepsiyaları ilə bağlı qərar erməni reallığında səhv başa düşülmüşdü. Sən demə, buna səbəb 1996-cı ildə internetin, sosial şəbəkələrin yoxluğu imiş. Həqiqətən də absurd fikirdir.

Paşinyan daha sonra deyib ki, 1996-cı ildən Ermənistanın birinci prezidenti L.Ter-Petrosyanın tərkibində yer aldığı Hayastanın “klerikal-feodal elitası” Lissabon sənədini gizlədib, erməni xalqını aldadıb. Məqsəd isə hakimiyyəti ələ keçirmək və saxlamaq olub. Ən əsası isə Nikol Ermənistanın birinci prezidentini sonrakı dövlət başçıları R.Koçaryan və S.Sarkisyanla Qarabağ məsələsində status-kvonu saxlamaq məqsədli işbirliyində günahlandırıb. Görünür, birincinin ikincilərin təmsil olunduqları xuntanın təzyiqi səbəbindən hakimiyyətdən geri çəkilməsini nəzərdə tutub.

Yəni, əslində, Paşinyanın məntiqi ondan ibarətdir ki, Qarabağ 1996-cı ildən onsuz da əldən çıxmışdı. Bu mənada onu haqlı saymaq mümkündür. Ona görə ki, sözügedən Lissabon sammiti beynəlxalq müstəvidə Azərbaycanın böyük diplomatik uğuru kimi qiymətləndirilir. Baş nazir, həmçinin, L.Ter-Petrosyanı və Erməni Milli Konqresini “Müharibə və ya Sülh” maddəsinin müddəalarından imtinada, mahiyyətcə öz prinsiplərinə xəyanətdə günahlandırıb.

Məsələ burasındadadır ki, N.Paşinyan 2018-ci ildə iqtidara yiyələndikdən sonra bir müddət, necə deyərlər, taym-aut götürdü. Onun Qarabağla bağlı lap əvvəlki açıqlamaları pozitivlik yaradırdı ki, bu adam baş nazir olduqdan sonra danışıqlarda konstruktiv davranacaq, reallıqları nəzərə alacaq.

Haşiyə çıxaq ki, Nikol hakimiyyətə gəlməzdən əvvəl Qarabağı Ermənistan üzərindən asılmış ağır daş kimi təsvir edirdi. Lakin sonradan haqqında söz açdığı “Müharibə və ya Sülh” məntiqi ilə gedib. Görünür, “Qarabağ Ermənistandır nöqtə” bəyanatını da bu məntiqdən irəli gələrək verib. Hər halda, həm də erməni cəmiyyətindəki sərsəm baxışların dəyişməyəcəyini gördüyündən belə davranıb. Nəticədə “ən yaxşı erməni” olmağı üstün tutub. Axı “ən yaxşı erməni” Şuşada – Cıdır düzündə şərab içib sərxoş olandır.

Sonra yaşananlar da hər kəsə yaxşı məlumdur – 44 günlük müharibə və



onun acınacaqlı nəticələri. İndi Nikolun sözlərindən belə çıxır ki, vaxtilə L.Ter-Petrosyan da eyni yolu tutmalı imiş. Tutmadı və yerini danışıqlar prosesini uzadacaq qüvvəyə, daha doğrusu, Koçaryan-Sarkisyan cütlüyündən ibarət “Qarabağ klanı”na verdi. Çox güman, Paşinyanın fikrincə, bu güzəşt Ermənistanın mənafeyini satmaqdır. Elə isə L.Ter-Petrosyanın rəhbərlik etdiyi Erməni Milli Konqresinin baş nazirin bildirdiklərinə cavabına nəzər salaq.

***

Beləliklə, Ermənistanın birinci prezidentinin partiyası bildirib ki, N.Paşinyan dəfələrlə Lissabon sammitinə dair yalan danışıb. “Rəqibin inadkar axmaqlığını nəzərə alaraq, aşağıdakıları təkrarlamaq məcburiyyətindəyik: 1996-cı ildə Ermənistan qanuni hüququndan istifadə edərək, təklif olunan layihəyə veto qoyduğundan, ATƏT Qarabağ məsələsi ilə bağlı beynəlxalq hüquq baxımından heç bir məcburi qərar qəbul etmədi. Ümumiyyətlə, BMT Təhlükəsizlik Şurası və qurumun mandatını almış ATƏT Qarabağ məsələsinə dair, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini əsas götürən heç bir qərar qəbul etməyib. Amma fakt budur ki, həmin BMT Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarının işğalı ilə bağlı 4 qətnamə qəbul edib. Amma rəsmi İrəvanın həmin qətnamələrin müddəaları ilə hüquqi manipulyasiya yolu tutduğu, müxtəlif interpreativ təqdimatlar irəli sürərək, mahiyyətdən yayındığı məlumdur. Əslində, Erməni Milli Konqresinin mövqeyi də bu yolla özünü təmizə çıxarmaqdır. L.Ter-Petrosyanın partiyasının 1994-cü il ATƏT-in Budapeşt sammitindən söz açması da həmçinin. Qurumun bəyanatında bildirilib ki, guya, həmin sammit Qarabağın gələcək yekun statusunu müəyyənləşdirərkən, ona Ermənistan və Azərbaycanla bərabər statusun verilməsi barədə qərar qəbul edibmiş. Ən əsası isə guya bu, mahiyyətcə Qarabağı beynəlxalq hüququn subyekti kimi tanımaq imiş. Hər halda, ortada cəfəng məntiq var.

Ümumən onu da deyək ki, Erməni Milli Konqresinin anti-Paşinyan tezislərində başlıca xətt odur ki, sanki beynəlxalq aləm Qarabağı Azərbaycan ərazisi kimi tanımırmış. Əslində isə belə deyil. Sadəcə, ikili standartlar siyasəti həyata keçirən dünyanın bəzi qütbləri çox çalışırdılar ki, müxtəlif sənədlər vasitəsilə Qarabağın və Azərbaycan torpaqlarının işğalına hansısa hüquqi don geyindirsinlər. Otuz ilə yaxın davam etmiş danışıqlar prosesində də başlıca məqsəd bu idi. Ancaq Azərbaycan diplomatiyasının prinsipial davranışı nəticəsində mənfur niyyətlər gerçəkləşmədi. Ter-Petrosyanın partiyası həmin niyyətin yalnız bir detalını açıqlayır. Söhbət 1997-ci ildə ATƏT-in Minsk qrupunun irəli sürdüyü “mərhələli həll” təklifindən gedir. Məlumdur ki, sözügedən təklif Qarabağdakı separatçı rejimin buna razı olmaması ilə həyata keçmədi. Sanki Ermənistan razı imiş...

Qeyd edək ki, Ermənistanın birinci prezidenti 2016-cı ildə dərc olunmuş “Qarabağın müstəqilliyinin tanınması haqqında” məqaləsində yazırdı ki, Minsk qrupunun apardığı danışıqlara lazımi şəkildə daxil edilərsə, “beynəlxalq ictimaiyyətin gec-tez Qarabağın müstəqilliyini tanıyacağına şübhə yoxdur”. Məsələni gündəmə gətirən Erməni Milli Konqresi vurğulayır ki, N.Paşinyan “Qarabağ Ermənistandır nöqtə” şüarı ilə danışıqları iflasa uğratdı. Partiyanın bildirdiyinə görə, qurumun kursu kompromis təkliflərin həyata keçirilməsini, o cümlədən, Qarabağa və Ermənistana aid olmayan ərazilərin qaytarılmasını əsas tuturmuş. Yəni, Paşinyan məlum bəyanatı ilə buna imkan verməyib və nəticədə hər şey əldən çıxıb.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan xarici investisiyaya açıq ölkədir



**Prezident İlham Əliyevin innovasiyayönümlü istehsala əsaslanan sosial-iqtisadi siyasəti, apardığı islahatlar Azərbaycan iqtisadiyyatını keyfiyyətcə yeni, daha yüksək mərhələyə çıxarıb və respublikamız dünyanın iqtisadi cəhətdən dinamik inkişaf edən ölkəsi imicini qazanıb.**

Hazırda respublikamızda qeyri-neft sektorunun inkişafı iqtisadi artımın başlıca mənbəyi kimi diqqət mərkəzində saxlanılır. Milli iqtisadiyyatın tərəqqisinə və ixracın şaxələndirilməsinə yönələn tədbirlər qeyri-neft sektorunda iqtisadi artıma müsbət təsir edir. Həmin tədbirlər sırasında son illər investisiya siyasətinin diqqət mərkəzində saxlanılması mühüm önəm daşıyır.

Bu gün Azərbaycanda xarici investiya qoyuluşuna böyük əhəmiyyət verilməklə yanaşı, dövlət müəssisələrinə ayrılan sərmayələrin səmərəli istifadəsinə də nəzarət gücləndirilib. Belə ki, dövlət müəssisələrinin maliyyə sağlamlığını və dayanıqlılığını yaxşılaşdırmaq, maliyyə resurslarının, habelə xarici borcların cəlb olunmasını səmərəli meyarlar əsasında idarə etmək məqsədi ilə Prezident İlham Əliyevin 2020-ci il 7 avqust tarixli sərəncamına əsasən Azərbaycan İnvestisiya Holdinqi yaradılıb.

Son illərdə investisiya mühitinin daha da yaxşılaşdırılması üçün vergi və gömrük islahatları da davam etdirilib, onlayn vahid ixrac ərizəsi, "Yaşıl dəhliz", elektron məhkəmə, elektron satınalma, tikintidə "bir pəncərə", biznesə başlama, elektrik enerjisinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm tədbirlər həyata keçirilib. Bütün bu sistemli yeniliklər isə ölkəmizin Dünya Bankının Doing Business reytinqində ilk iyirmiliyə daxil olmasını gerçəkləşdirib. Dünya Bankı ekspertlərinin fikrincə, respublikamızın belə bir müsbət nəticə əldə etməsi Azərbaycanda 4 sahədə (daşınmaz əmlakın qeydiyyatı, kreditlərin alınması, minoritar investorların müdafiəsi, müqavilə intizamı) bizneslə məşğul olmağın daha da asanlaşması ilə bağlıdır.

Azərbaycana investisiya qoyuluşuna marağın getdikcə artması həm də ölkəmizin siyasi cəhətdən sabit olması, milli, dini və irqi tolerantlığı baxımından seçilməsi ilə bağlıdır. Bununla bərabər, respublika hökuməti tərəfindən həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində ölkədə güclü iqtisadi potensial mövcuddur. Yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzi olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır. Eyni zamanda, Azərbaycan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirir. Ölkəmizin təşəbbüskarı olduğu transmilli layihələr hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" də ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılmasına müsbət təsir göstərir. Adı çəkilən Yol Xəritəsinin müvafiq hədəflərini reallaşdırmaqla biznes mühitinin səmərəliliyinin artırılması istiqamətində orta müddətli xərclər strategiyası çərçivəsində yeni siyasətin tətbiqini, maliyyə-bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsini, habelə xarici bazarlara çıxış imkanlarının genişləndirilməsini gerçəkləşdirir.

Sözügedən Strateji Yol Xəritəsinin 5-ci bölməsində göstərilir ki, 2025-ci ilə qədər Azərbaycanda hər il ÜDM istehsalı 3 faizdən çox artacaq və əlavə olaraq 450 mindən çox yeni iş yeri yaradılacaq. İqtisadiyyatın sektorları üzrə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində isə qeyri-rəsmi məşğulluğun payı azalacaq.

Göründüyü kimi, hökumət ölkədə investisiya fəaliyyətinin genişləndirilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına, sənaye istehsalının artırılmasına, qeyri-neft sektorunun inkişaf etdirilməsinə ciddi önəm verir. Bu istiqamətdə qarşıya qoyulan əsas hədəflər sərmayə qoyuluşlarının artırılması, sahibkarların ixrac potensialının gücləndirilməsi, investisiya imkanlarının genişləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsidir.

Azərbaycanın dünya miqyasında sabit iqtisadiyyata malik dövlət kimi tanınması, beynəlxalq birliyin etibarlı tərəfdaşı olması ölkəmizə investisiya axınını şərtləndirib. Bu məsələdə hökumət tərəfindən "açıq qapı" siyasətinin reallaşdırılması da stimullaşdırıcı rol oynayıb. Bu, öz ifadəsini investorların hüquq və mənafelərinin qorunmasında, mülkiyyətin toxunulmazlığında, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılmasında daha qabarıq büruzə verib. "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyaların qorunması haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunların və bir sıra normativ sənədlərin qəbulu məhz bu məqsədi daşıyıb. Bundan savayı, Azərbaycan hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması ilə bağlı çoxsaylı saziş imzalanıb. Avropa İttifaqının 20-dən çox üzv ölkəsi ilə respublikamız arasında ikiqat vergitutma aradan qaldırılıb.

### Ekspert rəyi

**Nicat HACIZADƏ,
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri**



Bu ilin I rübündə Azərbaycan investorlarının xarici ölkələrə yatırdığı birbaşa investisiyalar üzrə gəlirlər ötən ilin eyni dövrü ilə müqayisədə 9 faiz, qeyri-neft-qaz sahəsi üzrə qoyulan birbaşa investisiyalardan əldə edilən gəlirlər isə 92 faiz artıb. Xarici investorların Azərbaycana yönəltdiyi birbaşa xarici investisiyalardan əldə olunan gəlir əsasən neft-qaz sektorunu əhatə edib. Bu dövrdə xarici investorlar ölkəyə yatırılan birbaşa investisiyalardan 837,3 milyon ABŞ dolları məbləğində gəlir əldə ediblər ki, bu məbləğin 93,8 faizi xam neft və qaz şəklində repatriasiya vasitəsilə əldə olunub.

Cari ilin yanvar-mart aylarında ehtiyatların idarə edilməsindən gələn gəlir 300,9 milyon ABŞ dollarına çatıb. Bu məbləğin də əhəmiyyətli hissəsi Dövlət Neft Fondu və Azərbaycan Mərkəzi Bankının ehtiyatların idarə edilməsindən əldə etdiyi gəlirdir. Buna qarşılıq yerli qiymətli kağızlara qoyulan investisiyalara görə, qeyri-rezidentlərə faiz ödənişi 146,6 milyon ABŞ dolları, qeyri-neft-qaz sektoru üzrə qiymətli kağızlardan ödənilən faiz ödənişi isə 51,7 milyon ABŞ dolları olub. Bundan əlavə, Azərbaycan xarici ölkələrə verilən kreditlərə görə faizlər, həmçinin digər ödənişlər üzrə 206,9 milyon ABŞ dolları gəlir əldə edib ki, bunun da 91,9 faizi qeyri-neft-qaz sahəsinin payına düşür.

Rüb ərzində Azərbaycan iqtisadiyyatına qoyulan birbaşa xarici investisiyalar ötən ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz artaraq 1,5 milyard ABŞ dolları səviyyəsinə çatıb. Habelə cari ilin ilk rübündə birbaşa xarici investisiyaların ÜDM-ə nisbəti 8,8 faiz, qeyri-neft-qaz birbaşa xarici investisiyaların qeyri-neft-qaz ÜDM-ə nisbəti isə 1,7 faiz təşkil edib. Buna baxmayaraq qeyri-rezidentlərin yerli iqtisadiyyata yatırdığı birbaşa xarici investisiyalar üzrə xalis maliyyə öhdəlikləri 358,7 milyon ABŞ dolları azalıb.

Birinci rübdə Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyanın 12,4 faizi qeyri-neft-qaz sektorunun payına düşüb. Bu dövrdə ölkəmizə ən çox birbaşa xarici investisiyanı Böyük Krallıq (443,2 milyon ABŞ dolları), Türkiyə (261,4 milyon ABŞ dolları) və BƏƏ (190,7 milyon ABŞ dolları) yatırıb.

## Ölkəmiz neft hasilatı öhdəliyinə sadiqdir

**Cari ilin may ayında Azərbaycanda gündəlik xam neft hasilatı orta hesabla 478 min barel səviyyəsində olub. Bununla bağlı məlumat Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) aylıq hesabatında öz əksini tapıb.**

Hesabata əsasən, cari ilin aprelində Azərbaycanda neft hasilatı 480 min barel təşkil edib. Bildirilib ki, bu ilin birinci rübündə Azərbaycanda ortalama gündəlik neft hasilatı 477 min barel səviyyəsində olub ki, bu da 2023-cü ilin 4-cü rübün göstəricisi ilə müqayisədə 10 min barel azdır.

Yeri gəlmişkən, "OPEC+" (OPEC və təşkilata daxil olmayan ölkələri əhatə edən neft istehsalının azaltması üzrə təşəbbüs) əməkdaşlığı çərçivəsində 2024-cü il üçün Azərbaycanın gündəlik xam neft hasilatı üzrə kvotası 551 min bareldir. Beləliklə, ölkəmiz may ayında "OPEC+" çərçivəsində kvotasından 73 min barel geridə qalıb.




## 5 ayda 48 milyard manatlıq ÜDM

**Cari ilin yanvar–may aylarında ölkədə 48 milyard 26 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,2 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub.**



Dövlət Statistika Komitəsindən bildirilib ki, ötən ilin yanvar-may ayları ilə müqayisədə iqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər istehsalı 7,3 faiz artıb, neft-qaz sektorunda isə eyni səviyyədə qalıb.

ÜDM istehsalının 39,7 faizi sənaye, 9,6 faizi ticarət, 7 faizi nəqliyyat, 6 faizi tikinti, 3,8 faizi kənd təsərrüfatının payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 4713 manata bərabər olub.

## Orta aylıq əməkhaqqı – 1000 manat!

**Dövlət Statistika Komitəsinin yaydığı məlumatda deyilir ki, 2024-cü il mayın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1749,7 min nəfər olub, onlardan 897 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 852,7 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.**

Muzdla işləyənlərin 19 faizi təhsil, 18,7 faizi ticarət, 12,8 faizi sənaye, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,7 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd təsərrüfatı, 2,2 faizi maliyyə və sığorta fəaliyyəti, 14,5 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.



Cari ilin yanvar-aprel aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,2 faiz artaraq 1007,5 manat olub. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

## COP29 Akademiyası – "yaşıl" gələcəyə növbəti töhfə

**Cari il noyabrın 11–22-də Azərbaycanda keçiriləcək COP29 konfransı çərçivəsində fəal iqlim fəaliyyəti ilə planetimizə müsbət təsirlərə əsaslı töhfələrin verilməsi, eyni zamanda, Bakı şəhərinə gələcək on minlərlə xarici qonağın ən yaxşı təcrübə və qonaqpərvərliklə qarşılanmasının təmin edilməsi istiqamətində göstərilən səylərlə yanaşı, həmçinin tədbirin paytaxt, eləcə də ölkəmizə təsirləri də dəyərləndirilir. Bu istiqamətdə COP29 Azərbaycan Əməliyyat Şirkəti növbəti layihəyə start verərək, ekoloji maarifləndirmə və iqlim dəyişmələri istiqamətində gənclərin fəal iştirakının təmin edilməsi məqsədilə COP29 Akademiyasının fəaliyyətə başladığını elan edib.**




COP29 Azərbaycan Əməliyyat Şirkətindən verilən məlumatda bildirilir ki, akademiyanın yaradılması təşəbbüsü iqlim və dayanıqlılıq mövzularında peşəkar səriştələr, liderlik, dərin bilik nümayiş etdirən və fərqlənən universitet məzunlarını tanımağı və dəstəkləməyi, ölkənin istedadlı gəncləri vasitəsilə dayanıqlılığın əhəmiyyəti barədə cəmiyyətin məlumatlandırılmasını hədəfləyir.

Bu proqram iştirakçılara mentorluq, davamlı peşəkar inkişaf üçün imkanları təklif etməklə iştirakçıların dayanıqlılıq sahəsində biliklərə yiyələnməsi, həmyaşıdları, ailələri və ictimaiyyət ilə paylaşmaları üçün bir platforma rolunu oynayacaq.

İstənilən ixtisas sahəsi üzrə məzunların müraciətlərini qəbul edəcək COP29 Akademiyası qeydiyyatdan keçən gənclər üçün ünsiyyət, layihələrin idarəedilməsi, peşəkar davranış kodeksi və s. kimi müəyyən bacarıqlara yiyələnmək üçün müvafiq mütəxəssislərin iştirakı ilə seminarlara qatılma imkanı yaradacaq. Akademiyanın hər bir iştirakçısı Əməliyyat Şirkəti tərəfindən işlə təmin edilərək COP29 tədbirinin təşkilinə işçi heyətinin üzvü qismində töhfə verməyə cəlb ediləcək.

2023 və 2024-cü illərdə akkreditə olunmuş universitetlərdən məzun olan, Azərbaycan vətəndaşlığını daşıyan və əmək fəaliyyəti ilə məşğul olmayan, sosial aktiv, xarici dil bilikləri yüksək olan bütün namizədlər cari il iyunun 22-dək link vasitəsilə ərizə formasını dolduraraq qeydiyyatdan keçə bilərlər. Proqram tələblərinə əsasən seçilən namizədlər müsahibə mərhələsinə dəvət olunacaqlar. Əlavə məlumat üçün www.cop29.az, academy@cop29.az və ya +994125352928 müraciət oluna bilər.

Ümumilikdə, tədbir həm gənclər, həm ölkənin ümumi işçi qüvvəsinə əsaslı şəkildə təsir edəcək. Bu xüsusda ölkəmiz öz fəaliyyəti ilə paytaxt Bakı və onun hüdudlarından kənarda insan kapitalının formalaşması, infrastrukturun təkmilləşdirilməsi və dayanıqlı inkişafın dəstəklənməsi istiqamətlərində əldə edilən nailiyyətləri tədbirdən sonra da miras olaraq saxlamağı hədəfləyir.

## SOCAR "Baker Hughes" ilə əməkdaşlığa başladı




**SOCAR-ın mətbuat xidmətindən aldığımız məlumata görə, Dövlət Neft Şirkəti (SOCAR) ilə "Baker Hughes" şirkəti arasında Əməkdaşlıq Sazişi imzalanıb. SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Baker Hughes" şirkətinin prezidenti və baş icraçı direktoru Lorenzo Simonelli tərəfindən imzalanan sənədə əsasən, Azərbaycan ərazisində mərkəzdənqaçma elektrik dalma nasoslarının (MEDN) yığılması, təmiri və texniki servis işlərinin aparılması nəzərdə tutulub.**

Saziş çərçivəsində SOCAR-ın "Azneft" İstehsalat Birliyi ilə "Baker Hughes Services İnternational" MMC arasında əldə olunan razılaşmaya əsasən, MEDN-lərin yığılması məqsədilə yeni mərkəz yaradılacaq. Hazırlıq işlərinin ilkin mərhələsində 50 MEDN dəsti Azərbaycana çatdırılacaq.

Tətbiq ediləcək innovativ yanaşma prosesləri sadələşdirməklə yanaşı, səmərəliliyi və məhsuldarlığı artıracaq. Yeni texnologiyadan istifadə nəticəsində keçmiş nəsil dalma nasoslarının yaratdığı çətinliklər, o cümlədən təmirlə bağlı hasilat fasilələrinin çoxalması və məhsuldarlığın azalmasının qarşısı alınacaq. İnnovativ yanaşma dalma nasoslarına müstəsna etibarlılıqla işləməyə imkan verərək onların istismar müddətini dəfələrlə artıracaq.

Strateji əməkdaşlıqlar və tərəfdaşlarla aparılan təcrübə mübadilələri, həmçinin innovativ yanaşmaların, yeni texnologiyanın tətbiqi sayəsində SOCAR fəaliyyətini daha da təkmilləşdirməyi və daha yeni nailiyyətlər əldə etməyi hədəfləyir.

*Hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Ümummilli liderin bioqrafiyasının teatr səhifəsi

**Xalqımızın ümummilli lideri, milli mədəniyyətimizin misilsiz himayədarı Heydər Əliyevin teatr və orada çalışan insanlar haqqında dediyi bu qiymətli sözləri oxuyanda istər-istəməz belə bir qənaət yaranır ki, bu ifadələri yalnız səhnə həyatını dərindən duyan, ona daxilən bələd olan bir insan söyləyə bilər. Bəli, bu sözlərin müəllifi, yüksək sənət zövqü və estetik düşüncəsi olan Heydər Əliyev yeniyetməlik çağından teatr aləminin sehrinə düşmüş, həyatının bütün mərhələlərində, dahi və fenomenal bir şəxsiyyət kimi tanınanda da, ömrünün sonunadək bu sehirdən xilas olmaq bilməmişdir.**

**Teatr müqəddəs yerdir, tərbiyə ocağıdır. Orada çalışanlar fədakardırlar, fədaidirlər. Heç kim bilmir ki, aktyor səhnəyə çıxıb rolu tamaşaçı qarşısında oynadığı vaxta kimi nə qədər həyəcan, sevinc keçirir.**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**



Ulu öndərdə teatra sonsuz məhəbbəti yaradan isə, hər şeydən əvvəl, Naxçıvanın teatr mühiti olmuşdur. Doğulub böyüdüyü şəhərdəki dram teatrının tamaşalarına xüsusi maraq göstərən gənc Heydər, demək olar ki, 14 yaşından bu qədim sənət ocağının daimi izləyicisinə çevrilir. Teatra vurğunluğu onu 1938-ci ildə Naxçıvan Şəhər Pionerlər Evində yenicə təşkil olunan dram dərnəyinə gətirir. Həmin dərnəyin təşkilatçısı və rəhbəri, Naxçıvan Dövlət Dram Teatrının aktyoru Miribrahim Həmzəyev bu istiqanlı yeniyetmədə fitri istedadı sezərək ona əvvəlcə əsas rolları, sonrakı tamaşalarda isə baş rolları etibar edir.

Naxçıvan Pedaqoji Məktəbində təhsil aldığı illərdə bu dram dərnəyinin fəal üzvü olan tələbə Heydər Əliyev burada hazırlanan "Qaralar ölkəsində" (K.Həsənov), "Lənkəran xanı vəzirinin sərgüzəşti" (M.F.Axundov), "On min manatı kim uddu?" (M.S.Ordubadi), "Qanlı döyüş" (İ.Həmzəyev) kimi tamaşalarda oynadığı baş və əsas rollarla tamaşaçıların, xüsusən də müəllimlərinin və tələbə yoldaşlarının rəğbətini qazanır.

"Qayıdış" adlı sənədli televiziya filmində o illəri xatırlayan ulu öndər Heydər Əliyev deyir: "14–15 yaşlarında Naxçıvan Dövlət Teatrının tamaşalarına çox böyük həvəs və maraqla baxırdım. İbrahim Həmzəyevin ifa etdiyi rolların vurğunu idim. Sonralar eşitdim ki, Həmzəyev dram dərnəyi təşkil edib. Mən də o dərnəyə yazıldım və həvəslə iştirak etdim. Mən teatrla gənc yaşlarımdan məşğul olmuşam, baş rollarda oynamışam. Mən həmişə teatra yaxın və bağlı adam olmuşam. Bu ötəri hiss deyil, içimdən gələn bir məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdə var".

AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor İnqilab Kərimov özünün "Heydər Əliyev sənət, sənətkarlar və sənətkarlıq haqqında" kitabında ulu öndərin Naxçıvan Teatrı ilə bağlı məqamlarından birini belə təsvir edir: "1958-ci ilin əvvəlləri idi. Azərbaycan EA Memarlıq və İncəsənət İnstitutunun aspirantı idim. Respublika Mədəniyyət Nazirliyinin xətti ilə Naxçıvana ezamiyyətə göndərilmişdim. Naxçıvan Dövlət Dram Teatrının iki tamaşasına baxdıqdan sonra yaradıcı kollektivlə görüşüb fikirlərimi söylədim. Müzakirədən sonra İbrahim Həmzəyev söhbət zamanı "Vaxtı ilə bizdə yaxşı istedadlar, həvəskarlar vardı" deyərək, Heydər Əliyevin adını çəkdi və onun nəinki istedadlı bir aktyor, hətta qüvvətli bir teatr nəzəriyyəçisi ola biləcəyini vurğuladı və dedi ki, onda teatra, aktyor sənətinə belə aydın münasibət var idi. Mən ilk dəfə Heydər Əliyevin adını o gün orada, İbrahim Həmzəyevin dilindən eşitdim".




Ulu öndərin özünün də qeyd etdiyi kimi, Naxçıvan Şəhər Pionerlər Evindəki dram dərnəyinin üzvü olduğu illərdə İbrahim Həmzəyevin rejissorluğu ilə hazırlanan tamaşaların bir neçəsində baş rolların ifaçısı olmuşdur. Bunlardan biri də müəllifi Kərəm Həsənov olan "Qaralar ölkəsində" adlı tamaşadakı Kral rolu olmuşdur. Bu tamaşadan sonra, bir müddət sinif yoldaşları onu "Kral" deyə çağırırmışlar.

Məhz həmin tamaşadan bir səhnənin şəkili Heydər Əliyevin bu dram dərnəyindəki fəaliyyətini əks etdirən yeganə sənəddir. Lakin böyük təəssüflər olsun ki, hələ ümummilli liderimizin sağlığında ilk dəfə olaraq doğma Naxçıvan şəhərində yaradılmış Heydər Əliyev Muzeyində, sonralar Bakıda, o cümlədən respublikamızın digər şəhər və rayon mərkəzlərində təşkil olunmuş belə xatirə mərkəzlərində həmin foto yanlış təqdim olunur. Buna səbəb isə 2005-ci ildə Moskvanın "Molodaya qvardiya" nəşriyyatında işıq üzü görmüş "Görkəmli adamların həyatı" seriyasından "Heydər Əliyev" kitabı olmuşdur. Bu tarixi seriyanın Azərbaycan xalqının Ümummilli liderinə həsr olunmuş 932-ci nəşrində həmin şəkil "Səməd Vurğunun "Vaqif" pyesi əsasında tələbə tamaşası. Heydər Əliyev solda" qeydi ilə yer alıb. Məhz həmin yazı Heydər Əliyev muzeylərində və mərkəzlərində, o cümlədən təşkilat, idarə və müəssisələrdəki Ulu öndərə həsr olunmuş guşələrdə sərgilənən eyni şəkilin altında da təkrarlanır.

Bu yanlış məlumatı sadə bir faktın məntiqi təkzibedir: Heydər Əliyev 1938-ci ilin əvvəlindən 1939-cu ilin ortalarınadək Naxçıvan Şəhər Pionerlər Evindəki dram dərnəyinin üzvü olub. 1939-cu ilin sentyabrından isə o, artıq Azərbaycan Sənaye İnstitutunun tələbəsi idi. S.Vurğunun "Vaqif" pyesi isə ilk dəfə 5 oktyabr 1938-ci ildə Azərbaycan Dövlət Dram Teatrının səhnəsində göstərilmişdi. Bundan, təxminən, bir il sonra Naxçıvan Dövlət Dram Teatrı da həmin əsərə müraciət etmişdir.

Tarixi sənədlər göstərir ki, "Vaqif" pyesinin tamaşaya qoyulması üçün Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 1939-cu il 10 sentyabr tarixli qərarı ilə Naxçıvan Teatrının hesabına 20 min manat vəsait köçürülmüşdür. Məşqlər sentyabrın 14-də başlamış, oktyabrın 19-da yekunlaşmışdır. "Vaqif" dramının tamaşaya qoyulması münasibətilə Səməd Vurğun Naxçıvan Teatrına ünvanlandığı təbrik teleqramında yazmışdı: "Kollektivinizin yaradıcılıq qələbələrini təbrik edir, tamaşada şəxsən iştirak edə bilməyəcəyimə dərin təəssüf edirəm".

Bakıdan dəvət olunmuş rejissor Həsən Əliyevin quruluşunda və teatrın baş rəssamı Şamil Qazıyevin bədii tərtibatında "Vaqif" tamaşasının premyerası oktyabrın 21-də olmuş və teatr yeni mövsümünü bu əsərlə açmışdır. Naxçıvan səhnəsində ilk dəfə Vaqif obrazını İbrahim Həmzəyev ifa etmişdir.

Buradan belə bir nəticə hasil olur ki, "Vaqif" pyesini Naxçıvanda Dövlət Dram Teatrı 1939-cu il sentyabrın əvvəllərində, yəni kollektiv məzuniyyətdən qayıtdıqdan sonra, yeni mövsüm ərəfəsində əldə etmişdirsə, bu əsər əsasında şəhərdəki dram dərnəyində necə tamaşaya hazırlana bilərdi? Digər tərəfdən, həmin dram dərnəyinin rəhbəri İbrahim Həmzəyev Vaqif obrazını ilk dəfə özü həmin ilin sentyabrında hazırlamışsa, o, bir neçə ay əvvəl bu obrazı teatr həvəskarı Heydər Əliyevə necə həvalə edə bilərdi?

Naxçıvan Şəhər Pionerlər Evindəki dram dərnəyində isə nə onda, nə də 1940–50-ci illərdə "Vaqif" tamaşaya qoyulmayıb. Bu, Hüseyn Cavidin "Şeyx Sənan" pyesinə də aiddir. Haqqında söhbət açdığım məşhur foto "Heydər Əliyev və Hüseyn Cavid" kitabında "Gəncliyində Naxçıvanda bir sıra teatr tamaşalarında rol alan Heydər Əliyev (solda) "Şeyx Sənan" pyesində" alt yazısı ilə təqdim olunmuşdur. Bu foto Bakıdakı Hüseyn Cavidin Ev-Muzeyində də eyni mətnlə nümayiş etdirilir.

Geniş yayılmış "Səməd Vurğunun "Vaqif" pyesi əsasında tələbə tamaşası. Heydər Əliyev solda" yazısı başqa bir sual doğura bilər: Tələbə Heydər Əliyev, bəlkə, o, Vaqif rolunu Bakıda oxuyarkən ifa edib? Bu sualın cavabında bildirək ki, Bakı mühitinə yenicə düşmüş, bir tələbənin dərhal dram dərnəyinə qoşulması ağlabatan deyil. Şəkil isə bizə hər şeyi aydınlığı ilə göstərir: 14 – 15 yaşlı bir yeniyetmə və onun səhnə geyimi – başında tac, belində xəncər! Belə geyim nə şair və vəzir Vaqifə, nə də din xadimi Şeyx Sənana uyğun gəlir. Bu obrazların hər ikisi saqqallı və əmmaməli olmalı idi. Şəkildə isə saqqal yox, parik görürük. Tac və xəncər isə yüksək rütbəli, hakim bir obrazdan xəbər verir. Bu, Qaralar ölkəsinin kralı deyilmi?

Sənaye İnstitutunun birinci kursunun sonlarında Heydər Əliyevin 17 yaşı var idi. Bir məqamı da xatırladaq ki, 1937-ci ilin iyunundan respublikada H.Cavidin bütün əsərlərinin dərci, kitablarının nəşri, tamaşalarının oynanılması qadağan olunmuşdu. Belə bir dövrdə hansı "Şeyx Sənan"dan söhbət gedə bilər?

Əldə etdiimiz bilgiyə əsasən, Azərbaycan Sənaye İnstitutunda oxuyan Heydər Əliyev teatr aləmindən ayrı düşməsi ilə barışa bilmir və imkan tapdıqca tələbə dostları ilə Azərbaycan Dövlət Dram Teatrının tamaşalarına gedir. O, ikinci kursdan səhnəyə maraq göstərən istedadlı tələbələri bir yerə toplayaraq institutda dram dərnəyi yaradılmasına nail olur. Məhz bu dram dərnəyindəki fəaliyyəti gənc Heydər Əliyevin təşkilatçılıq və rəhbərlik keyfiyyətlərini ilk dəfə üzə çıxarır.

Həmin dram dərnəyində V.Şekspirin "Hamlet" faciəsindən bir pərdə hazırlanır və baş rolu Heydər Əliyev özü ifa edir. Bu səhnəcik və Hamlet obrazı, xüsusən də onun monoloqunu müəllim və tələbələr rəğbətlə qarşılayırlar. Bu barədə Ümummilli lider Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında 2002-ci ildə tamaşaya qoyulan "Hamlet"in premyerasından sonra yaradıcı heyətlə səhnədəki görüşü zamanı özü söhbət açmışdı.

1941-ci ildə SSRİ – Almaniya müharibəsinin başlanması səbəbindən ali təhsillini yarımçıq Heydər Əliyev Naxçıvanın müxtəlif dövlət idarə və təşkilatlarında məsul vəzifələrdə işləməli olur. O bu dövrdə imkan tapıb Naxçıvan Teatrının tamaşalarına getmiş, sevimli sənət müəllimi İbrahim Həmzəyevlə, kollektivin üzvləri ilə görüşmüş, onlarla söhbətdən, xatırladığı kimi, "xüsusi zövq" almışdır. Ulu öndərin məxsusi teatr sevgisi və bu sənətə böyük marağı ömrünün sonunadək davam etmişdir.

*Ələkbər QASIMOV,*
*AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi, dosent*

# Milli Məclisdə Qurtuluş Günü qeyd edildi



**İyunun 14-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirildi. İclasda əvvəlcə cari məsələlər müzakirə olundu.**

Çıxışlarda vurğulandı ki, iyun ayının 15-də Azərbaycan xalqı öz tarixinin ən şərəfli, qürurlu günlərindən birini – Milli Qurtuluş Gününü qeyd edəcək. Qeyd edildi ki, ölkə həyatının ağır dövründə ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıdaraq xalqımızı baş verə biləcək faciələrdən xilas etdi. Bu baxımdan, Heydər Əliyev müasir, müstəqil Azərbaycanın memarı və qurucusu olaraq, hər zaman xatirələrdə yaşayacaq. Ümummilli liderin hakimiyyətə qayıdışından sonra ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi, iqtisadi və sosial islahatların həyata keçirilməsi, milli ordu quruculuğu sahələrində mühüm addımlar atıldı, beynəlxalq münasibətlər sistemində dövlətimizin mövqeyi möhkəmləndi.

Deputatlar bildiriblər ki, Heydər Əliyevin ölkənin inkişafı ilə bağlı o zaman müəyyənləşdirdiyi siyasət bugünkü nailiyyətlərimizi şərtləndirdi. Vətən müharibəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz Zəfərimizin təməli də məhz həmin dövrdə qoyuldu. Bu gün Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilib. Azərbaycan regionun lider dövlətinə çevrilib. Deputatlar son dövrlərdə ölkəmizin qazandığı bütün uğurları ulu öndər Heydər Əliyevin dövlətçilik strategiyasının məntiqi nəticəsi kimi qiymətləndirdilər.

Cari məsələlərin müzakirəsinə yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, bugünkü iclas Azərbaycan tarixində taleyüklü əhəmiyyət daşıyan bir hadisənin ildönümü ərəfəsində keçirilir. Xalqımız Milli Qurtuluş bayramını dərin ehtiramla qeyd edir. İllər keçdikcə biz ulu öndər Heydər Əliyevin o dövrdə göstərdiyi fədakarlığı və qəhrəmanlığı daha da yaxşı anlayırıq. Ölkədə faktiki olaraq qardaş qırğını başlamışdı, erməni işğalı, separatçılıq meyilləri dövlətin varlığını təhlükə altına almışdı.

Yalnız xalqın təkidli tələbi ilə Heydər Əliyevin siyasi və dövlət rəhbərliyinə qayıtması Azərbaycanın parçalanması və məhv olması fəlakətinin qarşısını aldı. Ulu öndər siyasi iradəsi, qətiyyəti, zamanın çağırışlarına yaradıcı münasibət bildirmək və düzgün qərarlar qəbul etmək qabiliyyəti sayəsində Azərbaycan dövlətini qoruyub saxladı, möhkəmləndirdi və davamlı inkişaf yoluna çıxardı, onun geosiyasi əhəmiyyətini artırdı, ölkəmizi qlobal miqyaslı iqtisadi layihələrin mərkəzinə çevirdi.

Ulu öndərin 30 ildən artıq bir dövrdə Azərbaycanın rəhbəri kimi fəaliyyətinin təhlili göstərir ki, müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyev dühasının məhsuludur.

Milli Məclisin Sədri diqqətə çatdırdı ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu olduğu kimi, bugünkü Azərbaycan parlamentinin də banisidir. Qürurverici bir haldır ki, Ümummilli liderin böyük siyasətə qayıdışı məhz bu binadan başlamışdır.

Spiker qeyd etdi ki, Ulu öndərin qurtuluş və quruculuq missiyası bu gün eyni əzm və iradə ilə Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən daxili və xarici siyasət Azərbaycanı geniş bir bölgədə söz sahibi olan, dünyada səsi eşidilən qüdrətli bir dövlətə çevirib.

S.Qafarova bildirdi ki, yaradılmış böyük siyasi, iqtisadi, hərbi potensial Ümummilli liderimizin ən mühüm vəsiyyətini şərəflə yerinə yetirməyə imkan verdi – müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və 1 günlük antiterror tədbirlərində əldə edilən möhtəşəm qələbələr sayəsində dövlətimizin ərazi bütövlüyü və suverenliyi bərpa olundu, tarixi ədalət öz yerini tutdu.

Bu gün Azərbaycan öz tarixinin ən şərəfli dövrlərindən birini yaşayır. Əminliklə söyləmək olar ki, dövlət başçısı cənab İlham Əliyevin müstəsna liderlik keyfiyyətləri, siyasi məharəti və səriştəsi qarşıya qoyulan vəzifələri bundan sonra da uğurla yerinə yetirməyə imkan yaradacaq. Azərbaycan dövləti daim var olacaq, Ulu öndər Heydər Əliyevin dediyi kimi, "əbədiyyətə qədər yaşayacaqdır".

Spiker təklif etdi ki, Milli Qurtuluş Günü və Qurban bayramı münasibəti ilə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlansın.

Sonra parlamentin Sədri gündəliyə 11 məsələnin daxil edildiyini bildirdi. O, ilk dörd məsələnin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələri ilə bağlı olduğunu və bu məsələlərin müzakirəsi ilə əlaqədar hökumət üzvlərinin iclasda iştirak etdiyini dedi. Spiker gündəliyin birinci məsələsinin "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi olduğunu, sənədin üçüncü oxunuşda müzakirəyə təqdim edildiyini diqqətə çatdırdı.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qanun layihəsi barədə məlumat verdi.

Tahir Mirkişili 2023-cü ilin dövlət büdcəsinin icrasının Azərbaycan Prezidenti İlham Əliyevin müəyyən etdiyi inkişaf kursunun ardıcıl şəkildə həyata keçirilməsi, strateji dövlət vəzifələrinin yerinə yetirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, müdafiə və təhlükəsizlik məsələlərinin həlli, işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin aparılması və iqtisadiyyatın stimullaşdırılması ilə bağlı qarşıya qoyulan hədəflərə nail olmaq üçün lazımi maliyyə təminatını yaratdığını söylədi.

"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edildi.

Plenar iclasda cari ilin dövlət büdcəsində, Dövlət sosial müdafiə və İşsizlikdən sığorta fondlarının büdcələrində dəyişikliklərlə bağlı sənədlər ətrafında müzakirələr aparıldıqdan sonra Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev səsləndirilən fikirlərə münasibət bildirdi. Sonra qanun layihələri səsə qoyularaq qəbul edildi.

Sonra gündəlikdəki digər qanun layihələri müzakirələrdən sonra səsə qoyularaq qəbul edildi.

Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

*Əliqismət BƏDƏLOV*
*XQ*

# Azərbaycanda Milli Qurtuluş Günü təntənələri

**15 İyun Milli Qurtuluş Günü münasibətilə ölkə paytaxtı Bakıda və əksər regionlarda müxtəlif toplantılar keçirilib. Həmin konfrans, mərasim və şənliklərdə ümummilli liderv Heydər Əliyevin 1993-cü ilin fəlakətli iyun günlərində xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı və ölkəni məhv olmaqdan xilas etməsi böyük qədirbilənliklə yad edilib.**

## Bakı

**Milli Kitabxanada "15 İyun Milli Qurtuluş Günü" adlı virtual sərgi onlayn rejimdə istifadəçilərə təqdim olunub. Ekspozisiyada rəsmi sənədlər, fotolar, mövzu ilə əlaqəli kitablar və dövri mətbuat səhifələrində dərc olunan materiallar nümayiş olunur.**




Sərgi ilə bağlı məlumatda bildirilir ki, Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan günlərdən biri və ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun Milli Qurtuluş Günüdür. Həmin gün ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda o zaman hökm sürən dərin ictimai-siyasi böhrana son qoyulub, Azərbaycanın müstəqilliyinin itirilməsi təhlükəsi aradan qaldırılıb və respublikamızda dövlət quruculuğunun, sosial-iqtisadi inkişafının təməli qoyulub.

1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib, bununla da, Azərbaycanın ən yeni tarixində növbəti və bu günə qədər davam edən uğurlu mərhələ başlayıb. 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi düşüb və bu tarix 1998-ci ildən dövlət səviyyəsində bayram kimi qeyd olunur.

Virtual sərgi ilə tanış olmaq istəyənlər https://anl.az/el/vsb/Milli_Qurtulus_Gunu/index.html linkindən istifadə edə bilərlər.

***

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Heydər Əliyev Mərkəzində keçirilən "Qurtuluşdan Zəfərə" adlı toplantıda ali məktəb rəhbərliyi, fakültə dekanları, şöbə, mərkəz və kafedra müdirləri, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.**



ADPU-nun rektoru, professor Cəfər Cəfərov qeyd edib ki, 15 İyun xalqımız üçün əsl qurtuluş tarixidir. Bu qurtuluşu mümkün edən əsas amilsə müstəqilliyimizin qorunub saxlanmasında və möhkəmlənməsində müstəsna xidmətlər göstərmiş ümummilli lider Heydər Əliyevin şəxsiyyəti və titanik fəaliyyətidir.

Bildirilib ki, son 30 ildə bütün sahələrdə qazanılan uğurların təməlində Ümummilli liderin müəyyənləşdirdiyi siyasi kurs və Prezident İlham Əliyevin bu kursu yeni şəraitdə yüksək səviyyədə davam etdirməsi kimi mühüm amillər dayanır. Ulu öndərin ən böyük arzularından biri işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpa edilməsi idi. 44 günlük Vətən müharibəsindəki möhtəşəm qələbə, sonrakı antiterror əməliyyatı, bu ilin mayında Qazax rayonunun işğal altındakı 4 kəndinin geri qaytarılması Heydər Əliyevin ən böyük arzusunu tam reallığa çevirərək, Azərbaycanın çoxəsrlik tarixində misli görünməmiş şanlı hadisələr oldu.

Məclis iştirakçıları Heydər Əliyevə həsr olunmuş sənədli filmə tamaşa ediblər. Ali məktəbin müəllimləri Paşa Quluzadənin "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi", İlkin Əsgərovun "Azərbaycan dili və ədəbiyyatının inkişafına Ulu öndərin diqqət və qayğısı", tələbə "Səidə Abulovanın "Heydər Əliyev və müstəqil Azərbaycanda gənclər siyasəti" mövzularında çıxışları dinlənilib.

Mərasim bədii hissə ilə davam edib.

## Naxçıvan

**İyunun 14-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Sarayında Milli Qurtuluş Gününə həsr olunmuş təntənəli mərasim keçirilib.**



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət, hökumət rəsmiləri və ictimaiyyət nümayəndələri tədbirdə iştirak ediblər.

Aparıcılar qeyd ediblər ki, dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız Ulu öndərin əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Məclisdə 15 İyun Milli Qurtuluş Gününə həsr olunmuş, eləcə də "Heydər Əliyev – Azərbaycan", "Heydər Əliyev – Mən fəxr edirəm ki, azərbaycanlıyam" videoçarxları nümayiş etdirilib. Videolentlərdə Naxçıvan Dövlət Film Fondunun arxivində mühafizə edilən, eləcə də yerli televiziyanın arxivində qorunub saxlanılan, Ümummilli liderin heç yerdə olmayan, unikal kadrları yer alıb.

Bədii hissə ilə davam edən məclisdə Naxçıvan Dövlət Milli Dram Teatrının baş rejissoru Mir Qabil Əkbərov görkəmli dövlət xadiminə həsr olunmuş və Ulu öndərin sevdiyi şeirləri səsləndirib.

Naxçıvan Dövlət Filarmoniyasının solistlərinin ifasında "Heydər xalqım deyəcək", "Məşəl kimi yanan ürək", "Canım qurban, Azərbaycan", "Azərbaycan sənsən mənim" mahnıları səsləndirilib, rəqs kollektivlərinin çıxışları izlənilib.

***



**Dünən Naxçıvan şəhər uşaq musiqi və incəsənət məktəbinin təşkilatçılığı ilə Naxçıvan şəhərində yerləşən "Gənclik" Mərkəzində ümummilli lider Heydər Əliyevin 101-ci ildönümü və Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş "Əbədiyaşar Lider – 100 illik diyar" adlı hesabat konserti də keçirilib.**

## Mingəçevir

**Milli Qurtuluş Günü münasibətilə Mingəçevir Şəhər İcra Hakimiyyəti və YAP şəhər təşkilatı birgə elmi-nəzəri konfrans təşkil edib. Heydər Əliyev Mərkəzində keçirilən məclis "15 iyun 1993-cü il Azərbaycan xalqının milli qurtuluş tarixidir" adlı filmin nümayişi ilə başlanıb.**



Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov bildirib ki, Milli Qurtuluş Günü Azərbaycan xalqının dövlətçilik tarixində müstəsna əhəmiyyətə malikdir. 1993-cü ilin iyun ayının əvvəlindən başlayaraq, ölkəmizdə baş verənləri təhlil edərkən qənaətə gəlmək olur ki, 1993-cü ilin 15 iyun tarixi Azərbaycan xalqı və dövlətçiliyi üçün həqiqətən də qurtuluş tarixidir. Ölkə Prezidenti İlham Əliyevin dediyi kimi: "Qurtuluş günü Azərbaycan tarixində dönüş nöqtəsi idi".

Konfransda YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev "Ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı milli qurtuluş tariximizin başlanğıcıdır", Mingəçevir Dövlət Universitetinin baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Aygün Yusifova "15 iyun 1993-cü il tarixi Azərbaycan dövlətçiliyinin inkişafı, tərəqqisi və yüksəlişinin əsasıdır", 7 nömrəli orta məktəbin direktoru, tarix üzrə fəlsəfə doktoru Anar İsmayılov "Ulu öndər Heydər Əliyevin 15 iyun 1993-cü ildən başlayan milli inkişaf strategiyasının müəllifidir", Mingəçevir Turizm Kollecinin Azərbaycan dili və ədəbiyyat müəllimi Aygün Əzizova "Ölkə Prezidenti İlham Əliyevin qazandığı zəfərlər milli qurtuluş tariximizin parlaq səhifəsidir" mövzularında məruzələrlə çıxış ediblər.

Sonda Yeni Azərbaycan Partiyasına qəbul olunmuş bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunub.

## Tovuz

**Tovuzda 15 İyun Milli Qurtuluş Günü "ulu öndər Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidməti Azərbaycan dövlətçiliyini xilas etməsi olub" mövzusuna həsr edilib.**



Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. RİH başçısı 15 İyun Milli Qurtuluş Gününün tarixi əhəmiyyətini vurğulayıb. O, ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin yaşaması, qüdrətli ölkə kimi təşəkkülü üçün həyata keçirdiyi misilsiz xidmətlərindən bəhs edərək qeyd edib ki, əgər 1993-cü il iyunun 15-də xalqın istəyi və tələbi ilə dövrümüzün müdrik və qətiyyətli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik.

## Goranboy

**Milli Qurtuluş Günü münasibətilə Goranboy Şəhər Mədəniyyət Evində toplantı keçirilib.**

Raon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev və digər natiqlər çıxışlarında vurğulayıblar ki, 15 İyun Günü milli bayramlar sırasında böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan ümummilli liderimiz Heydər Əliyevdir.



Sonra rayon mədəniyyət evinin və incəsənət ustalarının təqdimatında bədii-musiqili proqram nümayiş etdirilib.

## Daşkəsən

**Daşkəsən Rayon İcra Hakimiyyətinin və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışının 31-ci ildönümünə həsr edilmiş mərasim keçirilib.**



Çıxış edənlər 15 İyun Milli Qurtuluş Gününün tarixindən, Ulu öndərin siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə həyata keçirilən işlərdən və onun siyasi kursunun bu gün möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ordumuzun qazandığı tarixi Qələbənin əhəmiyyətindən danışıblar.

Daşkəsən Rayon Heydər Əliyev Mərkəzinin direktoru Nailə Məmmədova məruzəsində bildirib ki, Azərbaycanın qazandığı bütün nailiyyətlərin əsasında qurtuluş məfkurəsi dayanır.

Məclis ədəbi-bədii hissə ilə davam edib. Şagirdlərin hazırladıqları bayram əhval-ruhiyyəli çıxışlar və rəqs nümunələri maraqla qarşılanıb.

## Samux

**Qurtuluş Günü münasibətilə Samux Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyasının birgə təşkil etdiyi mərasimin iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad ediblər.**



Rayon İcra Hakimiyyətinin başçısı Firdovsi Əliyev bayram münasibəti ilə tədbir iştirakçılarını və samuxluları təbrik edib və bildirib ki, tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyunu bizim üçün çox qiymətli və əzizdir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan ulu öndər Heydər Əliyevdir.

Sonda rayonun ictimai-siyasi və mədəni həyatında fərqlənən bir qrup şəxs İcra Hakimiyyətinin başçısı tərəfindən fəxri fərman və hədiyyələrlə təltif edildilib.

## Naftalan

**Naftalanda Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Milli Qurtuluş Gününə həsr edilmiş toplantı keçirilib.**



Heydər Əliyevin abidəsi ziyarət edilərək xatirəsi dərin ehtiramla anılıb, Heydər Əliyev Mərkəzində Ümummilli liderin şərəfli ömür yolunu əks etdirən foto-eksponatlara baxış keçirilib.

ŞİH-nin başçısı Vüqar Novruzov Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, müstəqil dövlətimizin qurulmasında və möhkəmlənməsində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətlərindən danışıb. Türkiyə Cümhuriyyətinin Gəncə şəhərindəki Baş Konsulu Recep Öztop çıxış edərək deyib ki, Azərbaycan–Türkiyə qardaşlığı əsrlərə arxalanır. Ulu öndər Heydər Əliyev bu qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində, inkişaf etdirilməsində müstəsna xidmətlər göstərib.

**Hazırladılar:**
**Tahir AYDINOĞLU, Hamlet QASIMOV,**
**İlqar HƏSƏNOV, Səbuhi HƏSƏNOV**
**XQ**




15 İyun – Azərbaycan dövlətçiliyinin xilas günü, Milli Qurtuluş Günü münasibətilə xalqımızı təbrik edir, ölkəmizə rifah və əmin-amanlıq arzulayırıq.

Günün söhbəti

# “Müstəqillik Azərbaycana beynəlxalq jurnalistika da gətirdi”

**Müasir dövrdə ölkəmizin artan nüfuzu hər bir vətəndaşın qarşısında yeni tələblər və vəzifələr qoymaqdadır. İndi dünya arenasında qazanılan uğurların daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi jurnalistika, xüsusən də beynəlxalq jurnalistika sahəsində kadr hazırlığına xüsusi diqqət tələb edir. Xüsusən də 44 günlük Vətən müharibəsində tarixi qələbədən sonra bu sahədə aparılan işlərin vüsəti daha da artmış, vaxtilə təməli qoyulmuş işlərin daha inamla davam etdirilməsi günümüzün aktual məsələlərindən olmuşdur. Bakı Dövlət Universitetində beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının yaradıldığı vaxtdan keçən 20 il də bunu bir daha təsdiqləyir. Bu barədə uzun illər həmin kafedraya rəhbərlik etmiş professor Həmid Vəliyevlə müsahib olduq.**



– 1990-cı ildə BDU-da yeni fakültə yaradıldı, – deyə Həmid müəllim bildirdi. – Azərbaycan artıq müstəqillik yoluna qədəm qoyurdu və bu sahədə kadrlara ehtiyac meydana çıxmışdı. Fakültə beynəlxalq münasibətlər və beynəlxalq hüquq adlanırdı. Burada 3 ixtisas üzrə təhsil aparılırdı: beynəlxalq münasibətlər, beynəlxalq hüquq və beynəlxalq jurnalistika. Birinci kurs yekunlaşdıqdan sonra fakültədə beynəlxalq münasibətlər və beynəlxalq jurnalistika kafedrası yaradıldı. Bu quruma zəngin təcrübəyə və biliyə malik kadr, əvvəllər Bakı Şəhər Partiya Komitəsinin katibi və respublikanın təhsil naziri kimi yüksək vəzifələrdə çalışmış, tarix elmləri doktoru, professor Ağalar Abbasbəyli rəhbərlik edirdi. Beynəlxalq jurnalistika şöbəsinə hər il 8–12 nəfər tələbə qəbul olunurdu. Fakültənin ayrıca dillər kafedrasının olması tələbələrin müxtəlif dilləri, o cümlədən Avropa və Şərq dillərini mükəmməl öyrənmələrinə şərait yaradırdı. Beynəlxalq jurnalistika şöbəsinin tələbələrinin ingilis, fransız, alman və ərəb dillərini yaxşı bilmələri xarici ölkələrin kütləvi informasiya vasitələrini yaxından izləmələrinə, hətta xaricdə təcrübə keçmələrinə imkan verirdi.

**– Beynəlxalq jurnalistika şöbəsinin beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsində yaradılması təsadüf idi, yoxsa...**

– Əslində, beynəlxalq jurnalistika beynəlxalq münasibətlərin tərkib hissəsidir. Şöbə 1999-cu ilə qədər fəaliyyət göstərdi və bu müddət ərzində həm bakalavr, həm də magistr səviyyələrində yüksək biliyə, zəngin dünyagörüşünə malik jurnalist kadrları yetişdirilirdi. Bu kadrlar ən nüfuzlu sahələrdə, o cümlədən Xarici İşlər Nazirliyi sistemində özlərini lazımi səviyyədə göstərə bildilər. XİN-in məsul əməkdaşları Aybəniz Bayramova və Mətin Mirzə, AzərTAc-ın Çin Xalq Respublikasında müxbiri Şahin Cəfərov, AzTV-nin Beynəlxalq əlaqələr departamentinin rəhbəri Elnar Məmmədli və başqaları belə kadrlardandır. AzTV Qapalı Səhmdar Cəmiyyətinin sədri, filologiya elmləri doktoru Rövşən Məmmədov, jurnalistika fakültəsinin hazırkı dekanı, filologiya elmləri doktoru Vüqar Əliyev, uzun illər BDU mətbuat və informasiya şöbəsinin müdiri vəzifəsində çalışmış siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Pərvanə İbrahimova, filologiya üzrə fəlsəfə doktoru Vəfa İsgəndərova beynəlxalq jurnalist kimi tanınmış kadrlardır. BDU-da fəaliyyət göstərən Rus mədəniyyət mərkəzinin rəhbəri Arzu Məmmədova da kafedramızın üzvüdür. Bu ərəfədə fərəhli bir xəbər də aldıq: Pərvanə İbrahimova Prezident Administrasiyasında məsul vəzifəyə götürülüb, Vəfa İsgəndərova isə MEDİA-nın Naxçıvan Regional İdarəsinin müdiri təyin edilib.

Yetirmələrimizdən Elnur Niftəliyev “ASAN xidmət” mərkəzinin mətbuat şöbəsinə, Mehman Mehdiyev isə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinə rəhbərlik edirlər, Vüsalə Əliyeva Report İnformasiya Agentliyinin Fransa müxbiridir. Uzun illər ANS TV-də fəaliyyət göstərmiş Leyla Tağıyeva doğma kafedranın yubileyini İstanbuldan təbrik edir. Tövhə Zeynalova MSK-da, Natiq Pənahlı “Xəzər” televiziyasında məsul vəzifədə çalışırlar. Məzunlarımızdan Cəsarət Hüseynzadənin, Fatma Hüseynovanın, Süsən Quliyevanın xoş soraqları bizi sevindirir. Deməli, burada təsadüfi heç nə yoxdur.

**– Həmid müəllim, beynəlxalq jurnalist kadrlarının hazırlanması nə dərəcədə vacibdir? Zəruri dərs vəsaitləri, ədəbiyyatlar yetərlidirmi?**

– Əlbəttə, ölkəmizi xaricdə, o cümlədən jurnalistika sahəsində yüksək səviyyədə təmsil edə biləcək kadrlara böyük ehtiyac var. Beynəlxalq jurnalistika kafedrası yaradıldıqdan sonra, yəni 20 il ərzində çox böyük işlər görülmüş, jurnalist təhsilinin səviyyəsinin yüksəldilməsinə, professor-müəllim heyətinin tapşırıqların yerinə yetirməsi sahəsində məsuliyyətinin artırılmasına nail olunmuşdur. Kafedranın üzvləri çox sayda dərsliklər, dərs vəsaitləri, metodiki tövsiyələr və proqramlar yaratmışlar. Həm bakalavr, həm də magistr səviyyələrində proqramlar Elm və Təhsil Nazirliyinin və BDU-nun qrifləri ilə çap olunmuşdur. Təvazökarlıqdan uzaq olsa da, deməliyəm ki, mənim “Xarici ölkələrin jurnalistikası tarixi”, “Dünya informasiya agentlikləri”, “Beynəlxalq jurnalist təşkilatları”, “Mark Tven jurnalist kimi” dərs vəsaitlərim, professor Nəsir Əhmədlinin “Jurnalistin nitq mədəniyyəti”, “Con Milton və onun “Aeropagitika” əsəri” dərslikləri, siyasi elmlər doktoru Sabir Məmmədlinin “Beynəlxalq jurnalistika: təşəkkül prosesi və demokratik ölkələrin media təcrübəsi” və “Avropa Şurası və ATƏT-in media siyasəti” monoqrafiyaları, “Beynəlxalq jurnalistika media sistemində” və “Müstəqil Azərbaycanın mətbuat sistemi: təşəkkülü və inkişafı (1991-2000)” dərs vəsaitləri, dosent İlham Mazanlının “KİV millətlərarası və dövlətlərarası münasibətlərin təkmilləşdirilməsi faktoru kimi” monoqrafiyası və “Jurnalistika və müasir dövrün qlobal problemləri” dərs vəsaiti, dosent Pərvanə İbrahimovanın və filologiya üzrə fəlsəfə doktoru Vəfa İsgəndərovanın həmmüəllifliyi ilə çap olunmuş “Jurnalistika” dərsliyi, filologiya elmləri doktoru Vüqar Əliyevin “Beynəlxalq jurnalistikada etik normalar və Azərbaycan mətbuatı” və “Media imperiyası” monoqrafiyaları çap edilmiş və elmi ictimaiyyət tərəfindən yüksək qarşılanmışdır. Siyasi elmlər doktoru, professor Sabir Məmmədlinin son illərdə apardığı tədqiqatlar göstərir ki, dünyanın hər yerində yaşayan türkdilli xalqların müasir jurnalistikasını öyrənmək çox vacibdir.

**– Kafedranın xarici ölkələrlə əlaqələri durmadan genişlənir, əməkdaşların və doktorantların elmi işləri həm ölkənin nüfuzlu elmi jurnallarında, həm də xarici ölkələrdə çap edilir...**

– Elədir. Son illərdə Misir Ərəb Respublikasının və ABŞ-nin Azərbaycandakı səfirlikləri ilə diqqətəlayiq əlaqələr yaradılmışdır. Misirin məşhur “Əl-Əxbar” qəzetinin baş redaktorunun müavini tələbələrimizə Misir mətbuatı haqqında mühazirə oxumuş, səfirliyin Bakıdakı mədəniyyət mərkəzi jurnalistika fakültəsinin müəllimləri və tələbələri üçün ərəb dilini öyrədən kurslar təşkil etmişdir. Türkiyə universitetlərinin jurnalistika fakültələri ilə sıx əlaqələrin yaradılması qarşılıqlı səfərlərin təşkilinə imkan vermişdir. Kafedranın doktorantları Azərbaycan–Türkiyə münasibətləri sahəsində elmi-tədqiqat işləri aparmaqdadırlar. Qazaxıstanla münasibətlər yarada bilmişik. 2018-ci ildə Qumilyov adına Yeni Avrasiya Universitetinin jurnalistika və politologiya kafedrasının müdiri Ayazbi Beysenkulov kafedramızda olmuş və təcrübəmizi öyrənmişdir. 2018–2019-cu dərs ilinin birinci yarısında 8 nəfər qazaxıstanlı magistr tələbə müəllimlərimizin mühazirələrini dinləmişlər. Bu, tələbə mübadiləsi üçün zəmin yaratmışdır. Heç təsadüfi deyildir ki, cari dərs ilinin əvvəlində Qazaxıstanlı Aliyə Abışova kafedramızın 1-ci kurs magistrantları sırasına qəbul edilmişdir. Hər il magistratura şöbəsinə Çin Xalq Respublikasından gəlmiş 3-4 nəfər çinli tələbə daxil olur. Onların dissertasiya işləri əsasən mətbuatda Azərbaycan–Çin münasibətlərinə həsr edilir.

Beynəlxalq təşkilatlarla da yaxşı əlaqələr qurulmuşdur. UNICEF-in xətti ilə kafedranın 3 əməkdaşı Rumıniyada və İrlandiyada elmi konfranslarda olmuş və bunun nəticəsi kimi “Uşaq hüquqları və jurnalistika” bizdə də tədris olunmağa başlamışdır. Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyi ilə əlaqələr yaratmağımız, fakültədə yeni fənnin – “Beynəlxalq humanitar hüquq və jurnalistika” fənninin tədris olunmasına şərait yaratmışdır.

**– Kafedranın bugünü haqqında nə deyərdiniz?**

– Yeni yaradılanda cəmi 5 nəfəri birləşdirən beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının hazırda 11 üzvü var. Son 20 ildə kafedranın 3 üzvünün elmlər doktoru, 7 nəfərin fəlsəfə doktoru elmi adına yiyələnməsi, 13 nəfər doktorantın hazırlıq işlərinin davam etdirilməsi kafedrada zəruri elmi potensialın formalaşmasından xəbər verir. Bu, həm də beynəlxalq aləmdə jurnalist kadrlara olan ehtiyacın və ölkəmizin yüksələn nüfuzunun göstəricilərindən sayıla bilər.

**– Çox sağ olun, doğrudan da, Azərbaycanın bugünkü uğurlarını dünyaya tanıdan jurnalist kadrlara böyük ehtiyac var.**

***Müsahibəni hazırladı:***
***Namiq QƏDİMOĞLU***
***XQ***

# Xocalı qatili də erməni “ziyalılar”ından insaflı imiş

## Tac-Mahal məqbərəsi erməni qadının şərəfinə ucaldılıb?

**Ötən bazar günü “Dünyanın yeddi möcüzəsi” ilə yenidən maraqlanmaq istədim. Kaş maraqlanmayaydım. Çünki bir neçə materialda oxudum ki, Hindistanın Aqra şəhərindəki Tac – Mahal məqbərəsi ( 1632 – 1653-cü illərdə Böyük Moğol imperiyası dövründə inşa edilib – İ.M.) “dünyanın səkkizinci möcüzəsidir və bu möhtəşəm sənət əsəri Cahan Şahın xanımı, erməni qızı Mümtaz Mahalın xatirəsinə ucaldılıb.**



Məqbərənin saytında göstərilir ki, sifarişçisi Şah Cahan olan bu sənət əsərinin memarı Ustad Əhməd Lahauridir. Digər mənbələrdə göstərilir ki, Cahan Şah bu möhtəşəm tikintinin uğurlu alınması üçün İstanbuldan memarlar və digər mütəxəssislər gətizdirib. Rusdilli mənbələrin bir neçəsində isə göstərilir ki, İstanbuldan dəvət edilən mütəxəssislər Memar Sinanın (1490 – 1588, Konstantinopol) tələbələri idi.

Yəni bütün bunlar hamının bildiyi tarixi faktlardır. Ancaq 2017-ci il noyabın 2-də Hindistanda rəsmi səfərdə olan Ermənistan Prezidenti, Xocalı faciəsinin əsas günahkarlarından biri, uşaq qatili kimi tarixə düşmüş Serj Sarkisyan Tac-Mahal məqbərəsinin “Xatirə kitabı”na yazmışdır: “Mən tikintisinə erməni sənətkarlarının da xüsusi töhfələr verdiyi bu qar ağlığında olan məbəd və monumental kompleksi görəndə heyran oldum. Əbədi məhəbbətin müqəddəsləşdirilməsinin rəmzi kimi ucaldılan bu mükəmməl abidə dünyanın səkkizinci möcüzəsi adlandırıla bilər və inanıram ki, hələ çox əsrlər boyu buranı ziyarət edənləri mat qoyacaqdır”.

Sən demə, İstanbuldan Aqraya aparılmış türk memarlarını erməni kimi qələmə verən Serj Sarkisyan erməni “ziyalılarından” qat-qat “insaflı” imiş. “Rusiya – Ermənistan strateji və ictimai təşəbbüslərinin dəstəklənməsi Mərkəzi”nin 8 iyun 2022-ci il tarixlı materialında ( https://www.russia-armenia.info) göstərilir ki, 392 il əvvəl – 7 iyun 1632-ci ildə, Böyük Moğol Hind İmperiysasının (!?) paytaxtı Aqra şəhərində Cahan şahın xanımı – 14-cü övladını dünyaya gətirərkən vəfat etmiş erməni qadın Mümtaz Mahalın xatirəsinə mükəmməl bir məqbərə ucaldılıb. Saxtakar ermənilər riyakar rus həmfikirləri ilə birləşərək, bu mövzunu “tam əhatə etmək məqsədilə” geniş bir video-material ərsəyə gətiriblər.

Həmin video – materialda diktor mətni ilə söylənilir ki, Hindistanın görməli yerlərini ziyarət edən əcnəbilər daha çox Tac-Mahal məqbərəsinə üz tuturlar. Ancaq onların çoxu bilmir ki, bu möhtəşəm abidə şahın sevimli xanımı, erməni əsilli Mümtaz Mahalın xatirəsinin əbədiləşdirilməsi məqsədilə ucaldılıb.

Hələ bu harasıdır, erməni mütəxəssislər and-aman edirlər ki, Tac-Mahal məqbərəsinin müxtəlif yerlərində erməni xaçları quraşdırılıb. Bu ifadəni səsləndirərkən göstərilən kadrlarda hələ şumer dövründən hamıya məlum olan səkkizguşəli ulduzlar görünür. Bu da az imiş kimi, diktor deyir ki, Aqradakı möhtəşəm İslam abidəsi olan Tac-Mahal məqbərəsində yatan Mümtaz Mahal dünya ermənilərinin fəxr edə biləcəyi soydaşımızdır.

***İttifaq MİRZƏBƏYLİ***

# Belarus qəzeti Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirib

**Azərbaycan ilə Belarus arasında əməkdaşlıq yüksələn xətlə davam edir. Bu günlərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyətinin Belarusa rəsmi səfəri ikitərəfli münasibətlərin möhkəmləndirilməsində daha bir addım oldu.**


SB.BY

Bu fikirlər Belarusun “Respublika” qəzetinin 13 iyun tarixli nömrəsində dərc olunmuş “Strateji tərəfdaşlıq səviyyəsində iqtisadi əməkdaşlıq” sərlövhəli məqalədə yer alıb. Məqalədə qeyd olunur ki, ölkələrimiz arasında diplomatik əlaqələr qurulmasının 31 ili iyunun 11-də tamam olub. Lakin Misnklə Bakı arasında qarşılıqlı əlaqələrin, dostluq və əməkdaşlıq münasibətlərinin tarixi daha qədimdir. Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycana son dövlət səfəri zamanı qeyd edib ki, ölkələrimizin qarşılıqlı iqtisadi-ticari əlaqələrinin, sahibkarlıq subyektləri arasında əməkdaşlığın genişləndirilməsi qarşımızda duran əsas vəzifələrdən biridir.

Belarus parlamentinin Azərbaycanın Milli Məclisi ilə əməkdaşlıq üzrə işçi qrupunun rəhbəri Mixail Rusıy hesab edir ki, əməkdaşlıq üçün çox yaxşı imkanlar var. Belarusun köməyi ilə Azərbaycanda Gəncə avtomobil zavodunda kənd təsərrüfatı üçün traktorların istehsalı təşkil olunub. Belarus–Azərbaycan–Türkiyə marşrutu üzrə yükdaşımaların həcminin artırılması istiqamətində növbəti addım atılıb.

Məqalədə Azərbaycanın “Respublika” qəzetinin baş redaktoru Hümbət Musayevin fikirlərinə də geniş yer verilib.

Belarus Parlamenti Şurasının üzvü, “Konte Spa” MMC-nin inkişaf üzrə direktor müavini Valentin Baykonun fikrincə, dövlətlərarası fəal dialoq sayəsində iqtisadi-ticari əməkdaşlıq sahəsində bir sıra konkret layihələrin həyata keçirilməsi mümkün olub..

Məqalə bu fikirlə tamamlanır: “Əminik ki, tərəflərin iddialı planlarını həyata keçirmək üçün imkanları çoxdur”.

**XQ**

# Ombudsman Səmərqənd ekoloji forumunda

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva “Ətraf mühitlə bağlı çətinliklər: dəyişən dünyada insan hüquqlarının gələcəyi, dayanıqlı həll yolları üçün axtarış” mövzusunda keçirilən İnsan Hüquqları üzrə IV Səmərqənd Forumuna onlayn qaydada qoşularaq məruzə ilə çıxış edib.**




Müvəkkil hazırda dünyada mövcud olan qlobal iqlim problemlərinin insan hüquqlarının gələcəyi ilə bağlı bir sıra narahatlıqlara əsas yaratdığını bildirib. S.Əliyeva ölkəmizdə ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə ilə bağlı mühüm səylər göstərildiyi, o cümlədən dövlət proqramları, fəaliyyət planları və strategiyaların qəbul edilərək həyata keçirildiyini vurğulayıb.

Azərbaycan ombudsmanı ekoloji hüquqların müdafiəsi və təşviqi üçün yeni yanaşmaların, birgə əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını söyləyib.

**XQ**




## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 297** **Bakı şəhəri 12 iyun 2024-cü il**

**“Meliorasiya və irriqasiya sistemlərinin kadastrının aparılması Qaydası”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının 8.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Meliorasiya və irriqasiya sistemlərinin kadastrının aparılması Qaydası” təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 298** **Bakı şəhəri 12 iyun 2024-cü il**

**“Kənd təsərrüfatında özəl təsərrüfatların formalaşmasına yardım üzrə Dövlət Komissiyasının və Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyinin Əsasnamələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 aprel tarixli 65 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Kənd təsərrüfatında özəl təsərrüfatların formalaşmasına yardım üzrə Dövlət Komissiyasının və Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyinin Əsasnamələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 aprel tarixli 65 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 311 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 299** **Bakı şəhəri 13 iyun 2024-cü il**

**“Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi və “Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin Nümunəvi Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

**2** “Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 5, maddə 250 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**3.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 302** **Bakı şəhəri 13 iyun 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 20 noyabr tarixli 183 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ərzaq payı ilə təmin olunan gömrük orqanlarının vəzifəli şəxslərinin Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli 155 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı”nda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 14 mart tarixli 21 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 20 noyabr tarixli 183 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 11, maddə 685 (Cild I) ilə təsdiq edilmiş “Ərzaq payı ilə təmin olunan gömrük orqanlarının vəzifəli şəxslərinin Siyahısı”nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1** 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.1. aparatın rəhbəri;”.

**2** Aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

“2.1-1. katibliyin rəisi;”.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 300** **Bakı şəhəri 13 iyun 2024-cü il**

**“Dövlət və bələdiyyə tərəfindən yaradılan ümumi təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Dövlət və bələdiyyə tərəfindən yaradılan ümumi təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

**2.** “Ümumtəhsil internat məktəblərinin nümunəvi əsasnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 5 may tarixli 176 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 12 nömrəli və 8 fevral tarixli 77 nömrəli qərarları) ləğv edilsin.

**3.** “Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 1, maddə 58 (Cild I) ləğv edilsin.

**4.** Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları:

4.1. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədən irəli gələrək tabeliklərində olan ümumi təhsil müəssisələrinin yeni nizamnamələrini iki ay müddətində təsdiq etsinlər;

4.2. bu Qərarın 4.1-ci bəndində nəzərdə tutulmuş nizamnamələr təsdiq edildikdən sonra tabeliklərində olan ümumi təhsil müəssisələri tərəfindən “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətlərin beş gün müddətində həyata keçirilməsini təmin etsinlər;

4.3. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədə sonradan ediləcək dəyişikliklərdən irəli gələrək tabeliklərində olan ümumi təhsil müəssisələrinin nizamnamələrində dəyişiklikləri bir ay müddətində təsdiq etsinlər və bundan irəli gələrək tabeliklərində olan ümumi təhsil müəssisələri tərəfindən “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətlərin beş gün müddətində həyata keçirilməsini təmin etsinlər.

**5.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədən irəli gələrək dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyində olan ümumi təhsil müəssisələrinin nizamnamələrini bu Qərarın 6.1-ci bəndində nəzərdə tutulmuş təklif təqdim edildiyi gündən iki ay müddətində təsdiq etsin.

**6.** Dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər:

6.1. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədən irəli gələrək tabeliklərində olan ümumi təhsil müəssisələrinin nizamnamələrinin təsdiq edilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə təqdim etsinlər;

6.2. bu Qərarın 6.1-ci bəndində nəzərdə tutulmuş nizamnamələr təsdiq edildikdən sonra tabeliklərində olan ümumi təhsil müəssisələri tərəfindən “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətlərin beş gün müddətində həyata keçirilməsini təmin etsinlər;

6.3. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədə sonradan ediləcək dəyişikliklərdən irəli gələrək tabeliklərində olan ümumi təhsil müəssisələrinin nizamnamələrində dəyişikliklərin təsdiq edilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə təqdim etsinlər və nizamnamələr təsdiq olunduqdan sonra bundan irəli gələrək tabeliklərində olan ümumi təhsil müəssisələri tərəfindən “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətlərin beş gün müddətində həyata keçirilməsini təmin etsinlər.

**7.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 301** **Bakı şəhəri 13 iyun 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 549 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları”na aşağıdakı məzmunda 15-ci hissə əlavə edilsin:

“15. İnternat tipli ümumi təhsil müəssisələrinin şagirdlərinin dövlət təminatları və onların xüsusi hallarda təhsil müəssisələrində saxlanılma şərtləri

15.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 270 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları”na uyğun olaraq xüsusi ümumtəhsil məktəblərində və internat tipli ümumi təhsil müəssisələrində şagirdlər tam və ya qismən (yataqxana və qida ilə təminat) dövlət təminatında saxlanılırlar və onlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi normativlər və qaydalar üzrə qida, paltar, ayaqqabı, şəxsi gigiyena əşyaları, yumşaq inventar, dərslik, tədris ləvazimatları və digər zəruri avadanlıqlarla təmin olunurlar.

15.2. İnternat tipli ümumi təhsil müəssisələrini bitirən şagirdlərə istifadələrində olan paltar və ayaqqabını özləri ilə aparmalarına icazə verilir. İnternat tipli ümumi təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarına qanunvericilikdə nəzərdə tutulmuş qaydada mövsümi paltar və ayaqqabıdan əlavə, yataq ləvazimatı və müəyyən edilmiş məbləğdə birdəfəlik pul vəsaiti verilir.

15.3. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlar peşə, orta ixtisas və digər təhsil müəssisələrinə daxil olduqdan sonra “Məzun evi” Sosial Müəssisəsinin balansında olan binada yaşayış sahəsi ayrılanadək, qida ilə təmin edilməklə ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərində qala bilərlər.

15.4. Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin məzunları istehsalatda işləməyə gedərkən istehsalat təlimi dövründə 6 (altı) ay, xroniki xəstəlikləri olanlar isə yaşayış sahəsi olmadıqda 1 (bir) il müddətinə həmin məktəbdə saxlanıla bilərlər. Yaşayış sahəsi olmayan, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunların yetkinlik yaşına çatana qədər bu məktəblərdə qalmasına icazə verilir.

15.5. Yay tətili müddətində bu və ya digər səbəblərlə əlaqədar evə aparılmayan uşaqlar üçün həmin müəssisələrdə yay-istirahət düşərgəsi təşkil olunur. Uşaqların yay istirahətinin təşkilində yerli icra hakimiyyətləri, ərazi üzrə dövlət təhsil və tibb müəssisələri tərəfindən internat tipli ümumi təhsil müəssisələrinin rəhbərliyinə müvafiq kömək göstərilir.

15.6. Yay tətili ilə yanaşı, dərs ili ərzində olan bayram və digər tətil günlərində də şagirdlər valideynin (yaxud digər qanuni nümayəndənin) ərizəsinə əsasən evə gedə bilərlər. Başqa şəhər və rayonlara uşaqların valideynin (yaxud digər qanuni nümayəndənin) müşayiəti olmadan yola salınmasına icazə verilmir.

15.7. İnternat tipli ümumi təhsil müəssisələrinin şagirdləri həmin müəssisələrin yataqxanasında qalırlar. Uşaqların ailədə yaşamaq hüququnun təmin olunması məqsədilə (yaşadığı ev yaxındadırsa, şəraitlə əlaqədar uşağın valideynin yanında qalması mümkündürsə, səhhəti ilə bağlı gecələr valideyn nəzarətinə ehtiyacı varsa və s.) valideynin ərizəsinə əsasən müəssisənin bəzi şagirdlərinə dərslər bitdikdən və ya axşam yeməyindən sonra öz evlərində gecələmələrinə icazə verilir. I-VI sinif şagirdlərinə valideynin və ya digər qanuni nümayəndənin nəzarəti olmadan müstəqil surətdə evə gedib-gəlməsinə icazə verilmir.

15.8. İnternat tipli sanator ümumi təhsil müəssisələrində təlim-tərbiyə işləri ilə yanaşı, müalicə-sağlamlıq tədbirləri də həyata keçirilir.

15.9. İnternat tipli sanator ümumtəhsil məktəblərinə qəbul edilmiş şagirdlər müalicə başa çatdıqdan sonra əvvəllər oxuduqları ümumi təhsil müəssisəsinə qayıdırlar. Burada onlar internat tipli sanator ümumtəhsil məktəblərinin verdiyi sənədlərə əsasən əlavə yoxlama aparılmadan müvafiq sinfə qəbul edilirlər.”.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**




# ÜST-nin yeni peyvənd proqramı

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan Ofisi ictimai səhiyyə standartlarını təkmilləşdirmək üçün diplomaqədərki və diplomdansonrakı təhsil müəssisələri üçün yeni peyvənd tədris proqramı – kurikulum hazırlayaraq təqdim edib. Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Vaksinasiyaya Dəstək layihəsi vasitəsilə bu yenilikçi təşəbbüs tibb işçilərinə peyvənd praktikası üzrə təkmilləşdirilmiş təlim vermək, qısa və uzunmüddətli dövrdə immunizasiya xidmətlərinin keyfiyyətini artırmaq üçün nəzərdə tutulub.**



Təhsil müəssisələri ilə əməkdaşlıq ötən il Azərbaycan Tibb Universitetinin immunizasiya və peyvəndlə qarşısı alına bilən xəstəlikləri tədris edən kafedraların cəlb olunduğu Təlimçilər üçün Təlimin (ToT) proqramı ilə başlanıb. Bu həftə ərzində isə A.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda (ASATİD) yeni peyvənd kurikulumu ilə bağlı növbəti təlim kursu keçirilib. ÜST-nin beynəlxalq məsləhətçi tərəfindən keçirilən bu ToT sessiyada ASATİD, ATU, 2 saylı Tibb Kolleci və TƏBİB-i təmsil edən 20-dən çox müəllim iştirak edib.

ToT sessiyalarının əsas məqsədi immunizasiya ilə bağlı müasir standartlara cavab verən yeni kurikulumun tətbiqi vasitəsilə Azərbaycan səhiyyəsinin əhəmiyyətli dərəcədə təkmilləşdirilməsinə dəstək olmaqdır. Bu proqram həm də tibb təhsili verən müəllimlərin tədris bacarıqlarını gücləndirir, onlara minlərlə hazırkı və gələcək həkimlərə vacib immunizasiya təcrübələri öyrətməyə imkan yaradır.

Beynəlxalq məsləhətçinin cəlb edilməsi ilə proqramın yerli ehtiyaclara uyğunlaşdırılmış ən yaxşı qlobal təcrübələri özündə birləşdirməsinə nail olunub. Yeni kurikulum dayanıqlı səhiyyə sistemi üçün uzunmüddətli faydaları təmin etməklə həm təkmilləşdirmə, həm də diplomaqədərki təhsilin davamlı hissəsinə çevriləcəkdir.

**Təlimdə iştirak edən ADHTİ-nin pediatriya kafedrasının dosenti Mətanət Qaraxanova deyib:**

– ÜST Azərbaycan ilə əməkdaşlıq çərçivəsində yeni immunizasiya tədris planını təqdim edilməsi tibb işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün çox vacib addımdır. Bu təşəbbüs həkimlərin sübutlara əsaslanan son elmi biliklərini yeniləməklə vaksinasiya proqramlarımızın səmərəliliyini artıracaq və nəticədə minlərlə insanın həyatını xilas edəcəkdir.

Azərbaycanda immunizasiya təcrübəsinin yaxşılaşdırılmasına dəstək vermək ÜST-nin əsas prioritetlərindən biridir. 2021-ci ildən etibarən ÜST-nin Azərbaycandakı Nümayəndəliyi tərəfindən həyata keçirilən və Aİ tərəfindən maliyyələşdirilən "Vaksinasiyaya Dəstək" layihəsi çərçivəsində immunizasiya proqramının bütün aspektləri üzrə müxtəlif tədbirlər həyata keçirilib. Bu səylərə vaksinlərin təhlükəsiz saxlanılması və daşınılması üçün 1,5 milyon dollar dəyərində soyuq zəncir avadanlıqlarının alınması və yerli tibb müəssisələrinə təhvil verilməsi daxildir. Əlavə olaraq, soyuq zəncir inventar sistemi rəqəmsallaşdırılmış, immunizasiya məlumat sisteminin qiymətləndirilməsi həyata keçirilib və peyvəndlə əhatənin artırılması üçün modellər və yanaşmalar yerli səhiyyə tərəfdaşlarına təqdim edilib. Bu səylər valideynlər, himayəçilər və tibb işçiləri arasında aparılan formativ tədqiqatın sübutlarına əsaslanaraq həyata keçirilib.

***Z.HÜSEYNOVA***
***XQ***

---

**17 İyun Tibb İşçilərinin Peşə Bayramı Günüdür**

# Sağlamlıq xalqın gələcəyinin başlıca təməlidir

*Son illərdə səhiyyə xidmətlərinə əlçatanlıq artıb, infrastruktur yaxşılaşıb*

**Hər il iyunun 17-də səhiyyə işçilərinin peşə bayramını təbrik edirdik. Bu il həmin tarix qeyri-iş günü olduğundan diqqətinizə çatdırdığımız məqaləni tibb işçilərinin özəl gününə həsr edirik.**

Cəmiyyətin, sağlam ictimai mühitin formalaşmasında böyük rolu olan səhiyyəmiz son illərdə həm dövlət, həm də özəl sektorun inkişafı ilə yeni mərhələyə qədəm qoyub. İqtisadi irəliləyiş səhiyyənin inkişafına və əhalinin sağlamlığının qorunması problemlərinin davamlı həllinə nail olmağa imkan yaradıb. Ölkə rəhbərliyi tərəfindən müəyyən edilən uzunmüddətli inkişaf strategiyasının mühüm istiqamətlərindən biri kimi səhiyyənin inkişafı, əhalinin dünya standartlarına uyğun tibbi yardımla təmin olunması üçün genişmiqyaslı islahatlar həyata keçirilir.

Əhalinin keyfiyyətli və əlverişli şərtlərlə tibbi xidmətlə təmin edilməsi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında xüsusi yer tutur. Sənəddə səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların ən müasir tibb avadanlıqları ilə təchiz edilməsi, səhiyyə islahatlarının planlı şəkildə davamı nəzərdə tutulub. Əhalinin, xüsusilə, aztəminatlı təbəqənin son illərə qədər səhiyyə xidmətlərinə əlçatanlığı aşağı olsa da, həyata keçirilən proqramlar, reallaşdırılan layihələr bu sahədə vəziyyəti xeyli dəyişib. Ölkə iqtisadiyyatında sürətli inkişafın başlaması ilə paralel səhiyyə islahatları 2004-cü ildən etibarən daha da genişlənib.

Bu gün Azərbaycanın səhiyyə müəssisələrində istifadə edilən avadanlıqlar dünyanın aparıcı klinikalarındakından geri qalmır. Xəstəxanalar dünya standartlarına uyğunlaşdırılıb. Yeni tikilən, təmir və bərpa olunan səhiyyə ocaqlarına dünyanın inkişaf etmiş ölkələri olan Almaniya və İsveçrə kimi ölkələrdən müayinə cihazları gətirilir. 30 il öncə aparıcı müayinə rentgen idisə, indi USM, KT, MRT və digər müayinə üsullarından istifadə olunur. Təbii ki, bütün bunlar tibb təhsili sistemində də uyğun dəyişiklikləri, həmin avadanlıqlarla işləyə bilən həkimlərin peşəkarlığının artırılmasını tələb edir. Kadr təminatının yaxşılaşdırılması istəqamətində proqram həyata keçirilib. Xarici ölkələrdə təhsil almış həkimlər öz profilləri üzrə çalışmaqla yanaşı, eyni zamanda xarici təcrübənin, müasir müayinə-müalicə metodlarının yerli kadrlara öyrədilməsini, həkimlərin nəzəri bilik və praktik vərdişlərinin yaxşılaşdırılmasını həyata keçirirlər.

Səhiyyəyə ayrılan büdcə vəsaiti son 11 il ərzində 11 dəfədən çox artıb. Böyük əksəriyyəti respublikanın bölgələrində olan, müasir tibb avadanlığı və cihazlarla təchiz olunmuş 700-dən çox səhiyyə müəssisəsi əhalinin istifadəsinə verilib, yoluxucu xəstəliklərlə mübarizə işində mühüm nəticələr əldə olunub. Hazırda ölkəmizdə 33 mindən çox həkim, 54 minə qədər tibb işçisi əhalinin sağlamlığı keşiyində dayanır. Ana və uşaq ölümünün



səviyyəsi bir neçə dəfə aşağı salınıb. Belə ki, 2013-cü illə müqayisədə 5 yaşadək uşaq ölümü 2234-dən 1256-ya, ana ölümü 25 nəfərdən 18-ə düşüb.

Pandemiya dövründə Azərbaycan səhiyyə sisteminin dayanıqlılığı, həkimlərimizin bacarığı və fədakarlığı bir daha təsdiqləndi. Həmin dövrdə virusun diaqnostikası və müalicəsi üçün zəruri olan laborator testlər, bəzi tibbi avadanlıqlar və ləvazimatlar ölkəyə gətirildi. Testlərin aparılması üçün çoxsaylı laboratoriya fəaliyyətə başladı. Azərbaycan 80-dən çox xarici ölkəyə maliyyə və humanitar yardım göstərdi, eyni zamanda beynəlxalq təşkilatlara, o cümlədən ÜST-na 10 milyon dollar ianə verdi. Ölkəyə ən etibarlı vaksinlər gətirildi və 14 milyona yaxın peyvənd istifadə edildi. Azərbaycan hökuməti ÜST(WHO), UNİCEF, USAİD-nin ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi layihəsi, Açıq Cəmiyyət İnstitutu Yardım Fondu, Blumberq Təşəbbüsü Fondu, Dünya Bankı, Avropa Komissiyası, BMT-nin müvafiq strukturları və digər qurumlarla fəal əməkdaşlıq edir.

Səhiyyə Nazirliyi 2016-cı ildə fəaliyyətə başlayan İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə sıx əlaqələr qurub. İTS-nın məqsədi əhalinin tibbi xidmətlərə əlçatanlığını təmin etməkdir. Bu istiqamətdə 2017–2019-cu illərdə Mingəçevirdə və Yevlaxda pilot layihələr həyata keçirilib. Layihə müddətində pilot ərazilərdə sığortaolunanların ümumi sayı 256 min 401 nəfər olub. 2021-ci ildən isə icbari tibbi sığorta bütün ölkə ərazisini əhatə edib.

Hazırda tibb müəssisələrində informasiya-kommunikasiya texnologiyaları (İKT) infrastrukturu qurulub, İTS-nin məlumat bazası, habelə müvafiq proqram təmi-natı yaradılıb və geniş tətbiq edilir. Səhiyyə xərclərinin analizi, maliyyə dayanıqlılığı, doğum və ölüm göstəriciləri, həm də tibbi xidmətlərdən istifadə üzrə statistik məlumatların izlənilməsi və əhalinin sağlamlıq durumunun öyrənilməsi məqsədi ilə indikatorlar tətbiq edilib.

Dəyişikliklərin tətbiqi təkcə xidmətdən istifadə edənlərin deyil, eyni zamanda, xidmət göstərənlərin də marağına hesablanıb. İcbari tibbi sığorta çərçivəsində həkimlərin əmək haqlarına 2 növ əlavə tətbiq edilib, orta və kiçik tibb işçilərinin maaşları artırılıb. 1500-ə yaxın tibbi xidmətin tarifi aktual bazar qiymətlərinə uyğunlaşdırılıb: ambulator tibbi xidmət üzrə ixtisaslı həkim müayinəsi 17 manatdan 25 manata, ginekoloq müayinəsi (USM ilə) 25 manatdan 35 manata, laboratoriya xidməti üzrə hepatit B səthi anticismi (HBsAb) 5 manatdan 16 manata, Kalsiferol (Vitamin D) təyini 13 manatdan 21 manata qadırılıb. Stasionar tibbi xidmətlər üzrə doğuşa əllə yardım 350 manatdan 500 manata, tək koronar arteriyanın (aorto) koronar şuntlama əməliyyatı 4000 manatdan 4500 manata çatdırılıb. Xidmətlər zərfinə edilən digər dəyişikliklərə əsasən, il ərzində limit sayı 300 olan koxlear implantasiya və oynaqdaxili endoprotezləşdirmə əməliyyatları üzrə sığorta limiti ləğv olunub. Qaraciyər, böyrək və sümük iliyi transplantasiyası əməliyyatları üzrə isə illik limit sayı müvafiq olaraq 100, 150 və 20 müəyyən edilib. Bu transplantasiya əməliyyatları zamanı və transplantasiyadan sonra resipiyentin (donoru qəbul edən şəxs) dərman təchizatı da sığorta ilə təminata alınıb. Transplantasiya üçün bir donorun əməliyyata hazırlanması və əməliyyatı da tibbi xidmətin tarifinə daxildir. Beləliklə, 2019-cu illə müqayisədə dövlət tibb müəssisələrində işləyən həkim-mütəxəssislərin minimum əmək haqlarında 3,2 dəfə artım, gəlirlərində isə 5 dəfədən 50 dəfəyədək artım olub.

İTS üzrə Dövlət Agentliyinin hədəflərindən biri ölkədə universal tibbi təminata nail olmaqdır. Universal tibbi təminat ambulator müalicə üçün nəzərdə tutulan dərman vasitələrini qismən də olsa icbari tibbi sığorta tərəfindən qarşılayır. Gələcəkdə sağlamlığın qorunması üçün vacib hesab edilən bütün tibbi xidmətlər, o cümlədən ambulator şəraitdə dərman təminatı xidmətlər zərfinə daxil ediləcək. Hazırda bunun üzərində iş gedir və Türkiyə, Litva, Koreya kimi ölkələrin təcrübələri öyrənilir. Mərhələli şəkildə ambulator müalicədə resept əsasında yazılan bəzi dərmanların sığorta hesabına qarşılanması nəzərdə tutulur. İlk il kardioloji, 2-ci il həzm sistemi, növbəti ildə isə tənəffüs sistemi xəstəlikləri üçün dərman vasitələrini sığortaya daxil etmək hədəflənib. Bu, onu göstərir ki, İTS həkimlərin rifahına və bütövlükdə, səhiyyə sisteminə müsbət təsir göstərir. 4 ildən də az müddətdə belə uğurlara nail olunubsa, uzunmüddətli perspektivdə daha böyük nailiyyətlər əldə ediləcək.

Hazırda Şuşada, Zəngilanda, Laçında, Ağdamda, Füzulidə, Hadrutda, Xankəndidə, Xocalıda və işğaldan azad olunan digər bölgələrimizdə səhiyyə infrastrukturu təkmilləşdirilir. Travmatoloq, ümumi cərrah, kardioloq, revmatoloq, anestezioloq-reanimatoloq, funksional-diaqnostika həkimi, orta və kiçik tibb işçiləri, eləcə də qeyri-tibb işçiləri çalışırlar. Sakinlər icbari tibbi sığortanın xidmətlər zərfindən yararlanırlar. Əhalinin sağlamlığının qorunması sahəsində əhali üçün əlverişli şərtlər yaradıb, tibb müəssisələrinin fəaliyyətini icbari tibbi sığorta sisteminin tələblərinə uyğunlaşdırmaqla bərabər, xidmətlərin keyfiyyətinə də nəzarət edilir.

Bunlar vətəndaşların sağlamlığı naminə səhiyyədə aparılan islahatların uğurlu nəticələridir. Artıq əhalinin aztəminatlı təbəqəsi bir sıra xəstəliklərin müalicəsi və əməliyyatı üçün xarici ölkələrə üz tutmur, ara-sıra neqativ hallar olsa da, ölkənin səhiyyə müəssisələrində əlavə xərclərdən azad şəkildə tibbi sığortadan yararlanır və sağlamlıqlarına qovuşurlar.

Unutmuruq ki, pandemiya dövründə olduğu kimi 44 günlük Vətən müharibəsində də peşələrinə sadiq qalan həkimlər nələrə qadir olduqlarını sübut etdilər. Şəhid həkimlərimiz, qazi həkimlərimiz neçə-neçə yaralının həyatda qalmasına vəsilə oldular. Müharibə zamanı 159 hərbi tibb işçisi yaralandı. Onlardan 42 həkim, 37 feldşer və 26 sanitar şəhidlik zirvəsinə ucaldılar. Şəhidlərə Allahdan rəhmət, qazilərə cansağlığı diləyirik.

Sonda bizim bilik və bacarıqlı, mərhəmətli və xəstələrə doğması kimi can yandıran, gecənin bütün saatlarında çağırışa "hay verən" səhiyyə işçilərinin peşə bayramlarını səmimi təbrik edirik. Xalqımız bu sistemin daha da təkmilləşəcəyinə və tibbi xidmətlərə əlçatanlığının artacağına, tibb müəssisələrinin infrastrukturunun yaxşılaşacağına əmindir.

***Zərifə BƏŞİRQIZI***
***XQ***




BEYNƏLXALQ HƏYAT

# G7-nin əsas mövzusu Ukraynaya yardımdır

## *Sammitə Türkiyə lideri də dəvət olunub*

**İtaliyada üçgünlük G7 sammiti başlayıb. Onun əsas mövzusu Ukraynaya yardımdır. Sammitin ilk günündə Ukrayna lideri Volodimir Zelenski və ABŞ Prezidenti Cozef Bayden təhlükəsizlik sazişi imzalayıblar. Beləliklə, iki ölkə rəsmən müttəfiq olublar. Bundan əlavə, G7-nin qərarı ilə Qərbdə dondurulmuş Rusiyanın aktivlərindən əldə edilən gəlirdən istifadə etməklə Ukraynaya 50 milyard dollar məbləğində kredit veriləcək. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da sammitdə iştirak edir. 15 ildən sonra G7 zirvəsinə qatılan prezident Ərdoğan sammit zamanı ikitərəfli görüşlər keçirəcək.**



İyunun 13-dən 15-dək davam edəcək danışıqlarda Rusiya–Ukrayna münaqişəsi müzakirə olunacaq. Ona görə də sammitdə müzakirə olunan əsas məsələ Ukraynaya yardımdır. Sammit çərçivəsində Ukrayna ilə ABŞ arasında 10 illik təhlükəsizlik sazişi imzalanıb, tərəflər bunu münasibətlərdə mühüm mərhələ adlandırıblar və prezident Co Baydenin sözlərinə görə, bu, Ukraynanın müdafiə və çəkindirmə qabiliyyətini gücləndirmək üçün nəzərdə tutulub. Qeyd edək ki, Ukrayna ilə müqavilə Konqres tərəfindən ratifikasiya olunmayan sənədlərə aiddir. Ona görə də prezident Baydendən sonrakı prezident bunu asanlıqla ləğv edə bilər. Analoji saziş Yaponiya ilə də bağlanıb. Ukrayna prezidentinin sözlərinə görə, dünyanın ən iqtisadi və texnoloji cəhətdən inkişaf etmiş ölkələrindən biri ilə bağlanmış sənədə əsasən, Tokio 2024-cü il ərzində Kiyevə 4,5 milyard dollar ayıracaq və on il ərzində ölkəyə bir sıra mühüm sahələrdə dəstək verməyi öhdəsinə götürəcək. Beləliklə, Yaponiya NATO xaricində Ukrayna ilə belə bir müqavilə imzalayan ilk ölkə oldu.

Xatırladaq ki, G7 ölkələri Rusiyanın Qərbdə dondurulmuş aktivlərindən Ukraynaya yardım üçün istifadə edilməsinə razılıq veriblər. Bu razılaşma Kiyevə 46 milyard avroluq kredit paketinin verilməsinə yol açıb. Sammitə evsahibliyi edən İtaliyanın baş naziri Corc Meloni deyib ki, ilin sonuna qədər kreditlər sistemi vasitəsilə Ukraynaya, təqribən, 50 milyard dollar (46 milyard avro) əlavə maliyyə dəstəyi göstərmək üçün siyasi razılıq əldə olunub. Kredit Rusiya Mərkəzi Bankının dondurulmuş aktivlərindən əldə edilən mənfəətin faizləri hesabına maliyyələşdiriləcək. Razılaşmanın təfərrüatları hələ də razılaşdırılır, lakin vəsaitin ilin sonuna qədər Kiyevə veriləcəyi dəqiqdir. Bu pulların böyük əksəriyyəti Avropa Birliyində saxlanılır. “Rusiya aktivlərinin Ukraynanın xeyrinə istifadə edilməsinə dair qərarlar qəbul edilib və G7 50 milyard dollarla mühüm ilk addımı atıb. Təşəkkür edirəm!”, – prezident Zelenski gecə videomüraciətində vurğulayıb. Dondurulan Rusiya aktivlərinin məbləği 325 milyard dollar təşkil edir.

Bununla yanaşı, G7 ölkələri Rusiya neftinə qarşı sanksiyaların icrasına nəzarəti gücləndirmək, həmçinin enerji layihələrinə və metal satışına yeni məhdudiyyətlər də tətbiq etmək niyyətindədirlər. Bu barədə “Bloomberg” məlumat yayıb. Sənəddə deyilir ki, G7 Rusiyanın enerji və digər əmtəələrdən əldə etdiyi gəlirlərə əhəmiyyətli təzyiq göstərməyə davam edəcək. Bəyanatda qeyd olunub ki, G7 ölkələri neftin müəyyən edilmiş 60 dollarlıq qiymət həddini aşmaq üçün aldadıcı alternativ gəmiçilik metodlarından istifadə ilə mübarizə aparmaq niyyətindədirlər. Bundan əlavə, G7 gələcək enerji layihələrinin inkişafına mane olmağı planlaşdırırlar. Eyni zamanda, təşkilat üzvləri Rusiyanın metal satışından əldə olunan gəlirləri də azaltmağı təklif edirlər.

G7 liderlərinin Ukraynaya Rusiya aktivlərinin faizi ilə birlikdə 50 milyard dollar kredit ayırma qərarı Moskvada böyük narazılıqla qarşılanıb. Prezident Vladimir Putin bunun cəzasız qalmayacağını bildirib. Bəyanatında oxşar addımların Qərbdə də həyata keçirilə biləcəyinə işarə edən Rusiya lideri, Moskva ilə Qərb arasında münaqişənin “dönməz nöqtəyə” yaxınlaşdığına dair xəbərdarlıq edib və Moskvanın böyük nüvə silahı arsenalına malik olduğunu xatırladıb. V.Putin bəyan edib ki, Ukrayna Donetsk, Luqansk, Xerson və Zaporojyedən qoşunlarını çıxarsa və NATO-ya qoşulmaq istəyindən əl çəkərsə, danışıqlara “dərhal” başlaya bilərlər. Ancaq Ukrayna Putinin sülh təklifinin qəbul edilməyəcəyini açıqlayıb. Ukrayna prezidentinin aparat rəhbərinin müşaviri Mixail Podolyak X sosial şəbəkəsində yazıb ki, prezident Volodimir Putinin münaqişənin həlli ilə bağlı sülh təşəbbüsündə “əsl sülh təklifi” yoxdur.

Qeyd etmək yerinə düşər ki, G7 sammitinə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da dəvət olunub. Qardaş ölkənin KİV-i yazır ki, cənab Ərdoğan yüksək səviyyəli iclasda Türkiyənin Qəzzada daimi atəşkəsin təmin edilməsi üçün göstərdiyi diplomatiya və humanitar yardımlardan danışacaq. Bundan başqa, Türkiyə lideri sammitdə bir sıra ikitərəfli görüşlər də keçirəcək, mədəni tədbirlərə və qeyri-rəsmi şam yeməyinə qatılacaq.

***S.ELAY***
***XQ***

# Doktor, xəstənin taleyi sizin əlinizdədir...

**Dünyaya gözümüzü açanda başımız üstə anamızla bahəm onu da görürük. Ağlayanda, sızlayanda, dərdimizə çarə tapmayanda anamız da ona üz tutur: Həkim, kömək edin!**

Böyüyürük, həyatın enişli-yoxuşlu yolları ilə addımlayırıq, özümüzü narahat hiss edəndə, xəstəliyə düçar olanda, ağrı-acı yaxamızdan tutanda yenə də ona pənah aparırıq: Həkim, ümid sizədir!

Doğmalarımızdan kiminsə canı ağrıyanda, kimsə ağrılar içində qovrulanda, hətta həyatla-ölüm arasında çarpışanda, ən ümidsiz vəköməksiz vəziyyətdə olanda da yenə onun qapısını döyür, əllərinin şəfasina tapınırıq: Həkim, xilas edin!

Ən çətin anlarda, özümüzü narahat hiss etdiyimiz ən ağır günlərdə onlara üz tuturuq. Gecənin hansı vaxtı, gündüzün hansı zamanı müraciət etməyimizdən asılı olmayaraq, həmişə bizi diqqətlə dinləyir, şəfalı əlləri ilə ağrılarımızı yüngülləşdirir, dərdlərimizə məlhəm olurlar.

İyunun 17-si ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramıdır. Onlar müqəddəs peşələri ilə xəstələri həyata qaytarır, şəfalı əlləri ilə ömürlərə ömür calayırlar. Ona görə də bu gün ən xoş sözlər müqəddəs peşə sahiblərinin ünvanınadır.

Şair yaxşı deyib:

**Ömür itirəndə təravətini,**
**O zaman bildirir öz qiymətini...**

Onların əməyinə, bilik və bacarığına həyatın ən kritik məqamlarında ehtiyac duyuruq. Xeyirxah peşə sahibləri ən ağır və çıxılmaz vəziyyətlərdə ürəklərdə ümid işığı yandırmaq, şəfasıza şəfa, çarəsizə çarə vermək üçün hər cür zəhmətə qatlaşırlar. Onları əbəs yerə xilaskar adlandırmırlar.

Həmişə olduğu kimi, yeni növ koronavirus (COVID-19) pandemiyası və 44 günlük Vətən müharibəsi dövründə ölkəmizin tibb işçiləri öz vəzifə borclarını ləyaqətlə yerinə yetirərək həm ümumbəşəri təhlükə ilə mübarizədə, həm də döyüş cəbhəsində yaralanan əsgərlərin sağaldılaraq həyata qaytarılmasında böyük fədakarlıq nümunəsi göstəriblər.

Son dörd ildə Azərbaycan tibb işçiləri hər iki sınaqdan uğurla çıxıblar. COVID-19 pandemiyası Azərbaycanın səhiyyə sahəsində fövqəladə vəziyyətlərə yüksək hazırlıq səviyyəsini göstərdi. Vətən müharibəsində 159 hərbi tibb işçisi müxtəlif dərəcəli bədən xəsarəti alıb. 11 həkim, 7 feldşer və 26 tibbi təlimatçı olmaqla, ümumilikdə, 44 tibb işçisi qəhrəmancasına şəhid olub.




Böyük loğman İbn Sina yazırdı ki, həkim şahin baxışına, qız əlinə, ilan müdrikliyinə və aslan ürəyinə malik olmalıdır. Bir də deyirlər ki, o həkim xoşbəxtdir ki, qidası dərman, dərmanı isə qidadır.

Ən ağır və ən ümidsiz vəziyyətlərdə üz tutduğumuz, pənah apardığımız ağ xalatlı peşə sahibləri hətta ən ümidsiz və ən ağır vəziyyətlərdə hər şeyin həm də xəstənin öz əlində olduğunu anlatmaq üçün bəzən deyirlər: “Çarəsizsiniz. Çarə sizsiniz”.

Ümid yeri olmaq, şəfa paylamaq, ömürlərə ömür calamaq xeyirxah olduğu qədər də gərəkli və müqəddəs işdir. Elə buna görə də onlar hər cür hörmət və ehtirama layiqdirlər.

***Süleyman QARADAĞLI***

# Uşaqlar zərərli vərdişlərin qurbanı olmasınlar

**“Sahibsiz uşaqlara kömək” İctimai Birliyi bu ilin iyunundan Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə “Uşaqların narkomaniyadan qorunması” adlı layihənin icrasına start verib. 2 aylıq layihə çərçivəsində təşkilatın əsas məqsədi hüquq-mühafizə orqanlarının nümayəndələri ilə birgə orta məktəblərdə və digər ictimai yerlərdə əhalini, xüsusilə, uşaqları narkomaniyanın fəsadları, bu bəlanın dəhşətləri barədə maarifləndirməkdir.**



**İctimai birliyin sədri Məlahət Abbasova XQ-yə bildirdi:**

– Narkomaniya hər zaman olduğu kimi, müasir dövrdə də cəmiyyətin ağrılı problemi olaraq qalır. Ailədə uşaq dünyaya gəlir, valideyn min bir əziyyətlə onu böyüdüb cəmiyyətə yararlı bir vətəndaş etmək istəyir. Lakin bir qrup cinayətkar öz mənafeləri üçün uşaqların, yeniyetmələrin, gənclərin həyatını yarıda qırırlar.

Təşkilatımız diqqəti yenə də uşaqlara, yeniyetmələrə və onları himayə edən insanlara yönəltmək istəyir. Uzun illərdən bəri küçə uşaqları ilə işlədiyimiz üçün onlara daha çox qayğı göstərilməsinin vacibliyini hamıya xatırlatmaq istəyirik. Ümumiyyətlə, layihədə əsas hədəf qrupları uçaqlar və yeniyetmələrdir.

**2000-ci ildən indiyədək küçə uşaqları ilə işlədiyini vurğulayan təşkilat sədri daha sonra dedi:**

– Ötən illərdə dəfələrlə yapışqan iyləyən, diş pastasından istifadə edən, digər zərərli vərdişlərə qurşanan, taleyi uçurum kənarında olan uşaqlarla, onların himayədarları ilə görüşüb lazımi yardım etmişik. Bəzi hallarda belə uşaqlar aylarla təşkilatın sığınacağında yaşayıblar.

Bugünlərdə təşkilatımız Suraxanı rayonundakı Milli qəhrəman A.Aqarunov adına 154 nömrəli tam orta məktəbdə uşaqların narkomaniya bəlası ilə bağlı maarifləndirilməsi aksiyası həyata keçirmişik. Tədbirdə Suraxanı Rayon Polis İdarəsinin narkotiklərlə mübarizə bölməsinin əməkdaşları Əfqan Ağayev və Əzizağa Rzayev iştirak ediblər.

Srağagün Bakı şəhərinin Binəqədi rayonunda yerləşən 18 saylı peşə liseyində də maarifləndirici söhbət aparmışıq. Görüşdə Binəqədi Rayon Polis İdarəsinin narkotiklərlə mübarizə bölməsinin əməkdaşları Ramil Quliyev və Tural Bayramov da iştirak edib, uşaqları zərərli vərdişlərin acı nəticələri ilə bilgiləndiriblər. Belə aksiyaların həyata keçirilməsində bizə Daxili İşlər Nazirliyinin, Təhsil Nazirliyinin, KİV əməkdaşları da yardım etmişlər.

Əvvəlki layihələr çərçivəsində biz Qəbələ, Oğuz, Zaqatala, Beyləqan, Lənkəran, Masallı rayonlarında hüquq-mühafizə orqanlarının əməkdaşları ilə birgə orta və peşə ixtisas məktəblərində, universitetlərdə maarifləndirici tədbirlər aparmışıq. Bukletlər, flayerlər, plakatlar paylamış, maarifləndirmə tədbirləri həyata keçirmişik. Qeyd edək ki, layihə şərçivəsində biz 40-dan çox tam orta məktəbdə, 4 orta ixtisas və 3 ali məktəbdə görüşlər təşkil etmişik.

Narkomaniya əleyhinə növbəti layihəni Bakı şəhərində, Quba, Qusar və Xaçmaz rayonlarında polis əməkdaşları ilə birgə həyata keçirəcəyik. Əhaliyə narkomaniya problemi və ona qarşı mübarizə ilə bağlı maarifləndirici bukletlər paylanacaq.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Sükutun rəngli harayı

**“YARAT” müasir incəsənət məkanında rəssam, pedaqoq Aydan Salahovanın “Sükutun səsləri” adlı sərgisi açılıb. Bu qurumun sifarişi ilə hazırlanan sərgidə qlobal müstəvidə aktual olan məişət zorakılığı və onun qurbanlarının üzləşdikləri problemlər işıqlandırılır.**

Rəssam bu silsilədən olan əsərlərində məişət zorakılığının emosional mənzərələrini araşdıraraq qurbanların qorxularını və çarəsizliyini nümayiş etdirib. Ekspozisiyada ağlay daşından yonulmuş 12 nəhəng küpdən ibarət instalyasiya (müxtəlif yerlərdə yaradıla bilən vizual sənət əsəri) da təqdim olunur. Küplərdən çıxan səslər son 12 ildə baş vermiş ailə-məişət zorakılığının qurbanlarının faciəvi hekayələrini qısaca “danışır” və problemi əhatəli işıqlandırır. Bu, sənətçinin yerli daşla əsərlər yaratmaqda ilk təcrübəsidir.

Sərgi hər kəsi təhlükəsiz cəmiyyətin qurulmasını təbliğ edən dialoqa, anlaşmaya və həmrəyliyə səsləyir. Nümayiş etdirilən əsərlər hər kəsi qorxu və zorakılıqdan azad yaşaya biləcəyi bir cəmiyyət qurmağa dəvət edir. Sərgi dekabrın 30-na qədər davam edəcək. Sərginin kuratoru Fərəh Ələkbərlidir.



Bu tematik təqdimat Bakıda ilk irimiqyaslı muzey sərgisidir.

Aydan Salahova Moskvada açılan ilk müasir art salon olan “Pervaya Qalereya”-nın təşkilatçılarından və həmmüəlliflərindən biridir. Rəssam 1992–2012-ci illərdə fəaliyyət göstərən “Aydan” qalereyasının təsisçisi olub. Soydaşımız 2002-ci ildə Rusiya Rəssamlıq Akademiyasının gümüş medalına layiq görülüb. 2002–2007-ci illərdə Rusiya Rəssamlıq Akademiyasının müxbir üzvü, 2007-ci ildən isə həqiqi üzvü seçilib. Aydan Salahova yaradıcılığında Şərqlə Qərbin qarşılıqlı əlaqələri, daxili qadağalar və azadlıq, kişi və qadın münasibətləri, eləcə də dünyada qadının rolu və onun incəsənətdəki obrazı mövzularını araşdırır. Dünya şöhrətli rəssam Tahir Salahovun qızı olan Aydanın müxtəlif illərdə İspaniya, Rusiya, Böyük Britaniya, Belçika, Birləşmiş Ərəb Əmirlikləri və başqa ölkələrdə fərdi sərgiləri keçirilib. O, həmçinin çoxsaylı qrup sərgilərinin də iştirakçısı olub.

***Fidan HÜQUQQIZI***
***XQ***

## “Maştağa Aqrotexservis” ASC səhmdarlarının nəzərinə!

20 iyul 2024-cü il saat 14:00-da, “Maştağa Aqrotexservis” ASC-nin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. “Maştağa Aqrotexservis” ASC-nin 2023-cü ilə dair illik maliyyə hesabatlarının təsdiqi;
2. “Maştağa Aqrotexservis” ASC-nin əmlak kompleksinin inventarlaşdırma nəticələrinin müzakirəsi.

Səhmdarlar gündəlikdəki məsələyə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10:00-dan 13:00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu: 012 455-35-55, 050-324-30-07

Ünvan: Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Nizami küçəsi 4.

***Baş direktor***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 126 (30530) 15 iyun 2024-cü il, şənbə

İDMAN

## Millimiz dünya çempionatının finalında

**Bakıda keçirilən çövkən üzrə dünya çempionatında qrup mərhələsi başa çatıb.**



A qrupundakı son oyununda Özbəkistan yığması ilə qarşılaşan Azərbaycan millisi rəqibini 7 cavabsız qolla məğlub edib. Komandamız bu nəticə ilə qrupu lider kimi başa vurub və finala vəsiqə çıxıb.

Azərbaycan millisi həlledici görüşdə Mərakeş yığması ilə mübarizə aparacaq.

Üçüncü yer uğrunda matçda isə Özbəkistan və Nigeriya kollektivləri qarşılaşacaqlar.

Qeyd edək ki, hər iki qarşılaşma iyunun 16-da olacaq.

## Avro-2024: Almaniya 1 milyard dollara doğru

**Almaniyaya Avro-2024-dən böyük məbləğdə gəlir götürə bilər.**




Xarici nəşrlər qitə çempionatının ölkəyə 1 milyard ABŞ dolları qazandıracağını proqnozlaşdırır. Burada əsas amil kimi Almaniyaya turist axınının artması göstərilib.

Qeyd edək ki, Avropa çempionatı Almaniyanın 10 şəhərində keçiriləcək.

## Kazanda bürünc medal

**Azərbaycan samboçusu Rəsul Aydəmirov Tatarıstanın paytaxtı Kazan şəhərində keçirilən "BRICS Sports Games Kazan 2024" beynəlxalq multiidman oyunlarında uğurla çıxış edib.**




Millimizin üzvü 98 kiloqram çəki dərəcəsində bürünc medala layiq görülüb.

Qeyd edək ki, yarış iyunun 24-dək davam edəcək. Oyunlarda Azərbaycan 11 idman növündə 97 idmançı ilə təmsil olunur.

***L.QURBANOVA***
***XQ***

## Aranda yağmursuz, dağlarda yağış və duman...

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 15-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək.***

Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Cənub-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-25°, gündüz 30-34° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunundan 755 mm civə sütununa enəcək, nisbi rütubət gecə 40-50 , gündüz 60-70 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 32-37°, dağlarda gecə 8-12°, gündüz 15-20° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

Sabah Qurban bayramıdır

# Allaha sədaqətin əbədi mükafatı

**Dünya müsəlmanları növbəti dəfə Həzrəti İbrahim əleyhissəlamın dövründən indiyədək gələn Qurban bayramını qeyd edir. Bu tarixdə kəsilən qurbanların digər adı isə İsmail qurbanıdır. Allaha sədaqət, əhdə vəfa rəmzi olan bu bayramın keçirilməsinin ibrətamiz hekayəti var.**

"Xəlil" elə dosta deyilir ki, onun məhəbbətində heç bir nöqsan olmasın, şübhə yeri qalmasın. Qurani-Şərifin "Ən-Nisa" surəsinin 125-ci ayəsində buyrulur: "Həqiqətən, Allah İbrahimi Özünə xəlil (dost) seçmişdir". Yəni İbrahim (ə.) Allahın dostlarını özünə dost, düşmənlərini isə düşmən bilmişdir. Uca Yaradan da öz xəlili olan İbrahimə (ə.) düşmənlərə qarşı mübarizəsində kömək etmişdir. Məsələn, onu Nəmrudun dəhşətli tonqalından xilas edərək, alovu sərinləşdirmiş və soyutmuşdur. Yaxud, onu Misir padşahından qorumuş və camaatın imamı, rəhbəri seçmişdir...

Təsadüfi deyildir ki, Allah taala peyğəmbərlər arasında yalnız İbrahim əleyhissalamı "Xəlilullah" məqamı ilə zinətləndirmişdir. İbrahim öz xalası qızı Sara ilə evlənmişdi. Amma aradan uzun illər ötsə də onların övladı olmamışdı. Belə nəql eləyirlər ki, Sara həyat yoldaşının övlad arzusunda olduğunu duyub, ona təklif edib ki, mən kənizim Hacəri sənə bağışlayıram, onunla evlən, bəlkə Allah taala sənə övlad nəsib etdi və öz arzuna çatdın.

İbrahim Hacər ilə evləndi. Allah taala ona Hacərdən bir oğul nəsib etdi. Adını İsmail qoydu. Bu hadisə Şamda baş verib. İmam Cəfəri Sadiq (ə.) buyurur ki, İsmail dünyaya gəldikdən sonra Sara Hacəri əliuşaqlı gördüyünə və özünün bundan məhrum olduğuna görə çox kədərlənib, qəm-qüssəyə batıb. Bu, İbrahimin də narahatlığına, əzab-əziyyətinə səbəb olur. Xəlilullah Allahdan bu çətinliyin yoluna qoyulmasını təvəqqe edir. Allah taala ona vəhy yolu ilə buyurur: "Hacər ilə İsmaili Saranın yanından götürüb başqa bir yerə apar". İbrahim soruşur: "İlahi, onları hara aparım?". Allah Taala: "Əmin-amanlıq olan hərəmə, məkana və elə bir yerə ki, Yer üzündə birinci oranı (yəni Məkkəni) yaratmışam."

Bunun ardınca Allah taala Cəbrailə göstəriş verir ki, İbrahimi müşayiət edib yol göstərsin və Bürraq adlanan miniyi də onun üçün aparsın. İbrahim Hacərlə İsmaili götürüb yola düşür. Yolda harada bir yaşıllıq, çəmənlik, ağaclıq, suyu olan gözəl mənzərəli bir yerə yetişəndə İbrahim Həzrəti Cəbraildən soruşurdu: "Ey Cəbrail, burada onları düşürdümmü?" Cəbrail: "Yox, irəli get" deyir. Nəhayət, Məkkə vilayətinə yetişirlər və onları Kəbə evinin yanında düşürürlər.

İbrahim Saraya söz vermişdi ki, Hacərlə İsmaili mənzil başına çatdıran kimi, minikdən düşməyib geri qayıdacaq. Peyğəmbər xalası qızı ilə vədələşdiyi kimi, geri dönərkən Hacər ondan soruşur: "Ey İbrahim, bizi bu kimsəsiz biyabanda qoyub hara gedirsən?" İbrahim: "O kəs ki, sizi bura gətirməyi mənə əmr edib, özü sizin qayğınıza qalacaq"– deyib yola düşür.

Günəş günortaya yaxınlaşdıqca dözülməz istilər düşür. İsmail susuzluqdan ağlamağa başlayır, gətirdikləri su artıq tükənmişdi. Hacər əlacsız qalıb Səfa və Mərvə təpələri arasında haray çəkərək su axtarmağa başlayır: "Bu vadidə bir insan yoxmu?" səsinə səs verən olmur. Səfa təpəsinin üstünə çıxıb ətrafa göz gəzdirir. Heç kəs gözə dəymir. Bir qədər aralıdakı təpə səmtdə gözünə su görünür. Sevinərək həmin səmtə– Mərvaya doğru qaçır. Heç nə yox idi, demə, ilğım imiş. İlğım ananı su üçün yeddi dəfə (4+3) Səfa və Mərva arasında qaçmağa məcbur edir.

**Haşiyə:** Sonralar bura Həcc ziyarətinə gələnlər Hacər ananın övladına su tapmaq üçün Səfa və Mərva dağları arasında qaçmasını vacib "Səy" əməli kimi icra edirlər.

Ana kor-peşman halda ağlamaqdan səsi batmış körpəsinin yanına qayıdır. Əvvəlcə gözlərinə inanmır, İsmailin ayaqlarının altındakı qum yaş halda idi. Güman eləyir ki, bəlkə körpə özü isladıb. Gəlib yaş qumu əli ilə eşməyə başlayır. Bu vaxt həmin yerdən su fəvvarə vurur. Buz kimi bulaq suyu boş yerə axıb getməsin deyə, ətrafında qumdan tirə çəkir. Həmin yer sonradan Zəmzəm bulağı adlandırılır.



**Haşiyə:** Həcc ziyarətinin vacib əməllərindən biri də Zəmzəm suyundan içib bulağın yanında iki rükət namaz qılmaqdır.

Zəmzəm bulağının çağlaması Hacərlə körpəsinin bəzi qayğılarını yüngülləşdirir. Quşların bulaq üzərində dövrə vurması yaxınlıqdan keçən karvanların diqqətindən yayınmır. Yaxınlaşıb burada çox şəfalı bir bulağın çağladığını görürlər. Buradan götürdükləri suyun müqabilində bu bulağın sahibi olan Hacər anaya yemək, geyim əşyaları verirlər. Beləliklə də, bütün karvanlar yollarını buradan salır və çox vaxt onlar üçün düşərgə yeri olur. Hətta, bəziləri burada məskunlaşmaq üçün Hacərdən icazə də istəyirlər. Hacər onlara deyir ki, İbrahim gəlsin, icazəni ondan alarıq.

İbrahim (ə.) Məkkəyə gəlib ailəsinə baş çəkirdi. Belə səfərlərin birində Hacər ona deyir ki, buradan xeyli aralıda Cərhum qəbiləsi yaşayır. Onların nümayəndələri bizə dedilər ki, etiraz etməsəydiniz, köçüb burada – sizin yanınızda məskunlaşardıq. İndi sənin qərarını gözləyirlər. Peyğəmbər (ə.) "Eybi yoxdur, qoy, gəlib məskunlaşsınlar", – deyir.

Bununla, Hacərlə İsmail da tənhalıqdan qurtulurlar.

Onu da deyək ki, Allah taala sonradan İbrahim peyğəmbərə (ə.) Saradan da bir oğul bəxş edir. Adını İshaq qoyurlar. Qardaşlar ayrı-ayrı yerlərdə yaşayırlar – İsmail Məkkədə, İshaq isə Şamda. İsmail həddi-buluğa çatanda İbrahim peyğəmbər (ə.) bir yuxu görür. Qurani-Kərim "Əs-Saffat" surəsinin 101–102-ci ayələrində bu hadisəni belə təqdim edir:

"Biz də ona həlim xasiyyətli bir oğlan uşağı (İsmail) ilə müjdə verdik. O, yüyürüb qaçmaq çağına (on üç yaşına) çatdıqda (İbrahim) dedi: Oğlum, yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax, gör bu barədə nə fikirləşirsən? O, dedi: "Atacan, sənə nə əmr olunursa, onu da et. İnşallah, mənim səbirlilərdən olduğumu görəcəksən!"

Qurani-Kərimdən qaynaqlanan hadisə barədə İmam Cəfər (ə.) yazır ki, burada məqsəd İbrahimin (ə.) Allah fərmanı qarşısında dözümünün, səbrinin nə həddə olmasını imtahan edib sınamaq və ona verilən nemətlərə nə qədər layiq olduğunu bilmək idi. Eyni zamanda, başqaları da bundan ibrət alaraq, Allahın hökmlərinə itaət etsinlər.

Doğrudur, bu, İbrahim (ə.) kimi bir kişi üçün çox böyük və ağır imtahan idi. İllər boyu övladsız qalmış, indi isə Allah ona bir oğul əta etmişdi. Həmin övlad boya-başa çatdığı zaman yuxuda ona əmr olunur ki, öz əllərinlə oğlunu qurban kəsməlisən!

Amma İbrahim əleyhissalamın qəlbində Allah sevgisi o qədər böyük idi ki, Rəbbinin bu hökmünü tərəddüdsüz icra etmək qərarına gəlir.

Ata gördüyü yuxunu övladına danışarkən İsmail ədəblə atasına dedi ki, atacan, peyğəmbərin yuxusu düz və doğru, şeytan vəsvəsəsindən uzaq olur. Sənə əmr olanı icra elə. İnşallah, mənim səbr edənlərdən olduğumu görəcəksən.

Oğlunun bu qətiyyətindən sonra İbrahim (ə.) bıçağını itiləyib və kəndirini götürüb oğlu ilə Minaya yola düşür.

Məşhur İslam tarixçilərindən olan Təbəri nəql edir ki, onlar Minaya gedərkən Şeytan insan cildində zühur edərək bu işə mane olmağa çalışıb. Əvvəlcə İbrahim peyğəmbərə (ə.) yanaşıb onu fikrindən döndərmək istəyib: "Allah belə əmr etməz! Bu, Şeytan əməlidir. Sonra peşman olacaqsan!"

İbrahim onu qətiyyətlə qovur. Şeytan sonra İsmaili yoldan çıxarmaq istəyib: "O, səni öldürməyə aparır. Rəbbi ona bu göstərişi verib!" İsmail belə cavab verir: "Rəbbi göstəriş veribsə, gərək yerinə yetirsin və mən canla-başla ona təslim olacağam".

Şeytan bundan məyus olaraq, Məkkədə qalmış Hacərin yanına gəlib soruşur: – "Heç bilirsənmi İbrahim oğlunu hara aparır?"

– Dərədən odun yığmağa" – deyə Hacər cavab verir.

– Xeyr, onu apardı ki, qurban kəssin.

– Heç vaxt o, bu işi görməz. O, İsmaili çox istəyir.

– Bunu İbrahimə Allah əmr etmişdir.

– Əgər, bu işi Allah əmr etmişdirsə, onda biz hamımız ona təslim oluruq, – deyə Hacər də Şeytanı rədd edir.

İmam Musa ibn Cəfərin (ə.) nəql etdiyi hədisdə buyrulur: "Zəvvarların Minada Şeytanı daşlamalarının səbəbi budur ki, Şeytan orada İbrahimin (ə.), İsmailin, Məkkədə isə Hacərin gözünə görünüb və orada daşla qovulmuşdur. Sonradan bu, bir sünnə kimi Həcc ziyarəti əməlinə çevrilmişdir".

İbrahim peyğəmbərin (ə.) oğlunu necə qurban kəsmək istəməsini isə Qurani Kərimin Əs-Saffat surəsindən öyrənək: "Onların hər ikisi (Allahın əmrinə) təslim olduğu və (İbrahim İsmaili qurban kəsmək üçün) üzüstə yerə yıxdığı zaman (103-cü ayə) Biz ona belə xitab etdik: "Ya İbrahim! (104) Artıq sən röyanın düzgünlüyünü (Allah tərəfindən olduğunu) təsdiq etdin! (Sənə yuxuda nə əmr olunmuşdusa, onu yerinə yetirdin. Allah sənə lütf edərək oğlunun yerinə bir qoç kəsməyi buyurur). Biz yaxşı iş görənləri belə mükafatlandırırıq" (105). Şübhəsiz ki, bu, açıq-aydın bir imtahan idi (106).

Bu imtahan ilə həm də İslam aləmində çox mühüm bir ənənənin əsası qoyuldu. Hər il Həcc ziyarətində Minada, eləcə də, müsəlmanların yaşadıqları dünyanın hər bir guşəsində yüz milyonlarla İsmail qurbanı kəsilir və ehtiyacı olanlara paylanılır.

Allah qəbul eləsin!

***Hacı Qüdrət PİRİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ülvi Quliyevə anası

**DİNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4042
SİFARİŞ 1289
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00